AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

29 APREL 2014-cü il ÇƏRŞƏNBƏ AXŞAMI №087 (4960) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

Bakıda II Qlobal Açıq Cəmiyyətlər Forumunun rəsmi açılışı olmuşdur

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir

Aprelin 28-də Bakıda İkinci Qlobal Açıq Cəmiyyətlər Forumunun rəsmi açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak etmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkilatçılığı, BMT, Dünya Elmlər və Mədəniyyət Akademiyası, Roma Klubu, İsgəndəriyyə Kitabxanası və digər təşkilatların birgə əməkdaşlığı çərçivəsində keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumu 2015-ci il və ondan sonrakı mərhələdə dünyanın davamlı inkişafına həsr olunmuşdur. İki gün davam edəcək bu mötəbər beynəlxalq tədbirdə 30 ölkədən sabiq dövlət və hökumət başçıları, ümumilikdə 200-dək tanınmış siyasi və ictimai xadim, ekspert və elm adamı iştirak edir.

II Qlobal Açıq Cəmiyyətlər Forumunun açılışında çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi idarə heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail SERAGELDİN bildirdi ki, dünyada insanları bir araya gətirməyi, onlar üçün daha yaxşı həyat şəraitinin yaradılması ilə bağlı təşəbbüslərin irəli sürülməsinə nail olmağı əsas məqsədinə çevirən bu Forum qloballaşma dövründə açıq cəmiyyətlərin qurulmasına xüsusi əhəmiyyət verir. İsmail Serageldin dedi:

- Zati-aliləri!

Xanımlar və cənablar!

Belə bir möhtəşəm toplantıya xoş gəlmisiniz. Bizim buraya toplaşmaqda məqsədimiz bütün dünyada yaşayan insanları bir araya gətirmək, onların arasında təmaslar yaratmaq, onlar üçün daha yaxşı həyat tərzini və səviyyəsini təmin etməkdir.

Bu gün biz dünyada olan vəziyyətə, havanın qlobal istiləşməsi, münaqişələr, müharibələr, su resurslarının idarə edilməsi və digər problemlərə diqqət yetirəcəyik. Cəmiyyətlər daxilindəki təcridolunma hallarına nəzər yetirsək görə bilərik ki, açıq cəmiyyətlərin qurulması xüsusi əhəmiyyət kəsb edir. Buna görə, biz diqqətimizi məhz tariximizin səhifələrinə yetirməliyik, özümüz üçün müəyyən etməliyik ki, həyatın cövhəri nədir, biz həyati dəyərlərimizi nə dərəcədə qoruyub saxlaya bilmişik, yoxsa biz onları itirmişik, yoxsa biz onları diqqətdən kənarda qoymuşuq?! Buna görə, bu il yenidən bizim Bakıda toplaşmağımız 2013-cü ildə keçirilmiş birinci Forumda qaldırılmış məsələləri daha ətraflı şəkildə müzakirə etmək imkanı yaradır.

Hər zaman biz belə bir mühüm tədbirləri ilk növbədə ev sahibinə, Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq sözləri ilə başlayırıq.

* * *

Dövlətimizin başçısı Forumda nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Sizin hamınızı Azərbaycanda salamlayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkəmizdə olacağınız günlər uzun müddət ərzində sizin yaddaşınızda qalacaqdır. Burada Azərbaycana ilk dəfə səfər edən qonaqlarımız da vardır. Ümidvaram ki, bizim ölkəmiz, tariximiz, mədəniyyətimiz haqqında yaxşı təəssüratlarınız olacaqdır. Mən xüsusi olaraq həmkarlarımı - keçmiş dövlət və hökumət başçılarını salamlamaq istəyirəm. Təxminən otuzdan artıq keçmiş dövlət və hökumət başçısı qonaqlarımız sırasındadır. Bu, əlbəttə ki, tədbirimizin əhəmiyyətini göstərir.

Mən, həmçinin Madrid Klubuna təşəkkürümü bildirmək istəyirəm ki, onlar bizim ölkəmizin yaxşı tərəfdaşıdır. Bizim əməkdaşlığımız bir neçə il öncə qurulub və bu, çox məhsuldar və fəal işbirliyidir. Mən, həmçinin çox məmnunam ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu yaxınlarda yaradılmış bir qurum kimi olduqca qısa müddət ərzində kifayət qədər nüfuzlu beynəlxalq təsisata çevrilmişdir və artıq Madrid Klubu ilə birlikdə bu cür mühüm toplantını təşkil edir. Dostlarımıza, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dəstək verənlərə apardıqları fəaliyyətə görə olduqca minnətdaram. Bu Mərkəz Azərbaycan xalqının istedadının və müdrikliyinin rəmzi olan Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır.

Forumun gündəliyi çox genişdir və həyatımızın bütün mühüm aspektlərini əhatə edir. Əlbəttə ki, bu gün və sabah keçiriləcək sessiyalar zamanı hər kəs üçün bərabər imkanlar və lazımi həyat standartlarını təmin etmək məqsədilə keçmişdə baş verənlər və gələcəkdə görülməli işlər barədə mühüm bəyanatlar veriləcəkdir. Açıq cəmiyyət elə bir cəmiyyətdir ki, onun bütün üzvləri özlərini rahat hiss edir, şərəfli həyat tərzi sürür, iş yerləri vardır və öz övladlarının gələcəyinə əmindirlər.

Bizim öz təcrübəmiz vardır. Müstəqillik baxımından ölkəmiz gəncdir. Müstəqilliyimizin əldə edilməsindən sonra cəmi 22 il keçməsinə baxmayaraq, belə bir qısa tarixi müddətdə müxtəlif məsələləri həll etməli olduq. Başlanğıcda bir çox problemlərdən, siyasi və iqtisadi çətinliklərdən əziyyət çəkmişik. İndi isə, Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olduğu dövrdə bu dəyişiklik sadəcə gözlərimiz qarşısındadır və şadıq ki, biz bu prosesin bir hissəsi olmuşuq və həmçinin Azərbaycanın müasir dövlətə çevrilməsində fəal iştirak edirik. Xalqımızın gözəl tarixi, adət-ənənələri, mədəniyyəti vardır, lakin müstəqil ölkə kimi biz gəncik. Ötən əsrin əvvəlində müstəqillik dövrümüz olub, lakin bu, rus imperiyası dağıldıqdan və bolşevik inqilabından sonra baş verib və qısa sürüb, yalnız iki il çəkib. İnqilabın o vaxt şüarları var idi: zavodlar fəhlələrə, torpaqlar kəndlilərə verilməli, azadlıq isə rus imperiyasının bütün xalqları üçün təmin edilməli idi. Lakin həmin vədlərin heç biri reallığa çevrilmədi.

Buna görə, iki ildən sonra biz müstəqillikdən məhrum olduq və Azərbaycan digər ölkənin bir hissəsinə çevrildi. Əlbəttə ki, bu, həyatımızın, tariximizin bir hissəsi olub. Ona görə keçmiş sovet məkanında yaşayan insanlar, fikrimcə, onlar öz müstəqilliyini, müstəqil seçimini, azad olmaq, öz dövlətinə malik olmaq hüququnu daha yüksək dəyərləndirirlər və onlar öz dövlətləri ilə fəxr edirlər. Azərbaycanın təcrübəsi göstərir ki, gələcəyimiz, taleyimiz öz əlimizdə olduğu zaman biz əvvəlki vaxtlarla müqayisədə daha çox iş görə bilərik. Çünki qısa müstəqillik dövrümüz göstərir ki, bütün çətinliklərə, iqtisadi və siyasi böhranlara, 1990-cı illərin əvvəlində vətəndaş müharibəsinə baxmayaraq, biz həmin çətinliklərin öhdəsindən gələ bildik. Bu gün gələcəyimizi planlaşdırdıqda həyat tərzimizi daha da yaxşılaşdırmaq və daha güclü olmaq haqqında düşünürük.

Bu cür dəyişikliklərin əsas səbəblərindən birinə, yəni, ilkin şərtlərə gəldikdə, bu, islahatlar siyasətidir. Çünki həyatımızın hər bir aspektini dəyişməli idik, biz azad və müstəqil, öz dövlətimizə malik olmağı və bir siyasi sistemdən digər sistemə keçməyi öyrənməli idik. Bunu isə etmək asan deyildi. Lakin bu, baş verdi. Bu gün dövlətçiliyimizin möhkəm əsasları vardır. Biz geniş şəkildə ölkəmizi müasirləşdirən siyasi və iqtisadi islahatlar apardıq. Demokratiyanı inkişaf etdirdik, əsas azadlıqları, o cümlədən indiki həyatımızın ayrılmaz hissəsi olan toplaşmaq azadlığı, media azadlığı, azad interneti təmin etdik.

İyirmi iki il öncə biz bunu sadəcə arzulaya bilərdik. Eyni zamanda, aydın anladıq ki, möhkəm iqtisadi əsaslar olmasa, müstəqilliyimiz tam ola bilməz. Buna görə də siyasi islahatlarla iqtisadi islahatlar paralel həyata keçirilir. Burada qeyd etməliyəm ki, uğurlarımızın əsas səbəblərindən biri xarici sərmayələrin cəlb edilməsi idi. İyirmi il öncə üzləşdiyimiz eyni çətinliklərlə üzləşən ölkələrə gəldikdə isə, bizim təcrübəmiz ölkəni necə dəyişmək, vətəndaşlara daha yaxşı həyat təmin etmək üçün yaxşı nümunə ola bilər.

Biz xarici sərmayələri cəlb etməyi bacardıq. Həmin sərmayələri inkişaf etdirmək istədiyimiz, həmçinin sərmayədarlar üçün cəlbedici olan iqtisadiyyat sahələrinə istiqamətləndirdik. Biz münbit sərmayə şəraitini yaratdıq və çox çalışdıq ki, hətta 15 il öncə mövcud olmuş məhdud resurslarla çox sayda iş yerləri yaradaq. Biz bu gün də düzgün istiqamətdə irəliləyirik. Aydın şəkildə anladıq ki, müstəqilliyimizin gücləndirilməsində, onun əbədi, dönməz olmasında irəliyə doğru yol ondan ibarətdir ki, biz iqtisadi baxımdan azad, müstəqil və güclü olmalıyıq. İndi isə mən söyləyə bilərəm ki, illər boyu aparılan və bu gün də davam edən islahatlardan sonra Azərbaycan çox aydın gələcəyə malik olan ölkə kimi qəbul edilə bilər. Biz son 10 il ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşuq. Bizim üçün davamlı inkişaf gələcək üçün planlaşdırma deməkdir. Bizim "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyamız vardır. Bu sənəd gələcəyimizin əsas bələdçi sənədi kimi qəbul edilib.

Maliyyə vəziyyətimiz sabitdir. Xarici borcumuzun səviyyəsi çox azdır, ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, o deməkdir ki, biz beynəlxalq maliyyə təsisatları ilə daha fəal şəkildə işləmək planlarını qura bilərik. Eyni zamanda, iqtisadiyyat inkişaf etdirilmək üçün şaxələndirilməlidir. Çünki əlbəttə, təbii sərvət hesab edilən neft və qaz uğurlarımızın aparıcı meyarı olub. Hazırda şaxələndirilmə bizim əsas prioritetimizdir. Çünki neft və qaz sektoru hesabına çox iş yerləri açılmır. Buna görə, iqtisadiyyatın şaxələndirilməsi, sosial infrastruktura yatırımlar uzaq bölgələrdə belə lazımi həyat tərzini təmin edir, hər bir şəhərə genişzolaqlı internet çıxışını yaradır. üç min orta məktəbin, beş yüz xəstəxananın tikilməsi və digər amillər cəmiyyətimizə tamamilə yeni mühit yaratmaq imkanını verdi. İlk addım olaraq, biz xaricə miqrasiyanı, yəni, Azərbaycandan digər ölkələrə axını dayandırdıq. Bu, sonra ölkədaxili miqrasiya, yəni insanların kiçik kənd yerlərindən Bakıya axını ilə əvəzləndi. İndiki məqsəd isə bu miqrasiyanı da dayandırmaqdır. Bu məsələ də ilbəil öz həllini tapır.

(davamı 2-ci səhifədə)

Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresinin iştirakçılarına

Hörmətli media nümayəndələri!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində salamlayır, növbəti ali toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Əlamətdar haldır ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresi təşkilatın yaradılmasının 90-cı ildönümü ilə eyni vaxta təsadüf edir. Yubiley ilinə qədəm qoyan Assosiasiya təsis olunduğu dövrdən indiyədək dünyanın əksər ölkələrində idman jurnalistikası sahəsində ixtisaslaşmış qurumları öz ətrafında birləşdirməyə nail olmuş, onların fəaliyyətini uğurla koordinasiya edən mərkəzə çevrilə bilmişdir.

Nüfuzlu təşkilatın mötəbər toplantısının və yubiley mərasiminin Azərbaycanda keçirilməsi respublikamızın ictimai həyatında diqqətəlayiq hadisədir. Ümumiyyətlə, son illər Azərbaycan müxtəlif zirvə görüşlərinə, dövlətlərarası qurumların toplantılarına, sivilizasiyalararası dialoq forumlarına, qitə və dünya miqyaslı yarışlara ev sahibliyi edən bir məkan kimi tanınmağa başlamışdır. Beynəlxalq idman təşkilatları 2015-ci ildə ilk Avropa Oyunlarının, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi barədə qərar qəbul etmişlər. Biz bu qərarları cəmiyyətimizə xas olan yüksək tolerantlıq mühitinə, mükəmməl idman infrastrukturunun yaradılması sahəsində görülən işlərə və iri beynəlxalq tədbirlərin təşkili sahəsində əldə edilmiş zəngin təcrübəyə möhkəm inamın təzahürü kimi dəyərləndiririk.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda söz və ifadə azadlığı təmin olunmuş, çoxsaylı vətəndaş cəmiyyəti institutları və müxtəlif dillərdə nəşr edilən plüralist media məkanı formalaşmışdır. Bu gün ölkəmizdə minlərlə kütləvi informasiya vasitəsi - televiziya, radio, qəzet, jurnal, sayt və xəbər portalı fəaliyyət göstərir. Onlardan 60-a qədəri bilavasitə idmanla bağlıdır.

Hesab edirəm ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresi üzv ölkələrdə idman jurnalistikasının inkişafına, media nümayəndələri arasında əməkdaşlığın dərinləşməsinə, sağlam həyat tərzinin təbliğinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə sanballı töhfə verəcəkdir. Konqresin işinə uğurlar arzulayır, bütün iştirakçıları Assosiasiyanın 90 illik yubileyi münasibətilə təbrik edirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 28 aprel 2014-cü il.

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 31; 2001, N 6, maddə 415; 2006, N 12, maddə 1034; 2007, N 3, maddə 224; 2011, N 10, maddə 889) 2-ci hissəsinin beşinci abzasında "məhkəmə-daktiloskopik" sözlərindən sonra ", məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 28 aprel 2014-cü il.

Bakıda II Qlobal Açıq Cəmiyyətlər Forumunun rəsmi açılışı olmuşdur

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir

(əvvəli 1-ci səhifədə)

İqtisadi inkişaf olduqca ciddi sosial proqramlarla dəstəklənir. Çünki bilirik ki, bəzi hallarda radikal iqtisadi islahatlar insanların gündəlik həyatında müəyyən çətinliklər yaradır. Buna görə də hökumətimiz üçün sosial məsələlər hər zaman prioritet xarakter daşıyıb. Yaşayış standartlarının yaxşılaşdırılması, iş yerlərinin açılması, işsizliyin azaldılması, bütün bunlar göstərir ki, bunu etmək olar. Birinci olaraq, bizə sadəcə sabitlik lazımdır. Çünki sabitlik olmadan bütün bunlar mümkünsüzdür. İkincisi, əhalimizin əksər hissəsi tərəfindən dəstəklənən olduqca aydın daxili siyasətimiz vardır və biz nəticələrə nail olmalıyıq, verdiyimiz vədləri yerinə yetirməliyik, üzərimizə götürdüyümüz vəzifələri icra etməliyik. Bu halda olduqca mühüm məqama, siyasətçilərin məsuliyyətinə toxunuruq. Bu şəxslər işlərin başında dayanır. Bir sıra hallarda daha çox dəstək və daha çox səslərin qazanılması üçün bəzi həmkarlarımız populist vədlərlə çıxış edirlər. Lakin onlar yerinə yetirilməyəndə insanlar məyus olurlar. Siyasətçilərin məsuliyyəti onların özləri üçün olduqca çox vacibdir. Çünki bu, onlara etimad səviyyəsini artırır və cəmiyyəti daha da gücləndirir. Buna görə, nəticələrin əldə edilməsi əsas məqsədimiz idi. Bu nəticələr iqtisadi və statistik göstəricilərdə əks olunur. Hazırda yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Halbuki 10 il öncə 49 faiz olub. Surətli iqtisadi inkişaf Azərbaycan ətrafında olduqca yaxşı beynəlxalq mühit yaradır, çünki ölkəmiz daha çox tanınmağa başlayır. İndi daha çox insan Azərbaycanı tanıyır.

Hazırda biz tarixdə heç vaxt olmadığı kimi beynəlxalq təsisatların dəstəyinə malikik. Bunun bir nümunəsi bizim BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizdə 155 ölkənin lehimizə səs verməsi oldu. Bu, o deməkdir ki, beynəlxalq ictimaiyyətin tam əksəriyyəti bizi dəstəklədi. Hətta ikitərəfli münasibətlərimiz o qədər fəal olmayan ölkələr belə bizi dəstəklədi. Onlar bizə etimad göstərdilər. Çünki bilirdilər ki, biz öz vədlərimizi yerinə yetirəcəyik. BMT-nin Təhlükəsizik Şurasının üzvü kimi əsas gündəliyimiz hüququn aliliyini və ədaləti qorumaq idi. Fikrimcə, bunlar indiki dünyanın iki ən əsas elementidir. Əfsuslar olsun ki, onların hər ikisi kobud şəkildə pozulub. Bu pozulmaya reaksiya yoxdur, çünki erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Həmin qətnamələrdən heç biri həyata keçirilməyib. İşğal davam edir. Biz etnik təmizləməyə məruz qalmışıq. Ölkəmizin tarixi hissəsi olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon 20 ildən çoxdur ki, işğal altındadır. Beynəlxalq təşkilatlar, əlbəttə ki, qətnamələri qəbul ediblər. Bununla bağlı digər beynəlxalq təşkilatlar - ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və əlbəttə ki, BMT-nin Baş Məclisi və Təhlükəsizlik Şurası qərarlar qəbul ediblər. Lakin onlardan heç biri yerinə yetirilməyibdir. Görünür, onların icra mexanizmləri yoxdur.

Zənnimcə, 1990-cı illərin əvvəllərində baş verənlər göstərdi ki, biz azad olmaq, müstəqillik üçün böyük qurbanlar verməli idik. Lakin cəmiyyətimizin bütün üzvləri tam əmin idi ki, bu vəziyyət uzun çəkə bilməz. Biz doğma torpaqlarımıza qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan xalqı, 1 milyon qaçqın və məcburi köçkün hazırda işğalçılar tərəfindən zəbt olunmuş torpaqlarında, doğma yurdlarında yaşamaq hüququnu bərpa edəcəkdir. 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağda ermənilər qeyri-qanuni referendum keçirdilər. Bundan öncə, Dağlıq Qarabağın əhalisinin üçdəbirini təşkil edən etnik azərbaycanlılar oradan qovulmuşdur. Bu hadisədən sonra qeyri-qanuni referendum keçirildi. Bu səbəbdən, dünyanın heç bir ölkəsi nə həmin "referendum"u, nə də qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bir sözlə, beynəlxalq hüquq, ədalət və tarix mövqeyimizi dəstəkləyir. Lakin aydın şəkildə anlayırıq ki, ədaləti və beynəlxalq hüququ bərpa etmək üçün bu, kifayət deyildir. Bunu etmək üçün biz daha güclü olmalıyıq. Əfsuslar olsun, görürük ki, güc yenidən beynəlxalq münasibətlərin gündəliyində əsas yer tutur. Onda regionumuzun ölkələri, bizim kimi ölkələr nə etməlidir? Əminəm ki, belə bir sual bu Forumda müzakirə olunacaqdır. Müxtəlif ssenarilər vardır. Lakin bir məsələ tam aydındır ki, siz öz taleyinizin sahibi olmalısınız. Siz daha güclü olmalısınız. Cəmiyyəti əsas prioritetlər ətrafında səfərbər etmək üçün ürəkdən çalışmalısınız. Bizim üçün əsas prioritet ərazi bütövlüyümüzün bərpa edilməsi, müstəqilliyimizin gücləndirilməsidir və daha yaxşı həyat standartlarının xalqımız üçün təmin edilməsidir. Bütün bu elementlər bir-biri ilə bağlıdır. Əgər insanlar hökumətin gördüyü işin nəticələrini görürlərsə, gündəlik əsaslarla onların həyat tərzi yaxşılaşırsa, öz ölkəsi ilə fəxr edirlərsə, onda cəmiyyət güclü olur, parçalanmır. Cəmiyyət əsas məqsədlər ətrafında səfərbər olunur, öncə qeyd etdiyim kimi, müstəqillik və suverenlik məqsədi ətrafında toplaşır. Əlbəttə ki, Azərbaycanın inkişafı, çatışmazlıqlar və problemlər barədə cəmiyyətimizdə müxtəlif fikirlər vardır. Biz cəmiyyətimiz daxilində bu müzakirələri hər zaman yüksək dəyərləndiririk. Lakin həyatımızın strateji aspektinə gəldikdə, biz birik, yekdilik. Bu birlik bizi beynəlxalq səhnədə gücləndirir, bizə bu gün dünyanın üzləşdiyi problemlər haqqında açıq danışmaq, öz mövqeyimizi, beynəlxalq hüququ müdafiə etmək imkanını verir. Belədir ki, var.

Bu gün Azərbaycan açıq şəkildə bəyan edilən mövqeyə malik olan ölkədir. Bu, bir daha ədalətə və beynəlxalq hüquqa əsaslanır. Lakin eyni zamanda, biz on, iyirmi, otuz il əvvələ baxmalıyıq və siyasətimizi elə planlaşdırmalıyıq ki, dayanıqlı inkişaf davam etsin. Davamlı inkişaf isə bu gün hər bir ölkə üçün ən vacib prioritetlərdən biridir. Hətta ən inkişaf etmiş ölkələrə gəldikdə, onların öz problemləri vardır. Onların iqtisadi problemləri, miqrasiya məsələləri vardır. Onlara əlavə işçi qüvvəsi lazımdır. Lakin eyni zamanda, bu, cəmiyyətlərdə müəyyən gərginlik yaradır. Bizim fərqli problemlərimiz vardır. Fikrimcə, bu, problem deyil, əslində üstünlükdür. Bizim artan, gənc, dinamik əhalimiz vardır. Bu, o deməkdir ki, iqtisadiyyatımız hər zaman əhalinin artım tempindən daha surətlə inkişaf etməlidir. Çünki belə olmasa, biz günlərin bir günündə çətinliklər və işsizliklə üzləşə bilərik. Buna görə, surətli iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi və enerji əməliyyatlarından əldə edilən gəlirlərin iqtisadiyyatımızın ən vacib sahələrinə istiqamətləndirilməsi prioritetdir. Biz bu yolla davamlı inkişafa nail ola bilərik.

Cəmiyyətimizdə sosial və siyasi razılığın ən vacib elementlərindən biri multikulturalizmdir. Biz bir neçə beynəlxalq tədbir keçirmişik. Sivilizasiyalararası dialoq mövzusunda söhbətlər aparmışıq, beynəlxalq humanitar forumlar təşkil etmişik ki, bu mühüm mövzuları nəzərdən keçirək. Fikrimcə, bu kimi məsələlər bu günə qədər belə açıq şəkildə müxtəlif beynəlxalq təsisatlarda müzakirə olunmur. Çünki bu vəziyyətlə bağlı müxtəlif yanaşmalar vardır. Bəzi insanlar hesab edir ki, bu ideya baş tutmayıb. Lakin hesab edirəm ki, yaxşı misallar vardır və onlar yaxşı şəkildə nəzərdən keçirilməlidir ki, burada hər hansı bir bədbinlik olmasın. Multikulturalizm uçurum kimi qəbul edilərsə, bu dünyada yaşamağın başqa üsulu yoxdur. Çünki belə olmasa, xalqlar özlərini təcrid olunmuş vəziyyətdə hiss edəcəklər. Bu, nə iqtisadi, nə də sosial baxımdan mümkün deyildir. Buna görə, fikrimcə, Azərbaycanın, o cümlədən digər ölkələrin tarixi ənənələrinə əsaslanan müsbət misallar var ki, onlar təfərrüatlı şəkildə nəzərdən keçirilməlidir. Biz bu dəyərləri təşviq etməliyik. Bu da bizim vacib elementlərimizdən biridir ki, mən onları qeyd edirəm. Müsbət təcrübənin təşviqi bəzən bizim üçün çatışmır. Lakin, fikrimcə, dəyərlərin qorunması, qlobal siyasətdə müsbət meyllərin gücləndirilməsi üçün biz müsbət təcrübəyə diqqətimizi yönəltməliyik və bunu yaymalıyıq. Çünki bunun başqa bir yolu yoxdur ki, ölkələr gələcəkdə başqa yolla əməkdaşlıq etsinlər.

Əminəm ki, Forum çərçivəsində bir çox maraqlı müzakirələr aparılacaq və gələcək inkişafla bağlı hökumətlər üçün tövsiyələr veriləcəkdir. Bu cür sessiyaların üstünlüyü ondan ibarətdir ki, məşhur siyasətçilər, keçmiş dövlət və hökumət başçıları öz fərdi təcrübələrini, biliklərini, ekspert bacarıqlarını çox açıq şəkildə bölüşə bilərlər. Çünki hazırkı və keçmiş prezidentlər və baş nazirlər arasındakı fərq ondan ibarətdir ki, hazırkı dövlət başçıları ictimaiyyət qarşısında söylədiyi şərhlərdə müəyyən çərçivə daxilindədirlər, məhdud imkanları vardır. Bəzi hallarda sən söylədiyindən də artıq danışmaq istəyirsən. Lakin keçmiş siyasətçilər hər hansı məsələ ilə bağlı fikir söyləməkdə azaddırlar. Onların bu söhbəti məhz bu tərəqqinin əldə edilməsi üçün vacibdir. Ona görə, əminəm ki, Forumumuzun əsas məqsədi tövsiyələr və təhlillər vermək, baş verənləri müzakirə etməkdir. Bu məqsəd bizə öz işlərimizi dinc şəraitdə davam etdirmək, şərəfli həyat tərzi sürmək və geniş şəkildə beynəlxalq əməkdaşlıq aparmaq imkanı yaradacaqdır.

Hörmətli dostlar, Azərbaycana bir daha xoş gəlmisiniz! Forumun işinə uğurlar arzulayıram. Sağ olun.

* * *

İsmail SERAGELDİN: Sağ olun Zati-aliləri cənab Prezident!

Sizin olduqca ətraflı çıxışınıza görə Sizə təşəkkür edirik. Siz, təbii ki, nitqinizin sonunda bizi xüsusi olaraq belə bir müdrik mövqedən çıxış edərək dəyərli tövsiyələrimizi tərtib və təqdim etməyə dəvət etdiniz. Buna görə Sizə minnətdarıq, biz buna da çalışacağıq.

Biz çox yaxşı anlayırıq ki, dostlarımız, həmkarlarımız ətrafımıza baxmalıyıq və bilməliyik ki, biz hansı regiondayıq, hansı ölkələrdəyik və hansı yerdə yaşayırıq. Biz bütövlükdə bəşəriyyət üçün ən yaxşı məqsədləri formalaşdırmalıyıq və gələn onilliklər və ondan sonrakı dövr üçün məhz inkişaf məqsədlərimizi müəyyən etməliyik. Bununla belə, biz real tərəqqiyə bu məqsədlər istiqamətində nail olmalıyıq.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü, Finlandiyanın keçmiş Prezidenti Tarya HALONEN dünyanın bir çox ölkələrinin sabiq dövlət və hökumət başçılarının bir yerə toplaşıb çox vacib müzakirələr aparmağa şərait yaradılması baxımından Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun birgə fəaliyyətini yüksək dəyərləndirdi, növbəti dəfə belə müzakirələrə şərait yaratdığına görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. O, BMT çərçivəsində Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq ideal cəmiyyət yaratmaq istiqamətində Azərbaycanın nümunəsindən danışaraq dedi:

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti, hörmətli həmkarlarım, hörmətli dostlar!

Bu qədər çox sayda bu gün qonaqlarımız və dostlarımız qarşısında çıxış etməkdən şərəf hissi duyuram. Burada bütün həmkarlarımı təbrik edirəm ki, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu çərçivəsində əməkdaşlıq nəticəsində bu sayda keçmiş hökumət və dövlət başçılarını bir araya yığırıq və burada açıq cəmiyyətlər mövzusunda ümumi müzakirələr aparırıq.

Mən bu fürsətdən istifadə edərək ev sahibinə - Azərbaycan hökumətinə və təşkilatçılarına Bakı şəhərində bizə göstərilmiş gözəl, səmimi qonaqpərvərliyə görə təşəkkürümüzü bildirmək istəyirəm. Bizim bir çox dərin minnətdarlığımızı hamınız adından izhar edirəm.

Hörmətli dostlar, burada bizim qarşımızda duran vəzifə ondan ibarətdir ki, biz 2015-ci ildən sonra inkişafın hansı məsələləri barədə daha çox söhbət aparacağıq. Sizin qarşınızda etdiyim çıxışın əsas məqsədlərindən biri ondan ibarətdir ki, biz hamımız dərk etməliyik üzərimizə düşən məsuliyyət hansı dərəcədə olmalıdır. Gələcək illər ərzində biz bu məsuliyyəti necə icra etməliyik. Çünki BMT-nin Minilliyin Sammitində çox məşhur olan Minilliyin İnkişaf Məqsədləri qəbul edildikdən sonra biz bir çox işləri görmüşük. Bilirik ki, bizim üçün müəyyən mühit yaradılıb və bu mühitin əsas məqsədi məhz əməkdaşlıq olubdur. BMT çərçivəsində məhz dövlət və hökumət başçıları bəyan etdilər ki, onlar da bu minillik ərzində daha yaxşı cəmiyyətlər yaratmaq istəyirlər. Təbii olaraq bizim də qarşımızda eyni bir məqsəd var idi ki, biz öz gələcək nəsillərimiz üçün daha yaxşı cəmiyyəti, gələcəyi təmin etməliyik. Zənnimcə, biz buna müəyyən mənada nail ola bildik. Hətta onu qeyd edək ki, bəlkə də məqsədlərin hamısı hələ tam şəkildə icra olunmadıqda belə biz israrlıyıq, biz əzmkarıq. Biz istəyirik ki, bundan sonra da öz siyasi fəaliyyətimizlə bu məqsədlərə nail olunmasında, məsələn, təhsilin təmin edilməsində və digər vacib vəzifələrin həllində irəliyə doğru gedək. Bu gün ev sahibliyi edən məhz Azərbaycandır.

Azərbaycan son illər ərzində öz sürətli inkişafı ilə çox gözəl nümunələr göstərmişdir. Biz bilirik ki, Azərbaycanda yoxsulluq böyük dərəcədə azaldılmışdır. Bu, 2012-ci ildə 6 faizə düşmüşdür. Bu da çox mühüm bir hadisədir. Biz bilirik ki, sizin bu sahədə qazandığınız uğurlar, verəcəyiniz məsləhətlər də digər ölkələr üçün dəyərli ola bilər. Ona görə, biz BMT çərçivəsində təqdim etdiyimiz proqramımızda göstərmişik ki, Minilliyin sonrakı inkişaf məqsədləri nədən ibarət olmalıdır. Bu haqda da söhbət aparmışdıq. Biz hazırda çalışırıq ki, bu proqramı yüksək səviyyədə təqdim edək. Bununla bağlı məhz İndoneziya Prezidenti ilə birgə çıxış edərək bu təşəbbüsü BMT-nin Baş Məclisinə təqdim etmişik. Biz istəyirik özümüz üçün müəyyən edək ki, gələcək üçün hansı işləri həyata keçirməliyik. Biz 19 əsas fəaliyyət sahəsini müəyyən etmişik. ümidvarıq ki, qarşıdan gələn iyul ayında bu proqram qəbul olunduqdan sonra Baş Məclis çərçivəsində biz bunun icrasının hüquqi mexanizmləri haqqında düşünməli olacağıq. Burada əhatə olunan müddət əsasən 2015-ci ildən sonrakı dövrə aiddir. Biz bilirik ki, BMT bu sahədə aparıcı rol oynayır. BMT-nin əsas rolu ondan ibarətdir ki, aramızda müxtəlif məlumat mübadiləsini təmin edir. Lakin öz tərəfimdən əminliklə deyə bilərəm ki, hökumətlər, hökumət və dövlət başçıları vardır ki, onlar BMT-nin Baş Məclisində bu məsələni xüsusi olaraq dəstəkləməkdə maraqlı ola bilərlər. Biz isə öz tərəfimizdən onların bu fəaliyyətinin daha da düzgün istiqamətdə, sürətli şəkildə irəliyə doğru aparılmasına töhfəmizi verməliyik. BMT-nin baş katibi bütün xalqlara, millətlərə müraciət edərək xahiş etmişdir ki, onlar öz gələcəklərini düşünürsə bu yeni inkişaf məqsədlərinin formalaşdırılmasına töhfələrini versinlər.

Azərbaycan isə digər bir neçə ölkə ilə eyni mövqedən çıxış edərək 2015-ci ildən sonra inkişafın prioritetlərinin nədən ibarət olacağı ilə bağlı artıq öz töhfəsini verməyə razılıq vermişdir. Azərbaycan hökuməti artıq 2020-ci ilədək inkişaf proqramını qəbul etmişdir. Bu sənəddə məqsədlər aydın göstərilir. Həmin məqsədləri Minilliyin yeni inkişaf məqsədlərinə daxil etmək olar.

Tarya Halonen əsas siyasi, iqtisadi və humanitar fəaliyyət sahələrində reallaşdırılan layihələrdən danışdı və bu baxımdan Azərbaycanın növbəti illər üçün inkişafa xidmət edən konkret proqramlara malik olduğunu vurğulayaraq bildirdi:

- Azərbaycanın təbii sərvətləri, neft və qaz resurslarına sərmayə yatırılması nəticəsində geniş imkanlar yaradılmışdır. Biz, həmçinin bilirik ki, bu ölkədə neft və qaz gəlirlərindən səmərəli istifadə olunaraq iqtisadiyyatın digər sahələrinə də sərmayələr yatırılır. Cənab Prezident buradakı nitqində iqtisadi sektorun şaxələndirilməsini xüsusi vurğuladı. Bunun sayəsində iqtisadiyyatın informasiya texnologiyaları və digər sektorları da sürətlə inkişaf edəcəkdir. Bütün bu fikirlərdən çıxış edərək bildiririk ki, vətəndaşlarımızın rahat və təhlükəsiz həyatı vacib bir məqam kimi yenə də bizim gündəliyimizdə qalacaqdır. Ona görə də biz hesab edirik ki, bütün bunlar həyatımızın çiçəklənməsinə aparan əsas yollardan biridir. Davamlı enerji mənbələri 2015-ci ildən sonra da hamı üçün inkişaf məqsədlərinin bir hissəsi ola bilər.

Finlandiyanın keçmiş Prezidenti daha sonra Azərbaycanın BMT-nin insan kapitalına yüksək qiymət vermək ənənəsinə sadiq qalaraq gender siyasətini uğurla həyata keçirdiyini bildirdi. O, işsizliyin və yoxsulluğun aradan qaldırılması, ətraf mühitin qorunması, çevik enerji siyasətinin yerinə yetirilməsi, təbii sərvətlərin şaxələndirilməsi, alternativ enerji mənbələrindən istifadə olunması sahəsində Azərbaycanda atılan addımları hamı üçün faydalı nümunə kimi dəyərləndirdi.

* * *

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Madrid Klubunun prezidenti, Latviyanın keçmiş dövlət başçısı Vayra VİKE-FREYBERQA da dünyanı narahat edən məsələlərin müzakirəsi üçün bu Forumun keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Nizami sənətinin fövqəlbəşər olduğunu deyən Vayra Vike-Freyberqa onun əsərlərinin insanlığı ədalətə və humanizmə səsləyən motivlərlə zəngin olduğunu bildirərək dedi:

- Zati-aliləri hörmətli Prezident Əliyev.

Hörmətli Azərbaycan hökumətinin üzvləri, merlər, diplomatik korpusun nümayəndələri, mənim hörmətli həmkarlarım, keçmiş prezidentlər və keçmiş baş nazirlər, bir çox ölkələrin yüksək rütbəli nümayəndələri və Madrid Klubunun üzvləri.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Madrid Klubu arasında qurduğumuz bu sistem, bu əməkdaşlıq mexanizmi çox məhsuldar işbirliyinin nümunəsidir. Biz bunu belə qiymətləndiririk. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bir neçə il öncə yaradılmışdır. Məqsəd nədən ibarət idi? Bu böyük şəxsiyyətin əsrlər öncə yaşayıb yaratmış ideyalarını bütün dünyada təşviq etmək. Nizami ədəbiyyat şedevrləri yaratmışdır. Onun doğma şəhəri Gəncədə yaratdığı əsərlər Azərbaycan və bütün dünyanın mədəni irsinin vacib hissəsinə çevrilmişdir. Hesab edirik ki, bir halda Nizaminin əsərlərini, onun ideyalarını qəlbimizdə yaşadırıqsa və əgər onun irsinin davamçılarıyıqsa, biz onun yaratdıqlarından istifadə edib stereotiplərin aradan qaldırılmasına çalışmalıyıq. Nizaminin əsərlərinə, yazdığı şeirlərə fikir versək, görərik ki, onlar elə indinin özündə də aktualdır. Biz onu şairlikdən əvvəl məhz həyat ideyalarının, həyat dəyərlərinin formalaşmasına çalışan, bu istiqamətdə işləyən bir mütəfəkkir kimi qəbul etməliyik. O, bizim mədəniyyətimizin böyük simasıdır, qəhrəmanıdır. Onun bizim üçün yaratdığı və qoyub getdiyi irsə böyük hörmətlə yanaşmalıyıq.

Bu gün dünyanın müxtəlif yerlərində müxtəlif millətlər, xalqlar arasında dialoq məsələsi tez-tez səsləndirilir. Bizim Klubumuz bu məqsədlərdən biri uğrunda mübarizə aparır. Əslində biz 10 il öncə Madriddə Klubumuzu yaradanda, keçmiş Baş nazirləri və keçmiş dövlət başçılarını bir araya gətirəndə özümüz üçün bir sual verdik ki, biz demokratiyanı, xüsusən də müstəqilliyini yenicə qazanmış ölkələrdə bu demokratiyanı hansı şəkildə gücləndirməliyik? Ona görə, elm adamları da, elm dairələrinin mütəxəssisləri də o fikri yekdil şəkildə dəstəklədilər ki, siyasətçilər və alimlər, yüksək vəzifədə xidmət etmiş şəxslər öz ölkələrində bir çox islahatları həyata keçirmiş, prezidentlik səviyyəsinə çatmış insanlar kənarda qalmalı deyillər, onlar bir araya gəlməlidirlər, həyatlarının sonuna qədər bu təşkilat çərçivəsində fikir mübadiləsi aparıb öz təcrübələrini bölüşməlidirlər. Mən bu gün bu auditoriyaya baxdıqda görürəm burada elə insanlar əyləşiblər ki, onlar bəşəriyyətin gələcək inkişaf məqsədlərinə sadiq olan şəxslərdir. Onlar istəyirlər ki, daha yaxşı həyat qurulsun, dünya daha təkmil inkişaf etsin.

Dünyada stereotiplərin, yoxsulluğun, ayrı-seçkiliyin mövcudluğunu nəzərə alaraq bu problemlərin aradan qaldırılmasında bu cür tədbirlərin son dərəcə vacib olduğunu deyən xanım Freyberqa II Qlobal Açıq Cəmiyyətlər Forumunun artıq gözəl ənənəyə çevrildiyini xatırladaraq bildirdi:

- Bəzi hallarda görürük ki, bir çox xalqlar, millətlər bir çox qurbanlar verirlər. Çünki qətlə yetirilən bu insanlar öz ölkələrinin layiqli vətəndaşlarıdırlar və onlar yaşamaq hüququndan məhrum olurlar. Baxın, belə hadisələr XXİ əsrdə baş verir. Bu, elə bir əsrdir və əslində biz böyük ümid bəsləyirdik ki, 2000-ci ildə Minilliyin İnkişaf Məqsədləri qəbul olunandan sonra belə hadisələr baş verməyəcəkdir. Lakin stereotiplər, ədalətsizlik, yoxsulluq, ayrı-seçkilik qalmaqdadır və bu hallar baş verir. Bu cür hallara biz diqqətli olmalıyıq. Biz öz töhfəmizi verməliyik ki, bu cür hallar aradan qalxsın. Təbii ki, saysız-hesabsız konfranslar keçirilir. Mən Prezident Əliyevə xüsusi təşəkkürümü bildirirəm ki, Cənubi Qafqazda dayanıqlı inkişafla bağlı ikinci regional Forumun keçirilməsinə öz dəstəyini verib və hazır olduğunu bildirib ki, təşkilati işlər aparıla bilər. Bu, əslində BMT-nin rəhbərliyi ilə həyata keçirilə biləcək bir tədbir ola bilər. Biz, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çərçivəsində bilməliyik ki, məqsədlərimiz hansı şəkildə və nədən ibarət ola bilər? Biz öz aramızda razılaşmaları məhz dialoq vasitəsilə tapmalıyıq. Biz bilməliyik ki, açıq cəmiyyətlərin qurulması nə deməkdir? Bu, dünya üçün hansı məna kəsb edir. Son 7 il ərzində məhz Madrid Klubu da sosial layihələr üzərində işləyibdir və bu irəliləyişin müxtəlif formalarını özü üçün müəyyən edibdir. Biz bununla bağlı səhiyyə sahəsində baş verən dəyişiklikləri də nəzərdən keçirmişik. Araşdırmışıq ki, görək nə qədər insan xəstəlikdən əziyyət çəkir.

Cənab Prezident İlham Əliyev Azərbaycanda sosial sahəyə yüksək dərəcədə diqqət yetirildiyini qeyd etdi. Biz Şimal ilə Cənub arasındakı münasibətləri təhlil etməliyik ki, görək bu sahədə fərqlər var, yoxsa yox? Şərq ilə Qərb arasında münasibətlər necədir? Necə etməliyik ki, bu dialoqdan istifadə edərək, hər iki tərəf arasında əlaqələri daha da gücləndirək? Hesab edirəm bu Forumun məqsədlərindən biri də o olmalıdır ki, biz yalnız konkret tövsiyələr irəli sürməklə kifayətlənməyək, çünki Madrid Klubu çərçivəsində bu iş görülür. Biz bilirik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi də bu işdə fəal iştirak edir. Biz hamımız özümüz üçün müəyyən etməliyik ki, bu bir neçə gün ərzində bu tövsiyələrin həyata keçirilməsi üçün hansı üsulları təklif edə bilərik? Biz bunu BMT-yə də təqdim edə bilərik. Biz özümüz üçün müəyyən etməliyik ki, vətəndaş cəmiyyətlərimizi narahat edən məsələlər nədən ibarətdir? Biz bu işi davam etdirməliyik. Bu, çox vacibdir. Biz bütün dünyanı həvəsləndirməliyik ki, yaxşıya doğru dəyişsin. Belə olan halda biz, həmçinin bilməliyik ki, hansı istiqamətlər üzrə gedirik. Ona görə də 2015-ci ildən sonra müəyyən ediləcək məqsədlərə gəldikdə biz anlamalıyıq ki, keçmişdə hansı vəziyyətdə idik, hansı nailiyyətləri əldə etmişik və indi hansı yeni sahələri müəyyən edə bilərik? Bu halda bilməliyik ki, yaxşı nəticələr əldə etmək üçün biz hansı sahələrdə əməkdaşlıq apara bilərik?

Xanımlar və cənablar, mən sizə çox məhsuldar fikir mübadiləsi arzulayıram. Əminəm ki, sizin hər birinizin iştirakı bizim üçün dəyərlidir. Biz çox gözəl bilirik ki, sizin zəngin həyat təcrübəniz, müdrik fikirləriniz vardır.

Mən sizin təmsil etdiyiniz təşkilatlara hörmətimi bildirirəm. Biz elə bir ölkədə toplaşmışıq ki, burada rəy bildirilməlidir. Bu rəyə hörmətlə yanaşırıq. Bu Forumun məhz bu səpkidə keçəcəyinə əminəm. Mən sizin hamınıza təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyevə olduqca minnətdaram. Qonaqpərvərliyinə və bizim bu ideyalarımıza dəstək verdiyinə görə Prezidentə "çox sağ ol" deyirəm. Minnətdaram.

İsmail SERAGELDİN:

- Çox sağ olun, xanım Vayra Vike-Freyberqa. İndi isə biz artıq diskussiyalarımıza başlamaq üzrəyik. Mən xüsusilə Vayra Vike-Freyberqaya öz minnətdarlığımı bildirirəm ki, bu müzakirələr məhz Nizaminin Vətənində keçirilir, onun doğulduğu torpaqda baş tutur. Onun qoyub getdiyi irs bizi dəyişikliklərə sövq edir, bizi insan cəmiyyətinin bütün üzvlərinə xidmətə dəvət edir. Mən çox minnətdaram ki, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubu ilə birgə bu Forumu təşkil etmişik.

Xanımlar və cənablar, Forumumuzun müxtəlif sessiyaları olacaqdır. Bu sessiyalar sizi gözləyir. Biz bütün imkanları araşdırmalıyıq. Özümüz üçün müəyyən etməliyik ki, məhz həqiqət bizim hamımızın öz daxilindədir. Bu, bizi açıq cəmiyyətlərin inkişaf etdirilməsinə, qurulmasına həvəsləndirir. Biz bu yolları araşdırmalıyıq. Biz bu imkanları nəzərdən keçirməliyik. Belə olan halda biz əmin ola bilərik ki, mütləq istədiyimiz mənzilə yetişəcəyik.

Hörmətli cənab Prezident İlham Əliyev, hörmətli xanım sabiq Prezident Vayra Vike-Freyberqa, hörmətli xanım sabiq Prezident Tarya Halonen, bir daha çox sağ olun.

Bütün iştirakçılara "çox sağ olun" deyirik. Biz sizə bu iştirakınıza, töhfənizə görə minnətdarlıq.

* * *

Bununla da Forumun əsas plenar iclası başa çatdı.

AzərTAc

Forumda iştirak edən keçmiş dövlət və hökumət başçıları, o cümlədən digər rəsmi şəxslər üçün nahar verilmişdir

Aprelin 28-də Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirak edən keçmiş dövlət və hökumət başçıları, o cümlədən digər rəsmi şəxslər üçün nahar verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak etmişdir.

AzərTAc

Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresinin iştirakçılarının şərəfinə ziyafət verilmişdir

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir

Aprelin 27-də Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının - AİPS-nin 77-ci konqresinin iştirakçılarının şərəfinə ziyafət verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə, hamınızı Azərbaycanda salamlayıram və sizin Azərbaycanda keçirdiyiniz günlərin uzun müddət yaddaşınızda qalacağı barədə qəti inamımı bildirirəm. Çox şadam ki, Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının konqresi bizim ölkədə keçirilir. Fürsətdən istifadə edərək Assosiasiyanı 90-cı ildönümü münasibətilə təbrik etmək istəyirəm.

Bu tədbirin Azərbaycanda keçirilməsi bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu tədbir bizə ölkəmizi sizə təqdim etmək imkanı verəcəkdir. Siz Azərbaycanda, Bakıda bir neçə gün keçirəcəksiniz. Ölkəmizin tarixini, mədəniyyətini, ənənələrini və müasir inkişafını öz gözlərinizlə görəcəksiniz.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və ənənələrə malik olan ölkədir. Lakin eyni zamanda, müstəqil ölkə kimi gəncdir. Müstəqil ölkə kimi yalnız 22 ildir yaşayırıq. Bu illər ərzində dövlətçiliyimizi qurmuşuq. Bir sistemdən digər sistemə keçid etmişik və sürətli inkişafa nail olmuşuq. Biz həyatımızın hər bir sahəsini dəyişməli olduq. Birincisi, biz müstəqil və azad deyildik. Lakin əsrlər ərzində digər dövlətlərin bir hissəsi olaraq biz özünəməxsusluğumuzu, mədəniyyətimizi və ənənələrimizi qoruya bilmişik. Eyni zamanda, biz tamamilə fərqli siyasi sistemdə yaşayırdıq. Bu isə indi Azərbaycanda olan sistemdən tamamilə fərqli bir sistem idi. Buna görə, müstəqillik illəri keçid, siyasi və demokratik təsisatların yaradılması, iqtisadi və siyasi islahatlar illəri olmuşdur.

Qürur hissi ilə qeyd etmək istəyirəm ki, iqtisadi çətinliklərin əksəriyyəti artıq geridə qalıb. Azərbaycan güclü demokratik təsisatlara malik olan ölkədir. Bu gün mətbuat nümayəndələri qarşısında çıxış edərək bildirmək istəyirəm ki, bizim ən böyük nailiyyətlərimizdən biri medianın və mətbuatın azadlığıdır. Azad internet bizim həyatımızın tərkib hissəsidir. Bu gün əhalimizin 70 faizdən çoxu internet istifadəçisidir. Hökumət də Azərbaycanın hər bir şəhərinə və kəndinə genişzolaqlı interneti gətirmək üçün çoxlu sərmayə yatırır.

Siyasi islahatlar iqtisadi islahatlarla dəstəklənir. Çünki biz aydın başa düşdük ki, müstəqilliyimizi qorumaq və uğur qazanmaq üçün iqtisadiyyatımız güclü olmalıdır. Buna görə də köklü iqtisadi islahatlar həyata keçirilib. Nəticə etibarilə iqtisadiyyatımızın 80 faizindən çoxu özəl sektorda cəmləşib. Lakin 22 il bundan əvvəl bu faiz sıfır təşkil edirdi.

Sürətli iqtisadi artım bizə sosial infrastruktura sərmayə yatırmaq imkanı verdi və bu, prioritetlərimizdən biri idi. Məktəblərin tikintisi, təhsilə sərmayə qoyuluşu və mədəni irsin qorunması - bütün bunlar gündəliyimizin bir hissəsi idi. İndi isə biz deyə bilərik ki, Azərbaycanda sürətli iqtisadi artım bizə əksər sosial və iqtisadi problemlərin öhdəsindən gəlməyə kömək etdi.

Son 10 ildə Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bu iqtisadiyyat indi də sürətlə inkişaf edir. Maliyyə və iqtisadi böhran illərinə baxmayaraq, biz iqtisadi inkişaf sahəsində müsbət meylləri saxlaya bildik. Biz işsizliyi 5 faizə qədər azalda bildik. Bizdə çox sabit maliyyə vəziyyəti mövcuddur. Başqa sözlə, müstəqillik illəri ilk olaraq Azərbaycan xalqına onu göstərdi ki, ölkənin taleyi öz xalqının əlində olduqda bir çox şeylərə nail olmaq mümkündür. Buna görə də bizim üçün müstəqilliyimizin gücləndirilməsi, islahatların davam etdirilməsi və insanlarımıza daha yaxşı həyat şəraitinin yaradılması ən yüksək prioritet təşkil edir.

Müstəqillik illərində idmanın inkişafı və Olimpiya hərəkatının dəstəklənməsi sahəsində bir çox işlər görülmüşdür. Biz Azərbaycanda çoxsaylı beynəlxalq yarışları, o cümlədən dünya və Avropa çempionatlarını təşkil etmişik. Bizim idmançılarımız beynəlxalq arenada yaxşı nəticələr əldə etmişlər. Yay Olimpiya Oyunlarında ilk dəfə 1996-cı ildə iştirak etmişik. O zaman yalnız 1 medal qazanmışdıq. Sonuncu dəfə Londonda keçirilən Olimpiya Oyunlarında isə 10 medal qazanmışıq, bunların da ikisi qızıl olmuşdur. 200-dən çox ölkə arasında 30-cu yeri tutmuşuq. Bu da idmanın inkişafının, dövlət və ictimai təşkilatların idmanın inkişafına göstərdiyi münasibətin təzahürüdür.

Azərbaycanda hökumət, dövlət qurumları, Gənclər və İdman Nazirliyi, Olimpiya Komitəsi, federasiyalar və klublar qarşılıqlı fəaliyyət göstərirlər. Buna görə də biz idmanı inkişaf etdirmək və idmançılarımız üçün yaxşı şərait yaratmaq üçün birgə planlar əsasında fəaliyyət göstəririk. Biz müstəqilliyin ilk illərində tamamilə məhv edilmiş idman infrastrukturunun inkişafına sərmayə yatırdıq. İndi isə bütün ölkə ərazisində 40-dan çox Olimpiya mərkəzi tikilmişdir və bu proses hələ də davam edir. Hədəf ondan ibarətdir ki, Azərbaycanın hər bir şəhərində Olimpiya mərkəzi olsun.

Biz bu hədəfə çatmağa artıq yaxınıq. Bakıda idman infrastrukturu bərpa olunur və yeni idman obyektləri tikilir. Əlbəttə bu, çox vəsait tələb edən təşəbbüsdür. Bu obyektlərə çoxlu vəsait sərf edilir və vəsait dövlət büdcəsindən ayrılır. Biz tamamilə əminik ki, bu vəsait Azərbaycanın gələcəyinə, sağlamlığına, gənc nəslə yatırılır. Bu gün idmançılarımızın əksəriyyəti təkcə beynəlxalq yarışlarda ölkəmizin şərəfini qorumaq nöqteyi-nəzərindən deyil, həm də davranışları ilə örnəkdirlər. Ona görə də məşhur idmançıların mənəvi məsuliyyəti bizim diqqət mərkəzində saxladığımız məsələdir. Xoşbəxtlikdən bizim bütün məşhur idmançılarımız nümunəvi vətəndaş və vətənpərvərdirlər.

Əlbəttə ki, cəmi 22 illik müstəqillik tarixinə malik olan ölkə kimi istər dünya, istərsə də Avropa çempionatlarında milli himnimizin səsləndirilməsini eşidəndə və milli bayrağımızın qalxmasını görəndə qəlbimiz fərəh hissi ilə dolur. Bu, başadüşüləndir. Biz əlimizdən gələni edəcəyik ki, bu sürətli inkişaf həyatımızın hər bir sahəsində, o cümlədən idman sahəsində də davam etsin.

Sizin də bildiyiniz kimi, gələn il biz ilk Avropa Oyunlarına ev sahibliyi edəcəyik. Bu, böyük məsuliyyət və vəzifədir. Eyni zamanda, bu, həm ölkəmizi təqdim etmək, həm də müvafiq siyasət, öhdəlik, güclü siyasi iradə ilə siyasi xəritədə nisbətən yeni yaranmış ölkədə ilk Avropa Oyunlarının keçirilməsinin mümkün olduğunu nümayiş etdirmək üçün fürsətdir. Biz bu oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirməyi planlaşdırırıq. Lakin bu baxımdan bizim vəziyyətimiz o qədər asan deyildi. Çünki hazırlıq işləri üçün yalnız iki il yarım vaxtımız var idi. Müqayisə üçün, Yay Olimpiya Oyunlarına ev sahibliyi edən ölkələrə 7 il vaxt verilir. Beləliklə, bizim üç dəfə az vaxtımız var idi.

Lakin həvəsimiz böyükdür, qarşımızda isə çoxlu əlaqələndirmə və təşkilatçılıq işləri durur. Fürsətdən istifadə edərək gələn il Bakı Olimpiya Stadionunda keçiriləcək açılış mərasimində qonaq qismində iştirak etmək üçün hamınızı dəvət etmək istəyirəm. 2016-cı ildə biz Dünya Şahmat Olimpiadasına ev sahibliyi edəcəyik. 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bu da, həmçinin coğrafi yerləşməmizin, mədəniyyətimizin və bugünkü Azərbaycanın göstəricisidir. İki il ərzində bizdə Avropa və İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir.

Azərbaycan müsəlman ölkəsidir. Lakin, eyni zamanda, Avropa ilə güclü əlaqələri olan bir ölkədir. Bu əlaqələrin tarixi XIX əsrə gedib çıxır. İndi isə bu əlaqələr daha da güclüdür. Çünki onların əsasını tərəfdaşlıq təşkil edir. Buna görə də Azərbaycanda multikulturalizm ənənələri çox güclüdür. Multikulturalizm bizim dövlət siyasətimizdir, bu, bizim insanların həyat tərzi və əhval-ruhiyyəsidir. Biz etnik və dini köklərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşlarının faydalandığı etnik və dini tolerantlığa yüksək qiymət veririk.

Mən əminəm ki, ölkəmizə səfəriniz zamanı sizin Azərbaycanda müxtəlif millətlərin nümayəndələrinə mənsub olan tarixi abidələri və ənənəvi yerləri görmək fürsətiniz olacaqdır. Bu tədbirin Azərbaycanda, Bakıda keçirilməsi ilə əlaqədar olaraq Assosiasiyanın rəhbərliyinə öz təşəkkürümü bildirmək istəyirəm. Tədbir iştirakçılarına bu gün bizimlə olduqları üçün minnətdaram. Sizə uğurlar arzulayıram.

Sağ olun.

* * *

Sonra Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının prezidenti Canni MERLO çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli həmkarlar və dostlar.

İcazə verin, öz şəxsi təəssüratlarımı sizinlə bölüşüm. Kontinental filialımızın icraedici komitəsinin nümayəndələri ilə birlikdə biz dörd il bundan əvvəl ilk dəfə təyyarə ilə Bakıya gəldikdə bu şəhər, onun tarixi və mədəniyyəti mənə böyük təəssürat bağışladı.

Bu xüsusi tədbirə bir çox ölkələrin nümayəndələri qatılıb və siz ətrafınızda bütün dünya nümayəndələrini görə bilərsiniz. Bu tədbirə Asiya, Afrika, Amerika, Avropa, Okeaniya nümayəndələri qatılıb. Ona görə düşünürəm ki, burada bütün dünya təmsil olunub. Onlar bizi buraya toplayıblar və biz dördüncü dəfədir ki, Bakıya gəlirik. Deyə biləərəm ki, müəyyən mənada biz Bakının sakinlərinə çevrilmişik.

İndi isə bizim buraya toplaşmağımızın məqsədi idman jurnalistikasının cəmiyyətin inkişafında fundamental rolunu xatırlatmaqdır. Biz dünyanın gənc insanları ilə ünsiyyət qururuq. Məramımız həqiqi sülh məramıdır, bu da çox vacibdir. Çünki biz bu mesajı bütün ölkələrin gənclərinə çatdırırıq.

Sizin əvvəl qeyd etdiyiniz kimi, idman jurnalistləri gənclərlə əlaqəlidir. Bu, çox vacib mədəni mesajdır. Biz onlarla danışırıq və dünyik. Onlar ölkənizin ənənələr kitabının yeni fəslinin yazılmasında iştirak edəcəklər. Daha sonra isə biz yeni bir iş üsulunu quracağıq.

Cənab Prezident, indi isə icazə verin, həmkarlarımız üçün mükəmməl işlər görən bütün nümayəndələrinizə təşəkkürümü bildirim. Ölkənizin necə dəyişdiyini hava limanından görmüşük. Hava limanında qarşılanma mərasimi çox yüksək səviyyədə idi. Hətta bəzi hallarda Olimpiya Oyunları zamanı təşkil olunan qarşılanma mərasimlərindən də yaxşı idi. Siz bununla fəxr edə bilərsiniz. Biz hamımız çoxsaylı Olimpiya oyunlarında iştirak etmişik və bunu Sizin qarşınızda olduğumuza görə demirik, bu, həqiqətən belədir.

Biz Sizin müstəqil ölkədə azad internet, mətbuatın azadlığı ilə bağlı söylədiklərinizi qəbul edirik. Çünki bizim idmanda olan müstəqilliyimiz idmanın inkişafına kömək edir. Bu da olduqca vacibdir. Cənab Prezident, buna görə də bizə belə fürsət verdiyiniz üçün yenə də Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Bundan əvvəl həmkarlarımızın alqışları bizim bunu necə dəyərləndirdiyimizi Sizə nümayiş etdirdi. Çox sağ olun.

* * *

Daha sonra Canni Merlo Prezident İlham Əliyevə Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının xüsusi xatirə hədiyyəsini təqdim etdi.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Serbiyanın keçmiş Prezidenti Boris Tadiçi qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Serbiya Respublikasının keçmiş Prezidenti Boris Tadiçi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi vurğulandı.

Söhbət zamanı Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın keçmiş Prezidenti Stepan Mesiçi qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Xorvatiya Respublikasının keçmiş Prezidenti Stepan Mesiçi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin müxtəlif sahələrdə dinamik inkişafından məmnunluq ifadə edildi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunda müzakirə ediləcək məsələlərin ölkələrarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti qeyd olundu.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev İsrail Dövlətinin keçmiş Baş naziri Ehud Barakı qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də İsrail Dövlətinin keçmiş Baş naziri Ehud Barakı qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun ölkələrarası əməkdaşlığın davamlı inkişafı ilə bağlı müzakirələr aparılması üçün yaxşı imkan yaradacağı vurğulandı.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiyanın keçmiş Prezidenti Tarya Haloneni qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Finlandiya Respublikasının keçmiş Prezidenti xanım Tarya Haloneni qəbul etmişdir.

Finlandiya Respublikasının keçmiş Prezidenti xanım Tarya Halonen dünyada dərin maliyyə və iqtisadi böhranın hökm sürdüyü dövrdə Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurların onda dərin təəssürat yaratdığını dedi.

Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrdə olduğu kimi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun inkişafına böyük önəm verildiyini vurğuladı.

Görüşdə Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun əhəmiyyətindən danışıldı.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın keçmiş Prezidenti Petar Stoyanovu qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Bolqarıstan Respublikasının keçmiş Prezidenti Petar Stoyanovu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndiyi vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun əməkdaşlığın möhkəmləndirilməsinə dair müxtəlif məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağı bildirildi.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Moldovanın keçmiş Prezidenti Petru Luçinskini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Moldova Respublikasının keçmiş Prezidenti Petru Luçinskini qəbul etmişdir.

Keçmiş Prezident Petru Luçinski Azərbaycanın böyük şairi, dahi Nizami Gəncəvinin Moldovada dörd dildə nəşr olunmuş müdrik kəlamlarından ibarət kitabı dövlətimizin başçısına təqdim etdi.

Görüşdə Azərbaycan ilə Moldova arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın keçmiş Prezidenti Emil Konstantineskunu qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Rumıniyanın keçmiş Prezidenti Emil Konstantineskunu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin hərtərəfli inkişafından məmnunluq ifadə edildi, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Latviyanın keçmiş Prezidenti Valdis Zatlersi qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Latviya Respublikasının keçmiş Prezidenti Valdis Zatlersi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyi razılıqla qeyd olundu, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun nəticələrinin uğurlu olacağına əminlik ifadə edildi.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Estoniyanın keçmiş Prezidenti Arnold Rüüteli qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Estoniya Respublikasının keçmiş Prezidenti Arnold Rüüteli qəbul etmişdir.

Estoniya Respublikasının keçmiş Prezidenti Arnold Rüütel dünyada iqtisadi və maliyyə böhranının hökm sürdüyü bir vəziyyətdə Azərbaycanda əldə olunan yüksək iqtisadi nailiyyətləri fenomen adlandırdı.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişafının razılıq doğurduğu bildirildi, Bakıda keçiriləcək II Qlobal Açıq Cəmiyyətlər Forumunun regional və beynəlxalq əməkdaşlıqla bağlı qarşılıqlı fikir mübadiləsi aparılması baxımından əhəmiyyəti qeyd olundu.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Ukraynanın keçmiş Prezidenti Viktor Yuşşenkonu qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Ukraynanın keçmiş Prezidenti Viktor Yuşşenkonu qəbul etmişdir.

Görüşdə Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu, Forumun regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilini qəbul etmişdir.

Görüşdə Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumunda müzakirə edilən məsələlərin əhəmiyyətindən danışıldı, Forumun ölkələrarası əməkdaşlığın inkişafındakı rolu vurğulandı.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir.

Dövlətimizin başçısı II Qlobal Açıq Cəmiyyətlər Forumunun təşkilinə verdiyi dəstəyə görə İsmail Serageldinə təşəkkürünü bildirdi. Forumun artıq beynəlxalq təsisata çevrilməkdə olduğunu vurğulayan Prezident İlham Əliyev tədbirin bundan sonra da uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu dedi.

Öz növbəsində II Qlobal Açıq Cəmiyyətlər Forumunun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Forumun qısa vaxt ərzində dünyada tanınmasının önəmini qeyd etdi.

AzərTAc

Azərbaycan Prezidenti İlham Əliyev Belçikanın keçmiş Baş naziri İv Letermi qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Belçika Krallığının keçmiş Baş naziri İv Letermi qəbul etmişdir.

Keçmiş Baş nazir İv Leterm II Qlobal Açıq Cəmiyyətlər Forumunun yüksək səviyyədə təşkil olunduğunu və səmərəli müzakirələr aparıldığını məmnunluqla qeyd etdi. O, sürətli iqtisadi inkişafa görə Azərbaycanın nümunəvi bir ölkə olduğunu vurğuladı.

Azərbaycanda son illər bir sıra mühüm beynəlxalq tədbirlərin davamlı olaraq keçirildiyini bildirən Prezident İlham Əliyev II Qlobal Açıq Cəmiyyətlər Forumunun da ənənəvi xarakter alacağına ümidvar olduğunu qeyd etdi.

AzərTAc

Misirin nüfuzlu "Al-Balad" qəzetində Azərbaycan Prezidenti İlham Əliyevin Praqa sammitindəki çıxışı haqqında məqalə dərc olunmuşdur

Qahirə, 28 aprel (AzərTAc). Misirin "Al-Balad" nəşrinin internet resursunda Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının (Aİ) "Şərq tərəfdaşlığı" Proqramının beşilliyinə həsr olunmuş Praqa sammitindəki çıxışı haqqında məqalə dərc olunmuşdur.

Məqalədə bildirilmişdir ki, Azərbaycanın dövlət başçısı öz çıxışında Azərbaycan ilə Aİ ölkələri arasındakı əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirmiş və son beş ili Avropa təsisatları ilə daha yaxın əlaqələrin qurulması baxımından çox əhəmiyyətli hesab etmişdir. Azərbaycan Prezidentinin zirvə görüşündə dediyi "Azərbaycan ötən beş il ərzində siyasi və iqtisadi islahatlar həyata keçirmiş, bu beynəlxalq təşkilata üzv olan dövlətlərlə çox konstruktiv və geniş əlaqələr qurmuşdur" fikri yer almışdır.

Yazda, həmçinin Prezident İlham Əliyevin "Biz siyasi islahatlara böyük əhəmiyyət veririk və bu baxımdan Avropa İttifaqı ilə əməkdaşlığımızı önəmli hesab edirik. Demokratik inkişaf, insan hüquqlarının qorunması, qanunun aliliyinin və fundamental azadlıqların təmin olunması bizim əsas prioritetlərimizdəndir. Biz ölkəmizi müasirləşdiririk. Müasir iqtisadi sistem müasir siyasi sistemlə tamamlanmalıdır. Bu baxımdan Avropa İttifaqının nümunəsi yaxşı nümunədir" fikirləri də əksini tapmışdır

Prezident İlham Əliyevin zirvə görüşündəki bu sözləri sitat kimi verilmişdir. "Azərbaycan iqtisadiyyatı son on ildə islahatlar nəticəsində dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatına çevrilmişdir. Azərbaycan dövləti ölkədə işsizliyi və yoxsulluğu aradan qaldıra bilmişdir. Yoxsulluq Azərbaycanda 5 faiz təşkil edir. Xarici borcumuz ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir.

Məqalədə Prezident İlham Əliyevin Avropa ilə Azərbaycan arasında sıx əməkdaşlığın davam etdirilməsi zərurəti barədə dediyi sözlər də diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Prezidentinin fikrincə, bu tərəfdaşlıq elə davam etdirilməlidir ki, qarşılıqlı faydalı və mühüm layihələri uğurla həyata keçirmək mümkün olsun.

Nəşrin elektron variantında Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin həlli barədə sözləri sitat gətirilmişdir: "Türkiyə ilə Ermənistanın sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub. Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə, 7 Azərbaycan rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir". ■

"Moskovski komsomolets" qəzetində Azərbaycanın Yekaterinburqdakı baş konsulunun məqaləsi dərc edilmişdir

Moskva, 28 aprel (AzərTAc). Rusiyada çıxan "Moskovski komsomolets" qəzetində Azərbaycanın Yekaterinburqdakı baş konsulu Sultan Qasımovun "Azərbaycanın qəlbi. Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il keçir" sərlövhəli məqaləsi dərc edilmişdir.

Məqalədə deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi, Azərbaycan dövlətçiliyinin dayağı, zəngin təbiəti və şanlı tarixi olan bir diyar, ölkənin haqlı olaraq fəxr etdiyi bir sıra gözəl insanların vətənidir. Həyatı və yaradıcılığı bu diyarla bağlı olan memarlar, filosoflar, şairlər, maarifçilər, alimlər, mütəfəkkirlər, sərkərdələr bəşəriyyətin ümumi fikir xəzinəsinə çox böyük töhfələr vermişlər".

Müəllif Naxçıvanın çoxsaylı tarixi abidələri, bənzərsiz təbiəti və qədim şəhərləri barədə söhbət açır. Məqalədə həmçinin 90 illiyi bu günlərdə qeyd edilən Naxçıvan Muxtar Respublikasının təşəkkülü tarixi ətraflı şərh edilir.

Sultan Qasımov yazır: "Heydər Əlirza oğlu Əliyev özü bu diyarda boyabaşa çatmışdır. O, uzun müddət Azərbaycan SSR-də ali rəhbər vəzifələrdə işləmiş, 1982-ci ildə Sovet İttifaqının

Сердце Азербайджана

Нахчыванской Автономной Республике исполняется 90 лет.

Нахчыванская Автономная Республика - неотъемлемая часть Азербайджана, оплот азербайджанской государственности, край с богатой природой и славной историей, родина многих замечательных людей, которыми заслуженно гордится наша страна. Зодчие, философы, поэты, просветители, ученые, мыслители, военачальники, чьи жизнь и творчество были связаны с этой землей, внесли колоссальный вклад в общую сокровищницу человеческой мысли.

rəhbəri Andropovun təkidi ilə Moskvaya köçmüş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləməyə başlamışdır. 1985-ci ildə Heydər Əliyev Mixail Qorbaçovu dəstəkləmiş, Qorbaçov isə hakimiyyətə gələndən sonra Heydər Əliyevin populyarlığına paxıllıq edərək onun istefa verməsinə nail olmuşdur.

1990-cı ilin yayında Heydər Əliyev Azərbaycana qayıtmış, həmin ilin payızında Naxçıvandan Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Bir ildən sonra, 1991-ci ilin sentyabr ayında Heydər Əliyev Naxçıvan MSSR Ali Sovetinin sədri seçilmişdir. Bu vəzifədə çalışdığı dövrdə Bakıdakı iqtidar öz işləri ilə məşğul olduğu bir vaxtda Heydər Əliyev Muxtar Respublikanın xarici siyasi əlaqələrini xeyli möhkəmlətmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin dövrün hadisələrini xatırlayaraq demişdir:

- Məhz 1990-cı illərin əvvəlində Naxçıvanın taleyi həll edilirdi. Əgər həmin illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. O dövrdə Naxçıvanda vəziyyətin sabit qalması çox böyük çətinliklər bahasına mümkün olurdu. Azərbaycanın ovaxtkı rəhbərliyi Naxçıvana biganə münasibət bəsləyir, ona heç bir kömək göstərmir, əksinə Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti kəskinləşdirmək məqsədilə çirkin hərəkətlər edirdi. Lakin naxçıvanlılar həmişəki kimi müdriklik göstərərək öz liderləri ətrafında yumruq kimi sıx birləşdilər.

Azərbaycan tarixində yeni dövr belə başlandı və bu dövr Naxçıvanda başlandı". ■

"TRT-ərəbcə" televiziya kanalı Azərbaycan Prezidenti İlham Əliyevin Praqa sammitindəki çıxışı ilə bağlı məlumat yaymışdır

İstanbul, 28 aprel (AzərTAc). "TRT-ərəbcə" televiziya kanalı Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 24-də Praqada "Şərq tərəfdaşlığı" Proqramının 5-ci ildönümünə həsr olunmuş sammitdə çıxışı zamanı Ermənistan prezidenti Serj Sarkisyana tutarlı cavabı ilə bağlı məlumat yaymışdır.

Məlumatda Azərbaycan Prezidenti İlham Əliyevin sammitdə Serj Sarkisyanın uydurma "erməni soyqırımı" ilə bağlı əsassız mülahizələrinə qətiyyətlə cavab verdiyi vurğulanır, dövlətimizin başçısının çıxışından sitatlar gətirilir. ■

Türkiyə ictimaiyyəti Prezident İlham Əliyevin Praqa sammitindəki çıxışının xoş təəssüratını böyük coşqu ilə bölüşməkdədir

İstanbul, 28 aprel (AzərTAc). Azərbaycan Prezidenti İlham Əliyevin Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə Ermənistan prezidenti Serj Sarkisyanı ifşa etməsi Türkiyədə böyük sevgi ilə qarşılanmışdır.

Ölkənin nüfuzlu KİV-ləri Prezident İlham Əliyevin çıxışını türk, ingilis, rus, ərəb və başqa dillərdə yaymaqda davam edir. İctimaiyyət nümayəndələri dövlətimizin başçısının çıxışının xoş təəssüratını böyük coşqu ilə bölüşməkdədirlər. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi sosial şəbəkələrdə ən aktual mövzuya çevrilmişdir. Siyasi dairələr, redaksiyalar, elm və təhsil ocaqları ilə məhdudlaşmayan müzakirə çərçivəsi əhatə dairəsini sürətlə genişləndirməkdədir.

Azərbaycan Prezidentinin çıxışı təkcə İstanbuldakı Türkiyə - Azərbaycan Dərnəyinin saytında 160 minə yaxın istifadəçi tərəfindən oxunmuşdur.

Türkiyə ictimaiyyətinin bir neçə nümayəndəsinin məsələyə münasibətini təqdim edirik:

Nayan Aksılı - Prezident İlham Əliyev bu çıxışı ilə bir daha 100 ilə yaxın dövrdə bütün Türkiyəni caynağına alan bir dərdə şərik oldu. Mən bir vətəndaş olaraq qürur duydum ki, Türkiyə tək deyil. Azərbaycanın işğal altında olan torpaqları azad edilməyənədək işğalçı Ermənistanla hər hansı bir münasibət qurulmaması çox düzgün addımdır. Fürsətdən istifadə edərək cənab İlham Əliyevə "Var ol, yüz yaşa, Allah qorusun!" deyirəm.

Osman Ak - Azərbaycan dövlətinin başçısı Türkiyənin dövlətçilik tarixinə qızıl hərflərlə bir səhifə yazdı. Yüz ildir ki, dövlətimizi uydurma "erməni məsələsi" ilə məşğul ediblər. Türkiyə heç zaman bu qədər ciddi müdafiə olunmamışdı. Prezident İlham Əliyev bizi qətiyyətlə müdafiə etdi. Bu çıxış barədə məlumat alanda özümdən asılı olmayaraq, mərhum Prezident Heydər Əliyevin tarixi dəyər daşıyan "Bir millət, iki dövlət" ifadəsini xatırladım.

Nəcməddin Aksu - uydurma "erməni məsələsi" yaralı yerimizdir. Prezident İlham Əliyev bir daha bu məsələnin əsl mahiyyətini dünya birliyinin diqqətinə çatdırdı. Qarabağsız Azərbaycan, Azərbaycansız Türkiyə yoxdur. Var olsun Azərbaycan, var olsun İlham Əliyev!

Gülşən Artıc - mən cənab İlham Əliyevin Praqadakı çıxışı barədə fikirlərimi sosial şəbəkələrdə bölüşmüşəm. Prezident İlham Əliyev toxunduğu bütün məqamlarla hər bir türkə, hər bir müsəlmana qardaş olduğunu nümayiş etdirdi. Eyni zamanda, dünyadakı haqsızlıqlara bir etiraz mesajı ünvanladı. Azərbaycanla bir daha qürur duydum. ■

Türkiyə və Azərbaycan diaspor təşkilatları Haaqada etiraz aksiyası keçirmişlər

Bakı, 28 aprel (AzərTAc). Türkiyə və Azərbaycan diaspor təşkilatları Niderlandın Almelo şəhərində erməni kilsəsi qarşısında qondarma "erməni soyqırımı"na xatirə kompleksi tikilməsi ilə əlaqədar Haaqada, Hollandiya Nümayəndələr Palatası qarşısında etiraz aksiyası keçirmişlər.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilmişdir ki, aksiya zamanı iştirakçılar müxtəlif şüarlar səsləndirmiş və əllərində ermənilərin bu hərəkətini pisləyən plakatlar, eləcə də Azərbaycan və Türkiyə bayraqları tutmuşlar.

Hollandiya Türk Kültür Dərnəkləri Federasiyasının sədri Arif Yakışır və Hollandiya Azərbaycan Türk Kültür Dərnəyinin sədri İlhan Aşkın bildirmişlər ki, türk ictimai təşkilatları erməni icmasının Niderlandda qanunsuz tikdiyi kompleksin sökülməsi üçün Almelo bələdiyyəsinə və müvafiq qurumlara çağırışlar edirlər. Diaspor təşkilatlarının rəhbərləri bu tarixi hadisələri tarixçilərdən ibarət qrupun araşdırmalı olduğunu vurğulamışlar.

Mitinqdə Türkiyə və Azərbaycan təşkilatlarından Hollandiya Azərbaycan Türk Kültür Dərnəyi, TOVER, UETD, Türk İslam Kültür Dərnəkləri Federasiyasının və digər təşkilatların təmsilçiləri iştirak etmişlər. ■

Fransanın "Agoravox" portalında Azərbaycanın sürətli inkişafından bəhs edən məqalə yerləşdirilmişdir

Paris, 28 aprel (AzərTAc). Fransanın "Agoravox" portalında Azərbaycanın sürətli inkişafından bəhs edən məqalə yerləşdirilmişdir.

Məqalədə qeyd olunur ki, Azərbaycan sabit iqtisadiyyatı, zəngin mədəniyyəti olan bir ölkədir. Uzun müddət sovet imperiyasının tərkibində olmasına baxmayaraq, bu ölkə öz mədəni dəyərlərini qoruyub saxlamışdır. Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda son illər böyük dəyişikliklər baş verir. Çoxşaxəli mədəniyyətə malik bu ölkədə böyük quruculuq işləri aparılır.

Müəllif yazır ki, müsəlman Şərqində ilk demokratik respublika Azərbaycanda yaradılmış, ölkədə Qərb təsisatlarının formalaşması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycanda bir çox Avropa ölkələrindən, eləcə də Fransadan xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verilmişdir.

Yazıda diqqətə çatdırılır ki, 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra ölkədə Avropa siyasi mədəniyyətinə maraq artmış, 1920-ci ildə isə bolşeviklərin istilası ilə əlaqədar Qərb istiqamətli quruculuq işləri dayandırılmışdır. 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan müsəlman ölkəsi olmasına baxmayaraq, burada din dövlətdən ayrıdır.

Qeyd edilir ki, yeraltı və yerüstü sərvətlərlə zəngin olan Azərbaycanda turizm sektoru son illər sürətlə inkişaf edir. "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsinin Bakıda keçirilməsi dünya ictimaiyyətinin Azərbaycanda bütün sahələrdə gedən inkişafın şahidi olmasına şərait yaratdı.

Məqalədə Azərbaycanın Ermənistan istisna olmaqla Türkiyə, İran, Rusiya və Gürcüstan ilə mehriban qonşuluq münasibətləri qurduğu bildirilir. Azərbaycan-Fransa əlaqələrindən bəhs edən müəllif yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verdiyini diqqətə çatdırır.

Məqalədə Azərbaycanda qadınların cəmiyyətdə daha çox təmsil olunmaları ilə bağlı qanunlar qəbul edildiyi xüsusi vurğulanır. Bildirilir ki, bu qanunlar qadınların cəmiyyətdə mühüm yer tutmalarına şərait yaratmışdır.

Qeyd edilir ki, Azərbaycan tarixi və mədəni dəyərlərini qoruyub saxlamaqla yanaşı, həm də sürətlə müasirləşir.

Azərbaycanla bağlı fotoların da yer aldığı məqalənin tam mətnini www.agoravox.fr/actualites/international/article/l-azerbaidjan-en-marche-vers-le-151106 linkindən oxumaq olar. ■

Qondarma "erməni soyqırımı" iddiaları əleyhinə ABŞ-da keçirilmiş etiraz aksiyası Türkiyə mətbuatında geniş işıqlandırılmışdır

İstanbul, 28 aprel (AzərTAc). Qondarma "erməni soyqırımı" iddialarına son qoyulması və şəhid türk diplomatlarının xatirəsini anma mərasimi ilə bağlı Nyu-Yorkun "Times" meydanında keçirilmiş mitinq Türkiyə mətbuatında geniş işıqlandırılmışdır. Qeyd olunmuşdur ki, iştirakçılar tədbirə Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə qatılmışlar.

ABŞ-da fəaliyyət göstərən Azərbaycan və Türkiyə diaspor təşkilatlarının və yerli ictimaiyyətin təmsilçilərinin iştirak etdikləri mitinq ASALA erməni terror təşkilatı tərəfindən qətlə yetirilmiş türk diplomatların xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlamışdır.

Bildirilmişdir ki, tədbirdə çıxış edənlər 1915-ci ildə baş verən hadisələrlə bağlı həqiqətlərdən danışmış, Birinci Dünya müharibəsində təkcə ermənilərin zərər çəkmədiklərini söyləmişlər. Əksinə, ermənilər öz millətçilərinin Osmanlı dövlətinə qarşı bəd niyyətlərinin iştirakçısına çevrilmişlər.

ABŞ-ın Tennesi Texniki Universitetinin siyasi elmlər üzrə professoru Maykl Gunter Birinci Dünya müharibəsi zamanı erməni silahlı dəstələrinin Anadoluda törətdikləri qətliamlardan danışmışdır. Qeyd edilmişdir ki, qondarma "erməni soyqırımı" ilə bağlı iddialar saxtadır və heç bir hüquqi əsas daşımır.

Mitinq iştirakçıları qondarma "erməni soyqırımı" iddialarına son qoyulması ilə bağlı tələblər irəli sürmüşlər. ■

Qanunun aliliyinə əsaslanan demokratik idarəetmə konsepsiyası

Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin yaradılması ulu öndər Heydər Əliyevin tarixi xidmətləri ilə bağlıdır

Cəmiyyətdə mühüm siyasi prosesləri istiqamətləndirən, hadisələrin fövqündə dayanmaqla tarixi inkişafın gedişini əvvəlcədən müəyyənləşdirən fenomen siyasi liderlər ictimai inkişafın ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilmişlər. Belə taleyüklü məqamlarda bir daha təsdiqlənmişdir ki, əsl siyasi lider daim öz cəsarəti, çevik və prinsipial qərarları, ən çətin situasiyalarda optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir.

XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti, dunya miqyaslı ictimai-siyasi xadim kimi bütün şüurlu həyatını xalqının nicatına həsr etmiş ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaradaraq xalqı milli müstəqilliyə qovuşdurmuş, eyni zamanda, bu müstəqilliyin daimi və dönməz olmasını təmin etmişdir. Böyük strateqin anadan olmasının 91-ci ildönümünün respublika miqyasında geniş qeyd olunması da məhz bu reallıqla şərtlənərək Heydər Əliyev fenomeni ilə bağlı son 40 illik tariximizə nəzər salmaq və obyektiv nəticələr çıxarmaq imkanı yaradır.

Ən mürəkkəb siyasi situasiyalarda Azərbaycanda hakimiyyət sükanı arxasına keçmiş ümummilli lider Heydər Əliyev üzərinə düşən məsuliyyəti düzgün dəyərləndirərək daim xalqını, Vətənini düşünmüş, respublikanı üzləşdiyi problem və çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin ona bəxş etdiyi fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyənləşdirə bilmişdir. Heydər Əliyev dühası milli tarix üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanı yüksəliş və tərəqqi yoluna çıxarmış, yüksək xarizması, ekstremal situasiyalara hazırlığı ilə xalqın qəlbində sabaha inam hissini yaratmağı bacarmışdır.

Ulu öndər hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə üzləşsə də, heç bir riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bilmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rənbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndər Heydər Əliyevin sovet siyasi arenasında rəhbərliyə gəlməsi bütün maneələri dəf edərək müstəqil düşüncəyə yol açmışdır. Hələ 70-80-ci illərdə ulu öndər sanki Azərbaycanın müstəqil dövlət olacağını görmüş, buna lazımi zəmin formalaşdırmaq üçün uzaqgörənliklə fəaliyyət göstərmişdir.

Ulu öndər milli kadrların yetişdirilməsi işinə də xüsusi qayğı ilə yanaşmışdır. O dövrdə repressiya qurbanlarına bəraətin verilməsi istiqamətində gördüyü işlər də məhz azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət etmişdir. Dahi öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmış, Azərbaycan tarixçiləri şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi və qələmə alınması istiqamətində ilk addımlarını atmağa başlamışlar. Azərbaycan SSR-in 1978-ci ildə qəbul edilmiş Konstitusiyasının 73-cü maddəsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbit edilməsi də ümummilli liderin prinsipiallığı, cəsarəti, ən əsası, milli ideallara bağlılığının bariz göstəricisi kimi bu gün də qürurla xatırlanır.

Ali məktəblərin hüquq və digər nüfuzlu ixtisaslarına qəbul prosesində ədalət prinsipinin qorunması, sosial təbəqə fərqinə yol verilməməsi Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən olmuşdur. Məhz bu diqqət hesabına hələ o dövrdə ali məktəblərdə bilik həqiqi meyara çevrilmiş, elm-təhsil məbədlərimizə yol tapmış rüşvətxorluq və korrupsiya hallarının qarşısı alınmışdır. 80-ci illərin əvvəllərində "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibəsində "Qoy, ədalət zəfər çalsın!" deyən ulu öndər Azərbaycan təhsilində, sözün əsl mənasında, ədalətin zəfər çalmasına müvəffəq olmuşdur.

Ulu öndərin həmin illərdə milli ruhun qorunması, milli özünüdərk prosesinin güclənməsi istiqamətində gördüyü işlər çoxşaxəli olduğu qədər də saysız-hesabsızdır. Hakim ideologiya ilə uzlaşmayan "Gülüstan" poemasının müəllifi Bəxtiyar Vahabzadəni həbs olunmaq təhlükəsindən qoruyan da, Bakıda Nəriman Nərimanovun abidəsini ucaltmaq üçün iki ilə yaxın mübarizə aparan da, dahi dramaturq Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək üçün ən sərt maneələrə mərdliklə sinə gərən də, nəhayət, 1990-cı ilin 21 yanvarında - Kremlin bir addımlığında xalqımıza qarşı qətliam törətmiş mənfur imperiyanı ifşa edən də məhz Heydər Əliyev olmuşdur. O, xarizmatik liderlərə xas tərzdə lazımi anda qətiyyət, cəsarət və prinsipiallıq göstərmək əzmini, eləcə də daim xalqının yanında olduğunu sübuta yetirə bilmişdir.

Azərbaycan xalqı, dövləti üçün qurub-yaratmaq, onun gələcək müstəqilliyi üçün etibarlı zəmin formalaşdırmaq ulu öndər Heydər Əliyevin başlıca amalı olmuşdur. Yalnız ötən əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərk edəcəkdik ki, ulu öndər 70-80-ci illərdə ölkəmizi nəhəng quruculuq meydanına çevirərkən, azərbaycanlı gəncləri xaricdə təhsil almağa göndərərkən, Azərbaycan xalqının zəngin mədəniyyətə malik olduğunu müxtəlif tədbirlər vasitəsilə bütün dünyanın diqqətinə çatdırarkən, ölkədə fundamental və tətbiqi elmlərin əsaslı inkişafına nail olarkən məhz Vətənimizin bugününü düşünür, memarı olduğu müstəqil Azərbaycan dövlətini o günlərdən qurub-yaradırmış!

Tarixdə millətin və dövlətin dünya səhnəsindən yox olmaq həddinə çatmasına dair çox misallar mövcuddur. Fəqət hər bir tarixi dövrdə məsuliyyəti çiyinlərinə götürməyi bacaran böyük liderlərin sayəsində həmin dövlətlər varlığını davam etdirmiş, millətlər dirçəlmişlər. Bu baxımdan ümummilli lider Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi nə qədər tələtümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə belə, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa imkan vermişdir. Böyük strateq 1993-cü ildə xalqın çağırışına cavab verərək Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultmuşdur. Ulu öndər özünəməxsus müdrikliklə bəyan etmişdir ki, siyasi sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir.

1993-1995-ci illərdə ölkədə siyasi sabitliyin təmini, iqtisadi tənəzzülün qarşısının alınması ilə paralel şəkildə insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquq islahatları da xüsusi diqqət mərkəzində saxlanılmışdır. 1995-ci ilin noyabrında ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin mənbəyinin xalq olmasını rəsmiləşdirməklə, demokratik, hüquqi dövlət quruculuğunun, məhkəmə-hüquq sisteminin əsaslarını, insan hüquq və azadlıqlarının müdafiəsi və təmini üçün hüquqi bazanı müəyyənləşdirmişdir. Konstitusiyada ifadəsini tapan bir çox müddəalar məhz ulu öndər Heydər Əliyevin ideya, hüquqi və fəlsəfi baxışlarının təzahürü olmaqla uzun illər demokratik Azərbaycan dövlətinin inkişafı və çiçəklənməsinə, xalqın firavan həyatına, hər bir Azərbaycan vətəndaşının azad, təminatlı gələcəyinə xidmət edir.

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi ilə yanaşı, məhkəmə hakimiyyətinin müstəqilliyi, özünüidarə funksiyaları, hakim vəzifəsinə tələblər, onların statusu ilə bağlı mühüm məsələlər də əksini tapmışdır. Əsas Qanunun 60-cı maddəsi ilə hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilmişdir. Ümumiyyətlə, Konstitusiyanın 62, 63, 64, 65, 66 və 67-ci maddələri vətəndaşların məhkəmə hakimiyyətinə müraciət imkanlarını, təqsirsizlik prezumpsiyasını, bir cinayətə görə təkrarən məhkum etməyə, habelə qohumların əleyhinə ifadəyə yol verilməməsini, tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasını, cinayət törədilməsində təqsirləndirilən hər bir şəxsin məhkum edilməzdən əvvəl dinlənilməsini və s. məsələləri nəzərdə tutur.

Konstitusiyamızın 125-ci maddəsinin bir sıra bəndlərində də məhkəmə hakimiyyətinin formalaşdırılmasının prinsipləri dəqiq əksini tapmışdır. Həmin maddəyə əsasən, məhkəmə hakimiyyəti Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apelyasiya məhkəmələri, habelə ümumi və ixtisaslaşdırılmış məhkəmələr vasitəsilə həyata keçirilir. Əsas Qanunun 127-ci maddəsi Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması baxımından vacib əhəmiyyətə malikdir. Həmin maddədə göstərilir ki, hakimlər müstəqildirlər, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər, səlahiyyətləri müddətində dəyişilməzdirlər.

Bu və digər maddələrin ulu öndərin siyasi iradəsi ilə Konstitusiyada öz əksini tapması sonrakı mərhələdə məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi üçün fundamental hüquqi baza rolunu oynamış, məhkəmə orqanları və hakimlərlə bağlı məsələləri tənzimləyən qanunların qəbuluna etibarlı zəmin yaranmışdır. 1998-ci il 1 dekabr tarixdə qüvvəyə minmiş "Məhkəmələr və hakimlər haqqında" qanunda məhkəmə fəaliyyətinin hüquqi əsasları, ədalət mühakiməsinin daha səmərəli təşkili qaydaları, hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər və digər məsələlər əksini tapmışdır. Qanun əsasında Məhkəmə-Hüquq Şurası da yaradılmış, beləliklə, məhkəmə hakimiyyətinin özünüidarə funksiyası reallaşdırılmışdır. 2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlərin şəffaf prosedur əsasında, test üsulu ilə seçilməsi təmin edilmiş, hakim korpusunun 60 faizi təzələnmişdir.

Konstitusiyada əksini tapmış normaları özündə ehtiva edən "Məhkəmələr və hakimlər haqqında" qanuna əsasən, Azərbaycanda birinci instansiya, apelyasiya və kassasiya instansiyalarından ibarət yeni üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. Paralel olaraq dövlət ittihamının da müasir tələblərə uyğunlaşdırılması üçün 1999-cu ildə "Prokurorluq haqqında" qanun qəbul olunmuşdur. Yeni qanunla prokurorluq orqanları əvvəllər mövcud olmuş bir sıra səlahiyyətlərdən məhrum olmuş, o cümlədən həbsə alma üçün sanksiyanın verilməsi səlahiyyəti məhkəmələrə verilmiş, məhkəmələr üzərində prokurorluğun nəzarətinə son qoyulmuşdur. Həmin dövrdən məhkəmələrə edilən müraciətlərin sayının 7 dəfəyədək artması vətəndaşların bu müstəqil hakimiyyət qoluna inam və etibarının təcəssümü kimi dəyərləndirilməlidir.

Dövlət idarəetmə sistemində davamlı uğur və nailiyyətlərə yol açan vacib amillərdən biri də irs-varislik ənənələrinin təmin olunmasıdır. Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran ulu öndər Heydər Əliyev də müəllifi olduğu siyasi strategiyanın davamlılığını təmin etmiş, parlaq zəkası hesabına respublikamızın uğurlarına təminat yaratmışdır. Dövlət başçısı İlham Əliyev sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsində hüquq sistemində liberal islahatların dərinləşdirilməsini son dərəcə vacib sayır.

Dövlət başçısının inamla həyata keçirdiyi hüquqi-siyasi islahatların digər mühüm istiqamətini də məhz məhkəmə hakimiyyətinin fəaliyyətinin müasirləşdirilməsi olmuşdur. 2004-cü ildən etibarən "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanunun qəbulu, "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında" qanunlara əlavə və dəyişikliklərin edilməsi məhkəmə-hüquq sistemində əsaslı yeniliklərə imkan yaratmışdır.

Prezident İlham Əliyev məhkəmə sisteminin müasirləşdirilməsini davamlı və ardıcıl proses kimi diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərmanın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Regionların inkişafı tədbirlərinin tərkib hissəsi kimi imzalanmış bu fərman bir sıra rayon və şəhərlərdə yeni apelyasiya və iqtisad məhkəmələrinin yaradılmasını başlıca vəzifə kimi önə çəkmişdir. Məhkəmə-Hüquq Şurası dövlət başçısının fərmanı əsasında qısa müddətdə Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki (rayon) şəhərlərində yeni apelyasiya məhkəmələrinin yaradılmasını təmin etmişdir. Fərmana əsasən, məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində də zəruri tədbirlər görülmüşdür.

Şübhəsiz, məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması həm də bu hakimiyyəti realizə edən hakimlərin peşəkarlığı, onların mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdır. Bu reallığı nəzərə alan Prezident İlham Əliyevin 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı ilə respublika məhkəmələri hakimlərinin sayı 153 ştat artırılmışdır. Bu və digər tədbirlər nəticəsində məhkəmə hakimiyyətinin hazırlıqlı və mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilmiş, bütün məhkəmələrin tərkibi təzələnmişdir. Hakimliyə namizədlərin seçilməsi kimi mühüm vəzifəni yerinə yetirən Hakimlərin Seçki Komitəsinin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi 2007-ci ildə 55 nəfər, 2008-ci ildə 102 nəfər, 2010-cu ildə 78, 2012-ci ildə 72 nəfər hakimliyə namizəd ən şəffaf və mütərəqqi üsulla seçilərək hakim vəzifələrinə təyin olunmuşlar. Bundan başqa, bir çox hakimlərin müddətsiz - son yaş həddinədək təyinatı məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini istiqamətində mühüm addımlardan biridir.

Bundan əlavə, Dünya Bankı tərəfindən dəstəklənən "Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi" çərçivəsində Azərbaycanda xüsusi işlənilmiş və dünyada analoqu olmayan unikal proqram təminatı vasitəsilə 30-dək məhkəmənin yerləşəcəyi müasir bina və komplekslərin layihələri hazırlanmış, respublikamızın müxtəlif bölgələrində məhkəmələr üçün ən müasir məhkəmə binaları inşa olunmuşdur. Yeni məhkəmə binalarında hakimlərlə vətəndaşların birbaşa ünsiyyətinin məhdudlaşdırılması şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə baxımından mühüm addımlardan biri kimi dəyərləndirilməlidir.

"Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi" çərçivəsində, həmçinin, Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, habelə Ədliyyə Nazirliyinin qeydiyyat qurumları ən müasir İKT-lərlə təchiz olunmuş, "Qeyri-kommersiya hüquqi şəxslər" üçün avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi, Bakıda və bölgələrdə hüquqi məsləhət mərkəzləri yaradılmışdır. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin bir sıra məhkəmə binalarının açılışında şəxsən iştirak etməsi məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə verilən önəmin növbəti təzahürü olmuşdur.

Ölkə başçısının 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" sərəncamı isə bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəddir. Bunda məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsidir. Bu yenilik vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik formada qurulmasına, sürüdürməçilik hallarının aradan qaldırılmasına, işlərə baxılmasında operativliyin təminatına imkan yaradacaq, şəffaflığı maksimum dərəcədə təmin edəcəkdir.

Bu gün Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləyir, məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, insan hüquq və azadlıqlarının təmini, demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Ulu öndərin siyasi kursunu bütün sahələrdə inamla davam etdirən Prezident İlham Əliyev haqlı olaraq bəyan edir ki, hər hansı ölkənin sabit və davamlı inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır. Azərbaycanın bugünkü dinamik iqtisadi inkişafı deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində ən qabaqcıl dövlətlərdən birinə çevriləcəkdir.

Telman QULİYEV,
Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.

Heydər Əliyev və Azərbaycan təhsili

Tarixi-fəlsəfi, filoloji materiallarda adətən birmənali şəkildə qeyd edilir ki, şəxsiyyətlər mühitin, tarixin yetişdirməsidir. Lakin bəzi xalqlara isə tarixi yaradan şəxsiyyətlər qismət olmuşdur. Belə şəxsiyyətlər mənsub olduğu xalqın, dövlətin üzləşdikləri fəlakətlərin, çətinliklərin aradan qaldırılmasında qətiyyətə, prinsipiallığa, möhkəm siyasi iradə və çevik siyasi manevr qabiliyyətinə malik olan şəxslərdir. Bu mənada Heydər Əliyev tarixi yaradan şəxsiyyətlərdəndir. Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, xalqın illərdir qəlbində alovlandırdığı azadlıq arzusunu boğulmağa qoymayan, cahanşümul əməlləri ilə Azərbaycan xalqının yaddaşında sarsılmaz, möhtəşəm abidə ucaldan ümummilli lider Heydər Əliyev xalqın xilaskarı olmuşdur. Əlbəttə, bu tarixi yaratmaq heç də asan olmamışdır. Heydər Əliyev siyasəti çoxsaylı siyasi, hərbi və iqtisadi tələtümlərin sınağından üzüağ çıxaraq daha da möhkəmlənmişdir.

Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən parlaq sima olaraq nəinki bizim xalqımız, habelə bütün dünya tərəfindən dahi şəxsiyyət kimi qəbul edilir və qiymətləndirilir. Müstəqil Azərbaycan dövlətinin banisi olan ümummilli lider Heydər Əliyev öz şüurlu həyatını Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, bütün dünya azərbaycanlılarının hüquq və azadlıqlarının qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasına, ölkə iqtisadiyyatının daim inkişaf etdirilməsinə, Azərbaycanda demokratik, sivil, dünyəvi dövlət quruculuğuna həsr etmişdir. Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyi dövrünü əhatə edən 1969-1982-ci illər ölkəmizin inkişafının intibah dövrü olmuşdur. Əgər həmin dövrdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə dinamik və güclü inkişaf yolu keçməsəydi, xalqımızda milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub inkişaf etdirilməsəydi, bugünkü müstəqilliyimiz reallığa çevrilməzdi.

1969-1982-ci illərdə Azərbaycan təhsil sistemi və onun inkişaf xronologiyasını özündə əks etdirən bir sıra statistik göstəricilərə nəzər salsaq, görərik ki, həmin dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı isə müvafiq olaraq 110 mindən 147 min nəfərə çatmışdır. 1970-1980-ci illərdə məktəblərin tədris, texniki və elmi-metodiki vasitələrlə təminatı da əsaslı şəkildə yaxşılaşmışdır. Təkcə onu demək kifayətdir ki, 1978-ci ildə fizika və kimya kabinetləri ilə təminat 92,2 faizə qədər yüksəlmişdir. Təhsil müəssisələrinin kadrlarla təminatında ciddi uğurlar əldə edilmişdir.

1970-ci illərdə məktəb müəllimlərinin rəğbətləndirilməsi sahəsindəHeydər Əliyevin məqsədyönlü fəaliyyəti 8718 nəfər maarif işçisinin keçmiş SSRİ-nin orden və medallarına, yüksək adlara layiq görülməsi ilə nəticələnmişdir.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də 1970-1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyevin 1970-1980-ci illərdə respublikadan kənarda keçmiş SSRİ-nin aparıcı ali məktəblərində milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də hərbi milli kadrların yetişdirilməsi yolundakı tarixi xidmətləridir. 70-80-ci illərin ən əhəmiyyətli hadisələrindən biri kimi indi müstəqillik dövründə çox vacib olan respublikamızda ilk orta və ali hərbi təhsil sisteminin yaradılması ilə yanaşı, o illərdə keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsi faktı xüsusilə diqqətəlayiqdir.

Ötən əsrin sonuncu 10 illiyi bəşər tarixinə nəhəng ölkənin – Sovetlər Birliyinin dağılması kimi tarixi bir hadisə yazdı. Tamamilə təbii olaraq, vaxtilə bu birliyə daxil edilmiş ölkələr bir birinin ardınca müstəqillik aktlarını bəyan etdilər. Başqa sözlə, bu ölkələr bir ictimai-siyasi formasiyadan digərinə keçid kimi bir dilemma ilə qarşı-qarşıya durdular. Belə bir şəraitdə xalqın təkidli tələbi ilə ölkəmizdə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanı dağılmaq, parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Müstəqil Azərbaycanın inkişaf tarixi məhz elə bu dövrdən hesablanmağa başlandı.

1998-ci ildə ümummilli lider Heydər Əliyevin təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün xüsusi sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası tərəfindən çox qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı, ətraflı müzakirələrdən sonra təkmilləşdirilmiş variantda həmin Proqram 1999-cu ildə təsdiqləndi. Bununla da Azərbaycan təhsilinin gələcək inkişaf konsepsiyası müəyyənləşdirildi.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri də yeni əlifbaya keçilməsi - latın qrafikalı əlifbanın tətbiqinin əsl reallığa çevrilməsidir. Fəxrlə qeyd edilməlidir ki, ümummilli liderimiz Heydər Əliyevin "Bizim bugünümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır" tarixi çağırışı və bununla əlaqədar xüsusi fərmanı təhsil sistemində bu məsələnin tamlıqla həlli ilə nəticələnmişdir.

Azərbaycanın təhsil tarixində ilk dəfə olaraq ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1999-cu ildə hazırlanıb hökumət tərəfindən təsdiq edilmişdir. Beynəlxalq təcrübəyə əsaslanaraq müasir metodikaları, təlim texnologiyalarını, mütərəqqi üsul və vasitələri, prosesin qiymətləndirilməsini yeni metodlarını da özündə əks etdirən təhsil proqramlarına keçidin təmin olunması, təhsilin məzmununda, inteqrasiya modellərinə keçid humanistləşdirmə prinsiplərinə əsaslanan "təhsilverən-təhsilalan" münasibətlərinin yeni - müasir modellərinin inkişaf etdirilməsi, milli tərbiyə konsepsiyasının hazırlanması, təhsil sisteminin inkişafına məqsədyönlü investisiyaların cəlbi və digər strategiyalar Azərbaycan təhsilinin inkişaf perspektivləri kimi müəyyənləşdirilmişdir.

Respublikamızda demokratik dövlətin qurulması, insan hüquqlarının və azadlıqlarının beynəlxalq konvensiyalara uyğun müdafiəsi, məqsədyönlü daxili və xarici siyasətin aparılması və bu siyasətin dünya ölkələri tərəfindən dəstəklənməsi, ölkəmizin Avropa Şurasına və digər bu kimi mötəbər qurumlara qəbul edilməsi, bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadi siyasətin həyata keçirilməsi Azərbaycana sivil ölkə imici qazandırmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən Təhsil Konsepsiyası onun ən layiqli siyasi varisi cənab İlham Əliyev tərəfindən bu gün uğurla həyata keçirilir və xalqımız tərəfindən yüksək dəyərləndirilir. Belə ki, dövlət başçısı cənab İlham Əliyev milli intibaha və yüksəlişə hesablanmış fəal maarifçilik missiyası həyata keçirir. Ölkə başçısının rəhbərliyi altında son 10 ildə həyata keçirilən ardıcıl tədbirlər təkcə sosial-iqtisadi inkişafa deyil, həm də elmi-intellektual tərəqqiyə, təhsildə dövrün tələbi ilə uzlaşan elm və təhsil islahatlarının həyata keçirilməsinə, insan kapitalının möhkəmləndirilməsinə, elmtutumlu texnologiyaların inkişafına yönəlmişdir. Cənab İlham Əliyev Azərbaycan xalqının gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında hər zaman bildirməklə yanaşı, fəal milli maarifçilik xətti yeridir. Respublikamız inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır və mövcud resurslarını sırf insan faktorunun prioritetə çevrilməsi istiqamətinə yönəldir. Ölkə iqtisadiyyatının yüksək inkişaf tempi, ictimai-siyasi sabitliyin davamlı xarakter daşıması, təhsilin və elmin dünya standartları səviyyəsinə qalxması üçün daha çevik islahatlar aparmağa imkan yaradır. Eyni zamanda, cəmiyyət həyatındakı sürətli dəyişikliklər milli təhsil konsepsiyasının daim müasirləşdirilməsini, iri dövlətlərin maarifçilik ənənələrinin mənimsənilməsini, eləcə də mənəvi-intellektual intibaha xidmət edən siyasətin yeni əsaslarla davam etdirilməsini vacib məsələ kimi gündəmə gətirir.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsilin idarəetmə sisteminin yenidən qurulması, kadr hazırlığının gücləndirilməsi, müəllim peşəsinin nüfuzunun artırılması, müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsi əsas hədəflər kimi qoyulur. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının məqsədi ölkəmizin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək, vəzifəsi isə qara qızıllı insan kapitalına çevirməkdən ibarətdir. Bu proqramın qəbulu bir daha göstərdi ki, təhsil dövlət siyasətinin əsas prioritetidir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf edəcək, təhsil islahatlarının memarı və qurucusu olan ümummilli liderimiz Heydər Əliyevin müdrik tövsiyələri bu yolda daim sönməz məşəl rolunu oynayacaqdır.

Füzuli GÜLƏLİYEV,
YAP Qobustan rayon təşkilatının sədri,
rayon təhsil şöbəsinin müdiri.

“ADA” Universitetində Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc) Aprelin 28-də “ADA” Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, xarici işlər naziri Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinə həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir.

“ADA” Universitetinin rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayev konfransı açaraq bildirmişdir ki, beynəlxalq tədbir Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin görkəmli dövlət xadimi Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzaladığını bildirən Hafiz Paşayev bunun dövlətimizin başçısının görkəmli ictimai-siyasi xadimin fəaliyyətinə verdiyi böyük dəyər olduğunu diqqətə çatdırmışdır.

Vurğulanmışdır ki, Əlimərdan bəy Topçubaşov qaynar bir dövrdə yaşamışdır. Milli ədəbiyyatımızın banisi Mirzə Fətəli Axundzadə və türkdilli mətbuatın əsasını qoyan Həsən bəy Zərdabinin başladığı milli mədəni yeniləşmə hərəkatı həmin dövrdə özünün siyasi mərhələsinə qədəm qoymuşdur. Qeyd edilmişdir ki, Əlimərdan bəy Topçubaşov Azərbaycanın milli kimliyinin qərb sivilizasiyasına qovuşmağı özündə ideya istiqaməti kimi hədəf götürən böyük ictimai-siyasi xadimlərdən biri idi. Əlimərdan bəy milli varlıq fəlsəfəsini özündə toplayan bir tarix idi. Onun fəaliyyəti nəticəsində Azərbaycanın tarixi, dünyaya inteqrasiyası əhəmiyyətli dərəcədə artmışdır. Əlimərdan bəy Topçubaşov öz coşqun fəaliyyəti ilə bütün ümidləri doğrultmuşdur. Yalnız Azərbaycan xalqının deyil, Rusiya imperiyasının müsəlman əhalisinin liderinə çevrilmişdir. XX əsrin əvvəllərində onun belə bir missiya daşıması Azərbaycan xalqının böyük tarixi nailiyyəti idi. Hafiz Paşayev demişdir ki, Ə.Topçubaşovun yaşadığı dövrün tarixini öyrənmək, yenidən tədqiq, onun həyat və fəaliyyətini gələcək nəsillərə, dünya ictimaiyyətinə təqdim etmək bizim vacib vəzifəmizdir.

Milli Məclisin sədri Oqtay Əsədov çıxışında demişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülündə və fəaliyyətində Ə.Topçubaşovun, M.Ə.Rəsulzadənin, F.Xoyskinin, N.Yusifbəylinin, S.Mehmandarovun, Ə.Şıxlınski və başqalarının böyük xidmətləri olmuşdur. Görkəmli dövlət xadimləri, xalqımızın yaddaşında əbədi iz qoymuşlar.

Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb tarixi şəraitdə meydana gəlmişdir. Birinci Dünya müharibəsində çar Rusiyası öz hegemon rolunu itirmişdi. 1918-ci ilin dekabrında Bakıda Xalq Cümhuriyyətinin ilk parlamentinin iclası olmuş və Ə.Topçubaşov parlamentin sədri seçilmişdir. Hərtərəfli istedada malik olan Ə.Topçubaşovun hələ gənc yaşlarından elmə böyük marağı olmuşdur. Bakı Şəhər Dumasının sədri seçilən Ə.Topçubaşov bütün Rusiya müsəlmanlarının siyasi liderlərindən birinə çevrilmişdir.

Milli Məclisin sədri demişdir ki, onun sədrliyi dövründə Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir. Fransa Xarici İşlər Nazirliyinin ali şura üzvləri və digər müttəfiq dövlətlər Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanımışlar. Azərbaycanın bu diplomatik uğuru Ə.Topçubaşovun düşünülmüş fəaliyyətinin məntiqi nəticəsi idi. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Parisdə Ə.Topçubaşovun məzarı üzərində onun qəbirüstü abidəsi ucaldılmışdır.

Daha sonra çıxış edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizin dünya miqyasında tanıdılmasında Əlimərdan bəy Topçubaşovun gördüyü əvəzolunmaz xidmətlərdən danışmışdır.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Ə.Topçubaşovun diplomatik bacarığı sayəsində bir çox dünya ölkələrinin rəhbərləri ilə aparılan danışıqların öz bəhrəsini verdiyini, bunun nəticəsi olaraq Paris Konfransının Ali Şurasının Gürcüstan və Azərbaycan istiqlaliyyətini tanıdığını söyləmişdir. Dünyanın aparıcı ölkələrinin siyasətçiləri Əlimərdan bəy Topçubaşov ilə görüşmüş, səmimi qonşuluq, sərhəd məsələsi, ticarət və mədəni əlaqələr haqqında danışıqlar apararaq barışıq imzalamışlar.

Ə.Topçubaşovun yekdilliklə Azərbaycanın ilk parlamentinin sədri seçildiyini diqqətə çatdıran Elmar Məmmədyarov Şərq mədəniyyətinin xüsusiyyətlərini və Avropanın demokratik dəyərlərini özündə birləşdirən görkəmli siyasi xadimin Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, onun dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlərinin olduğunu xüsusi qeyd etmişdir.

Elmar Məmmədyarov demişdir ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini yenidən bərpa etmişdir. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələr Türkiyə, Rumıniya, Pakistan olmuşdur. Diqqətə çatdırılmışdır ki, Azərbaycanın 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması ölkənin ictimai-siyasi

həyatında mühüm rol oynamışdır. Ötən illər ərzində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artmış, əlaqələri genişlənmişdir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və bu quruma sədrlik etməsi ölkəmizin çox mühüm qlobal təsirə malik olduğunu təsdiqləyir. İndi Azərbaycan dünya çapında böyük nüfuza malikdir. Əgər yaşasa idilər, bu nailiyyətlər Əlimərdan bəy Topçubaşov və digər görkəmli ictimai-siyasi xadimlər üçün ən sevindirici hadisələrdən biri olardı. Müasir müstəqil Azərbaycanın inkişaf və dünyaya inteqrasiya istiqamətlərini ümummilli lider Heydər Əliyev müəyyənləşdirmişdir. Ulu Öndərimizin dediyi kimi indi Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir.

Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə bildirmişdir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın yetirdiyi böyük şəxsiyyətlərə diqqət göstərilməsi, onların xatirəsinin əziz tutulması ənənənə halı almışdır. Diqqətə layiq olan bu cür şəxsiyyətlərdən biri də Azərbaycanın görkəmli ictimai xadimi Ə.Topçubaşovdur. A.Əlizadə qeyd etmişdir ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq Ə.Topçubaşovun 150 illik yubileyinin keçirilməsi ona dövlət səviyyəsində verilən qiymətin əməli ifadəsidir.

Ə.Topçubaşovun həyat və fəaliyyəti Azərbaycanın çox kəşməkəşli bir vaxtına təsadüf edir. O, 1905-1918 ci illər arasında bütün qüvvə və bacarığını vətənin azadlığı uğrunda mübarizəyə həsr etmişdir.

Vurğulanmışdır ki, 1897-ci ildən 1917-ci ilin sonlarına qədər “Kaspi” qəzetinin redaktorlarından biri olan Ə.Topçubaşovun bu mətbu orqanda işıq üzü görmüş məqalələrində Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri haqqında qiymətli fikirlər yer almışdır. Onun başçılıq etdiyi Azərbaycan diplomatlarından ibarət nümayəndə heyəti Parisdən Vaşinqtona qədər yüksək dövlət səviyyəsində qəbul edilmişdir. Bu, Azərbaycan diplomatiyasının şanlı tarixinin səhifələrindən biridir. Sovet hakimiyyəti illərində Ə.Topçubaşovun fəaliyyətinin araşdırılmasına imkan verilməmiş, lakin bu məsələ yalnız keçən əsrin 90-cı illərinin əvvəllərində yenidən gündəmə gətirilmişdir.

A.Əlizadə vurğulamışdır ki, Ə.Topçubaşovun elmi-publisistik irsinin nəşri və tədqiqi Azərbaycan elminin qarşısında duran vacib məsələlərdən biridir. Böyük şəxsiyyətlərin xatirəsinə göstərilən qədirbilənlik hər şeydən əvvəl gənc nəslə vətəni tanıtmaq, öyrətmək dərsidir. Bütün bunlara görə Prezidentimizə minnətdarlığımızı bildiririk.

Daha sonra konfrans panel sessiyalarla davam etmişdir.

“ADA” Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən panel sessiyada Azərbaycanın Polşadakı səfiri, tarix elmləri doktoru Həsən Həsənov çıxış etmişdir.

Əlimərdan bəy Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri və çar Rusiyası I çağırış Dövlət Dumasının müsəlman fraksiyasının rəhbəri vəzifəsində səmərəli fəaliyyəti barədə söhbət açan Həsən Həsənov görkəmli siyasi xadimin Azərbaycan dövlətçiliyinin təşəkkülünə qiymətli töhfələr verdiyini qeyd etmişdir.

Səfir vurğulamışdır ki, azadlıq hərəkatının böyük yüksəlişi dövrü Azərbaycan xalqına istedadlı, peşəkar ictimai-siyasi xadimlər bəxş etmişdir. Onların həyat amalı millətin mənafeyini, azadlığını və müstəqilliyini müdafiə etmək idi.

Diplomat Ramiz Abutalıbov “Ə.Topçubaşov: görkəmli xadimin şəxsi arxivindən sənədlər” mövzusunda çıxış etmişdir. R.Abutalıbov Ə.Topçubaşovun şəxsi sənədləri əsasında hazırlanan və müəllifi tarix elmləri doktoru Salavat İsxakov olan kitab haqqında danışmışdır. Qeyd olunmuşdur ki, bu kitab Ə.Topçubaşovun Rusiya Dövlət Dumasında fəaliyyətinə dair yüzdən artıq sənəd əsasında tərtib edilmişdir.

Ə.Topçubaşovun Dumada fəaliyyəti dövründə həm Azərbaycanda, həm də Cənubi Qafqaz bölgəsində yaşayan müsəlman əhalisinin hüquqlarının qorunması sahəsində göstərdiyi xidmətləri xüsusi vurğulamaq lazımdır. 1906-cı ildə müsəlman əhalisinin əleyhinə hazırlanan qanun layihəsi məhz onun fəaliyyəti nəticəsində qəbul olunmamışdır.

“Əlimərdan bəy Topçubaşov və 20-ci əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi proseslər” mövzusunda çıxış edən Azərbaycan Respublikası Prezidenti Katibliyin rəisi, tarix elmləri doktoru Dilarə Seyidzadə Sovet dönəmində öz həyatlarını ölkəmizin tarixinin tədqiqinə həsr etmiş alimlərin mənbələrdə bu böyük şəxsiyyət haqqında məlumatlara tez-tez rast gəldiklərini, lakin bu barədə elmi mövzular götürüb işləməyə imkan verilmədiyini demişdir.

D.Seyidzadə XX əsrin 60-cı illərində Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, görkəmli alim, akademik Əlövsət Quliyevin bu mövzuya

diqqət yetirdiyini və bununla bağlı gənc tədqiqatçı kimi ona tapşırıq verdiyini qeyd edərək demişdir: “Moskva Tarix İnstitutuna göndərilən tələbələr arasında mən də var idim. Tədqiqatın mövzusu Azərbaycanın Rusiyanın I çağırış Dövlət Dumasında iştirakı haqqında idi. Mən Moskvada tarixçilərlə görüşdüm. Onlar bizim deputatlarımızın fəaliyyətinin elə də görkəmli olmadığını söyləyirdilər. Ona görə də təklif etdilər ki, mən onların müxalifət partiyalarından olan fəallarının tədqiqatlarına qoşulum. Lakin akademik Ə.Quliyev və digər tarixçi alimlər çox düzgün mövqe seçdilər və verilmiş mövzu üzərində işləməyimi tələb etdilər”.

Çıxışına davam edən D.Seyidzadə bildirmişdir ki, Əlimərdan bəy Topçubaşov Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlər göstərmişdir.

ABŞ-ın Massaçusets Universitetinin professoru xanım Audrey Altstadt çıxış edərək görkəmli ictimai xadim Ə.Topçubaşovun fəaliyyətindən danışmış, Azərbaycanın bu dövrdəki tarixinin çox aktual olduğunu söyləmişdir.

XX əsrin əvvəllərində Azərbaycanda Cümhuriyyətin yarandığını bildirən A.Altstadt parlament respublikasında müxtəlif siyasi partiyaların təmsil olunduğunu, Azərbaycanda demokratik sisteminin yaradıldığını qeyd edərək demişdir: “Belə bir demokratik dövlətin Birinci Dünya müharibəsinin son ayları ərzində yaranması gözlənilməz bir hadisə sayıla bilər. Əlimərdan bəy Topçubaşov və digər görkəmli xadimlər Azərbaycanı inkişaf etdirməyə çalışırdılar. Azərbaycan üçün bu çox mühüm tarix və irsdir.

“ADA” Universitetinin dekanı Elnur Soltanovun moderatorluğu ilə keçirilən ikinci paneldə ABŞ-ın Prinston Universitetinin əməkdaşı Maykl Reynolds “Əlimərdan bəy Topçubaşov və onun irsi: kənardan baxış” mövzusunda məruzə ilə çıxış edərək Ə.Topçubaşovun xarici işlər naziri vəzifəsi dövründə gördüyü işlərdən danışmışdır. Bildirilmişdir ki, o dövrdə Amerika hökuməti Ə.Topçubaşov şəxsiyyətinə böyük dəyər vermişdir.

Qeyd edilmişdir ki, Ə.Topçubaşovun təkcə Azərbaycan xalqının deyil, bütün Şərq xalqlarının azadlıq hərəkatı tarixində əvəzsiz xidmətləri olmuşdur. O, dövrünün yüksək təhsil almış hüquqşünası, elm və ictimai xadimi, milli ruhlu naşir olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündən dünyada tanıdılması üçün bir hüquqşünas alim və siyasi xadim kimi Ə.Topçubaşov var qüvvəsi ilə çalışmışdır.

Daha sonra Milli Məclisin deputatı, tarixçi alim Musa Qasımlının “Əlimərdan bəy Topçubaşov: ictimai xadim kimi”, gürcüstanlı ekspert Georgi Momulianın “Əlimərdan bəy Topçubaşov və onun Fransa hökuməti ilə münasibətləri”, Milli Elmlər Akademiyasının əməkdaşı İradə Bağırovanın “Əlimərdan bəy Topçubaşov: siyasi fəaliyyətin başlanğıcı”, rusiyalı ekspert Səlahət İsakovun “Əlimərdan bəy Topçubaşov tarixçi kimi”, Fransanın Beynəlxalq Diplomatiya Akademiyasının dosenti Şirin Melikovun “Əlimərdan bəy Topçubaşov Fransanın Beynəlxalq Diplomatik Akademiyasının üzvü kimi” mövzularında çıxışları dinlənilmişdir.

Konfransda Rusiyanın Milli Kitabxanasının direktoru Anton Lixomanov Əlimərdan bəy Topçubaşovun həyatına aid dəyərli sənədin nüsxəsini “ADA” Universitetinin rektoru Hafiz Paşayevə təqdim etmişdir. ■

Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələrin perspektivləri müzakirə olunmuşdur

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bosniya və Herseqovinanın xarici işlər naziri Zlatko Lagumdziya ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında əlaqələrin inkişaf səviyyəsindən məmnunluq ifadə olunmuşdur.

Söhbət zamanı siyasi, iqtisadi, ticarət və sərmayə qoyuluşu sahələrində ikitərəfli əlaqələrin inkişafı etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran regional məsələlər üzrə fikir mübadiləsi aparılmışdır. ■

Azərbaycan-Yaponiya əməkdaşlığının inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Yaponiyanın xarici işlər nazirinin parlament məsələləri üzrə müavini Takao Makinonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Elmar Məmmədyarov Azərbaycan ilə Yaponiya arasında siyasi, iqtisadi və enerji sahələrində əməkdaşlığın səviyyəsinin məmnunluq doğurduğunu qeyd etmiş, bu səfərin əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsinə əsaslanan prinsipial mövqe nümayiş etdirdiyinə görə Yaponiya tərəfinə təşəkkürünü bildirmişdir.

Elmar Məmmədyarov BMT Təhlükəsizlik Şurası tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul edilmiş dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının tələb edilməsinə baxmayaraq, rəsmi Yerevanın buna əməl etmədiyini diqqətə çatdırmışdır.

Takao Makino dövlətlərin ərazi bütövlüyünə hörmətin Yaponiyanın prinsipial mövqeyi olduğunu qeyd etmiş, bu yaxınlarda keçirilmiş Azərbaycan-Yaponiya hökumətlərarası birgə komissiyasının iclasının və Xarici İşlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmənin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verdiyini diqqətə çatdırmışdır.

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, sərmayələrin və turizmin təşviqi, müqavilə-hüquq bazasının genişləndirilməsi və qeyri-enerji sektoru üzrə əməkdaşlığın inkişafı məsələləri üzrə fikir mübadiləsi aparılmışdır. ■

Müdafiə Sənayesi Nazirliyinin tabeli müəssisələrində cari ilin birinci rübünün yekunlarına həsr edilmiş səyyar kollegiya iclasları keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeli müəssisələrində 2014-cü ilin birinci rübünün yekunlarına həsr edilmiş səyyar kollegiya iclasları keçirilmişdir.

MSN-in mətbuat xidmətindən bildirmişlər ki, nazir Yavər Camalovun sədrliyi ilə keçirilən iclaslarda nazirliyin birlik və müəssisələrinin istehsal, maliyyə-təsərrüfat fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər geniş müzakirə edilmişdir.

Bildirilmişdir ki, hesabat dövründə nazirliyin müəssisələrində 2014-cü il üçün nəzərdə tutulan tədbirlərin icrası davam etdirilmiş, respublikanın güc strukturlarının sifarişləri əsasında bağlanmış müqavilələr üzrə müdafiə təyinatlı məmulatlar istehsal olunaraq sifarişçilərə təhvil verilmişdir. Eləcə də mülki məmulatların istehsalının genişləndirilməsi üzrə işlər davam etdirilmişdir.

Cari ilin birinci rübündə ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmində 1,7 dəfə artım əldə edilmişdir. Müdafiə və xüsusi təyinatlı məmulatların istehsalı, elmi-tədqiqat və təcrübi konstruktor işlərinin həcmi də 1,7 dəfə artmışdır. Hesabat dövründə sifarişçilərə təhvil verilmiş müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 dəfə artmışdır.

Mülki məhsulların istehsalı üzrə proqnoza əməl olunmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə mülki təyinatlı məmulatların istehsalında 55 faiz artım əldə edilmişdir. Cari ilin istehsal proqramına uyğun olaraq birinci rübdə nazirliyin müəssisələrində yaradılma üzrə 66 mövzu və 169 mərhələni əhatə edən elmi-tədqiqat və təcrübi konstruktor işləri davam etdirilmişdir.

Kollegiyada qeyd olunmuşdur ki, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan məmulatlar 2009-cu ildən etibarən, mütəmadi olaraq beynəlxalq sərgilərdə nümayiş etdirilir. Nazirliyin sonuncu qatıldığı sərgi aprelin 14-dən 17-dək Malayziyanın Kuala-Lumpur şəhərində keçirilən XIV Asiya Müdafiə Xidmətləri Sərgisi “DSA-2014” olmuşdur. Bu sərgi dünyanın ən böyük beş müdafiə sənayesi sərgisindən biridir.

Bildirilmişdir ki, 55 ölkədən 800-dən artıq qabaqcıl şirkətin qatıldığı “DSA-2014” sərgisində Müdafiə Sənayesi Nazirliyi 132 adda müdafiə təyinatlı məmulat nümayiş etdirmişdir. Sərgidə “İstiqlal”, “Mübariz”, “Yalquzaq” snayper tüfəngləri, tank və zirehli texnikalar üçün pulemyot, hücum pulemyotu, ilk dəfə olaraq universal pulemyot, “Zəfər”, “Zəfər-K” və “İnam” tapançaları, pilotsuz uçuş aparatları, aviasiya təlim bombası, müxtəlif çaplı sursatlar, əleyhqazlarla yanaşı, digər məmulatlar da nümayiş etdirilmişdir. Bu sərgidə də MSN-in nümayiş etdirdiyi məmulatlar böyük maraqla qarşılanmışdır.

Həmin tədbirdə Müdafiə Sənayesi Nazirliyinin stendində cari ilin sentyabrında Bakıda keçiriləcək “ADEX-2014” beynəlxalq müdafiə sənayesi sərgisinin təqdimatı olmuşdur. Stendi ziyarət edən nümayəndələrə sərgi ilə bağlı dəvətlər çatdırılmışdır.

Kollegiya iclaslarında MSN-in birlik və müəssisələrinin rəhbərlərinin hesabatları da dinlənilmişdir.

Nazir Yavər Camalov hesabat dövründə tabeli birlik və müəssisələr tərəfindən görülmüş işləri müsbət qiymətləndirdiyini bildirmişdir.

Nazir Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkənin müdafiə sənayesinin inkişafı ilə bağlı verilən tapşırıqların yerinə yetirilməsi istiqamətində struktur bölmə, birlik və müəssisə rəhbərlərinə göstərişlər vermişdir. ■

Fövqəladə hallar naziri Qəbələ şəhərində vətəndaşları qəbul etmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Qəbələ şəhərində Qəbələ, Zaqatala, Şəki, Balakən, Qax, Oğuz, İsmayıllı, Şamaxı, Ağsu və Qobustan rayonlarının sakinlərinin qəbulunu keçirmişdir.

Fövqəladə Hallar Nazirliyindən bildirmişlər ki, nazir tərəfindən qəbul edilən 33 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapmış, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilmişdir.

Bundan əlavə, kadr məsələləri ilə bağlı 130, şimal-qərb bölgəsində baş vermiş zəlzələnin fəsadları ilə bağlı 53 və digər məsələlərlə bağlı müraciət etmiş 106 vətəndaş nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurumlarının rəhbərləri tərəfindən qəbul olunmuşdur. ■

Azərbaycan ilə Braziliya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə ediləcəkdir

Bakı, 28 aprel (AzərTAc). Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti Braziliya Federativ Respublikasının Müdafiə Nazirliyinin rəsmi dəvəti ilə aprelin 28-də bu ölkəyə işgüzar səfərə getmişdir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, nazirliyin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi, general-mayor Ramiz Nəcəfovun rəhbərliyi ilə keçiriləcək görüşlərdə iki ölkə arasında hərbi sahədə əlaqələrin yaradılması, hərbi əməkdaşlığın istiqamətləri və perspektivlərinin müəyyənləşdirilməsi barədə fikir mübadiləsinin aparılması planlaşdırılır.

Səfər aprelin 29-dək davam edəcəkdir. ■

Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının 77-ci konqresi işə başlamışdır

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) 77-ci konqresi işə başlamışdır.

Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Prezident İlham Əliyevin konqresə təbrik məktubunu oxumuşdur *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

AİPS-in prezidenti Canni Merlo yüksək təşkilatçılığa görə minnətdarlığını bildirmiş, rəhbərlik etdiyi qurumun tarixi və fəaliyyəti barədə məlumat vermişdir. Bildirilmişdir ki, qurumun 90 illik yubileyinə həsr olunmuş kitab çapdan çıxmışdır. Kitabda AİPS-in fəaliyyət istiqamətləri barədə oxuculara ətraflı məlumat verilmişdir. Üç il əvvəl Azərbaycan ilə əməkdaşlığa başladıqlarını diqqətə çatdıran C.Merlo 2012-ci ildə respublikamızda AİPS tərəfindən Gənc Jurnalistlər Proqramının təşkil edildiyini vurğulamışdır.

Sonra Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax videomesajla konqres iştirakçılarını təbrik etmişdir.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışmış, konqresin fəaliyyətini yüksək qiymətləndirmişdir.

Nazir vurğulamışdır ki, birinci Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi Azərbaycan üçün böyük uğurdur. Bakıda mövcud idman infrastrukturu və inşa olunan komplekslər dünya standartlarına tam cavab verir. Mövcud turizm imkanlarından danışan Azad Rəhimov Bakının inkişaf etmiş, çoxmədəniyyətli şəhər olduğunu vurğulamış, birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin Avropa Olimpiya Komitəsi tərəfindən uğurlu seçim kimi qiymətləndirmişdir.

Azərbaycan idmançılarının beynəlxalq arenada qazandığı nailiyyətlərdən bəhs edən nazir milli komandamızın 5 yay və 4 qış Olimpiya Oyunlarında 26 medal qazandığını diqqətə çatdırmışdır.

Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov konqres iştirakçılarını 90 illik yubiley münasibətilə təbrik etmiş, tədbirin əhəmiyyətindən danışmışdır.

Sonra 2012-ci ildə Azərbaycanda AİPS-in təşkilatçılığı ilə keçirilmiş Gənc Jurnalistlər Proqramından bəhs edən videoçarx nümayiş olunmuşdur.

AİPS-in Bakı konqresi mayın 1-dək davam edəcəkdir. ■

Bakıda AİPS - Avropanın hesabat-seçki konfransı keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 27-də Bakıda Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) 77-ci konqresi çərçivəsində qurumun Avropa üzrə hesabat-seçki konfransı keçirilmişdir.

Tədbirdə çıxış edən AİPS-in prezidenti Canni Merlo Bakıda təşkil olunacaq konqresin gündəliyi barədə məlumat vermişdir. O bildirmişdir ki, tədbir çərçivəsində Azərbaycanda təşkil olunacaq birinci Avropa Oyunlarının təqdimatı keçiriləcək və müxtəlif mövzularda müzakirələr aparılacaqdır.

AİPS - Avropanın prezidenti Yanis Daras rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat vermişdir. Həyata keçirilən layihələrdən danışan Y.Daras yüksək təşkilatçılığa görə Azərbaycana minnətdarlığını bildirmişdir.

Görülən işlər barədə hesabatla çıxış edən Y.Daras AİPS - Avropanın İcraiyyə Komitəsinin üzvlərinin suallarını cavablandırmışdır.

Maliyyə və digər komissiyaların hesabatları dinlənildikdən sonra İcraiyyə Komitəsinin tərkibi yenidən seçilmişdir.

Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) prezidenti Eldar İsmayılov İcraiyyə Komitəsinə üzv seçilmişdir. ■

Bakıda təşkil olunacaq birinci Avropa Oyunlarının təqdimatı keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də "JW Marriott Absheron Baku" mehmanxanasında Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) 77-ci konqresi çərçivəsində 2015-ci ildə Bakıda təşkil olunacaq birinci Avropa Oyunlarının təqdimatı keçirilmişdir.

Avropa Olimpiya Komitəsinin baş katibi Raffaele Paqnozzi birinci Avropa Oyunlarına hazırlıqla bağlı məlumat vermişdir. Qeyd olunmuşdur ki, çoxdan arzulanan bu möhtəşəm yarışa məhz Azərbaycanın ev sahibliyi etməsi sevindirici haldır. Biz Avropa Oyunlarının gələcəkdə də davam etməsini və ənənəvi idman yarışına çevrilməsini arzulayırıq.

Bildirilmişdir ki, birinci Avropa Oyunlarında yarışlarla yanaşı, jurnalistlərin fəaliyyəti üçün yaradılacaq şərait də diqqət mərkəzindədir. Çünki məhz idman müxbirləri maraqların qovuşmasını, dostluq və əməkdaşlığı özündə cəmləşdirir, eləcə də turnirlərlə əhali arasında birbaşa körpü yaradırlar.

Ötən əsrin 90-cı illərindən dünyada idman biznesinin formalaşmağa başladığını diqqətə çatdıran R.Paqnozzi Olimpiya Oyunlarına, dünya və Avropa çempionatlarına, digər irimiqyaslı turnirlərə sərf olunmuş vəsaitdən danışmışdır. Vurğulanmışdır ki, idman jurnalistikası bu sahədə korrupsiya, dopinq və digər mənfi halların qarşısının alınmasında mühüm rol oynayır.

Dini, milli və irqi ayrı-seçkiliyin idmanda yolverilməzliyini diqqətə çatdıran natiq bütün ölkələri Olimpiya hərəkatının dəyərlərinə sadiq olmağa səsləmişdir.

"Bakı-2015"in idman xidmətləri və əməliyyatlar üzrə direktoru Ceyms Makleod çıxışında birinci Avropa Oyunlarında 6 min idmançının 239 dəst medal uğrunda mübarizə aparacağını qeyd etmişdir. "Bakı-2015" ümumilikdə idmanın 19 növü üzrə keçiriləcəkdir. İdmanın 8 növü üzrə 2016-cı ildə Rio de-Janeyroda təşkil olunacaq Yay Olimpiya Oyunlarına lisenziya veriləcəkdir.

"Bakı-2015"in mətbuat məsələləri üzrə direktoru Ceyn Pers Avropa Oyunlarında 750 jurnalist və fotoqrafın iştirak edəcəyini demişdir. Natiq jurnalistlərin yerləşəcəkləri məkanlarda və yarışların keçiriləcəyi arenalarda hər cür internet xidmətindən yararlana biləcəklərini vurğulamışdır. Bildirilmişdir ki, birinci Avropa Oyunlarında qeydiyyat prosesi bir mərhələdən ibarət olacaq və 2014-cü ilin dekabrından 2015-ci ilin martınadək davam edəcəkdir.

Sonra Azərbaycanın turizm imkanlarından bəhs edən videoçarx nümayiş olunmuşdur.

Sonda gimnastika və sambo üzrə təqdimatlar keçirilmişdir. ■

İkinci Qlobal Açıq Cəmiyyətlər Forumu işini sessiyalarla davam etdirmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Bakıda keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumu açılış mərasimindən sonra işini sessiyalarla davam etdirmişdir.

"Sosial sütunlar. Açıq cəmiyyətin əsasları" mövzusunda keçirilən birinci sessiyada "Arxanda heç kimsəni buraxma: yeni davamlı inkişaf məqsədlərində sosial inteqrasiyanın vacibliyi" məsələsi müzakirə olunmuşdur.

Sessiyanın moderatoru olan Açıq Cəmiyyət Layihəsinin məzmun və siyasət əlaqələndiricisi Klem Makkartni Foruma yüksək səviyyədə ev sahibliyi edən Azərbaycana təşəkkürünü bildirmişdir. O vurğulamışdır ki, mükəmməl cəmiyyətin üzləşdiyi problemlərin aradan qaldırılmasında əsaslı iqtisadiyyatın yaradılması və bu məsələdə bütün ölkələrin resurslarının səfərbər olunması, əhalinin bütün qrupları və təbəqələri üçün bərabər imkanların təmin edilməsi zəruridir.

Şri-Lankanın sabiq Prezidenti (1994-2005), Madrid Klubunun üzvü Çandrika Bandaranaike Kumaratunga açıq cəmiyyət üçün dövlətin yürütdüyü siyasətin inkluziv xarakter daşımasının vacibliyini vurğulamışdır. Bildirilmişdir ki, dövlət əhalinin bütün qruplarının cəmiyyətin həyatında fəal rol oynamalarına, onların qərar qəbulunda iştirakına şərait yaratmalıdır. Buna görə də əhalinin müxtəlif qruplarının cəmiyyətdən təcrid olunmasına imkan verilməməlidir. Bu məsələdə şəffaf və səmərəli idarəçiliyin mühüm rol oynadığını diqqətə çatdıran sabiq Prezident açıq cəmiyyətlərin Minilliyin İnkişaf Məqsədlərinə daxil edilməsinin əhəmiyyətini vurğulamışdır.

Albaniyanın sabiq Prezidenti (1997-2002), Madrid Klubunun üzvü Recep Meidani çıxışında açıq cəmiyyətlər üçün birgə əməkdaşlığın vacibliyindən danışmışdır. Əgər bir yerdə işləməsək cəmiyyətdə təcridolunma baş verə bilər. Millətçi çıxışlarla vəziyyətdən çıxmaq mümkün deyildir. Biz ziddiyyətləri aradan qaldırmaq üçün bir yerdə işləməli, qarşılıqlı anlaşma içərisində olmalı, aramızda sıx əməkdaşlıq qurmalıyıq. Düzgün idarəçilik bu prosesdə çox böyük əhəmiyyət daşıyır. Əgər liderlər bu istiqamətdə səy göstərsələr, onda bütün dünya əhalisi özünü bəlalardan qurtulmuş hesab edə bilər.

Belçikanın sabiq Baş naziri (2009-2011), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü İvs Leterme demişdir ki, hər bir cəmiyyətdə qəbul edilmiş qərarların düzgün icra olunması və bütün təbəqələri əhatə etməsi ciddi nəzarətdə saxlanılmalıdır. Belə ki, əhalinin bütün təbəqələrinin təhsil, səhiyyə və digər imkanlarla bərabər səviyyədə əhatə olunması çox vacib məsələdir. Çünki açıq cəmiyyətdə davamlı inkişafın və sosial rifahın bütün əhali arasında bərabər bölünməsi çox önəmlidir. Bu, açıq cəmiyyətin əsasını təşkil edən prinsiplərdən biridir, - deyən Y.Leterme bu istiqamətdə əhalinin bütün təbəqələrinin təmsil olunduğu müzakirələrin aparılmasının, qurumların yaradılmasının vacibliyini diqqətə çatdırmışdır.

Forumda növbəti belə tədbirlər üçün vacib olacaq mühüm fikirlərin səsləndirildiyini vurğulayan Dünya Bankının sosial inkişaf şöbəsinin sosial inteqrasiya üzrə qrup rəhbəri Maitreyi Das sosial inkluzivliyə nail olmaq üçün belə tədbirlərin intensiv keçirilməsinin zəruriliyini qeyd etmişdir. O bildirmişdir ki, açıq cəmiyyətlər üçün qarşılıqlı hörmət çox vacibdir. Qarşılıqlı hörmətə etinasızlıq cəmiyyətin əsas sütunlarının tənəzzülü deməkdir. Buna görə də əvvəlcə insanlarda qarşılıqlı hörmət, ləyaqət hisslərini inkişaf etdirmək lazımdır.

Cəmiyyətdə sosial ahəngdarlığın, siyasi sabitliyin, iqtisadi inkişafın əsasında təhsilin dayandığını vurğulayan Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov bu baxımdan düşünülmüş qərarların qəbul edilməsinin mühüm rol oynadığını demişdir. Nazir açıq cəmiyyətlərdə hər bir fərdin öz məsuliyyətini dərk etməsinin vacibliyini diqqətə çatdırmışdır.

Son illərdə ölkəmizdə təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısından danışan nazir Azərbaycanda orta məktəb binalarının 60 faizinin yenidən qurulduğunu bildirmişdir. Azərbaycan dövləti hesab edir ki, mədəniyyətlər arasında sülh və anlaşma müxtəlif icmaların qarşılıqlı münasibətlərdən asılıdır. Bu məsələdə təhsil çox mühüm rol oynayır.

Azərbaycanın sürətli iqtisadi inkişafından söz açan Mikayıl Cabbarov bu yüksəlişin əsasında ulu öndər Heydər Əliyevin 1990-cı illərin əvvəllərində müəyyənləşdirdiyi düzgün və uzaqgörən siyasətin durduğunu bildirmişdir. Məhz bu siyasətin uğurla həyata keçirilməsinin nəticəsində Azərbaycanda dayanıqlı inkişaf baş vermişdir.

Çıxışlardan sonra mövzu ətrafında müzakirələr aparılmışdır.

Müzakirələrdə daxili iqtisadi artım siyasəti ilə əməli iş, yüksək keyfiyyətli təhsil və digər sosial xidmətlər üçün bərabər imkanların yaradılması, xüsusilə qadınlar, milli azlıqlar, gənclər və digər marjinal qruplar üçün nəzərdə tutulmuş davamlı inkişaf və sosial inteqrasiyanın əsas hədəflərindən söhbət açılmışdır.

* * *

Sonra Forumun "Qlobal sərhədləri təqdir edərək sosial inteqrasiya dayanıqlı iqtisadi artımın aparıcı qüvvəsi kimi" mövzusunda ikinci sessiyası keçirilmişdir.

"Friedrich-Ebert-Stiftung" Fondunun İsrail filialının icraçı direktoru Verner Pusçranın moderatorluğu ilə keçən sessiyada İsrailin sabiq Baş naziri Ehud Barak, Finlandiyanın sabiq prezidenti Tarya Halonen, Botsvananın sabiq Prezidenti Festus Moqae, Moldovanın sabiq Prezidenti Petru Luçinski, Beynəlxalq Yaşıl Xaç Cəmiyyətinin prezidenti Aleksandr Likhotal, Azərbaycanın iqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova çıxış etmişlər.

İsrailin sabiq Baş naziri Ehud Barak bildirmişdir ki, sessiyada müzakirə olunan mövzular dünya ictimaiyyətinin gələcək inkişafına yönəlmişdir. Sessiyanın məqsədi davamlı iqtisadi artıma nail olmaq üçün sosial inteqrasiyanın nə dərəcədə əhəmiyyətli olduğunu və əldə edilən uğurların da öz növbəsində inteqrasiya, təbii sərvətlər və qlobal sərhədlərdən nə dərəcədə asılı olduğunu daha dərindən dərk etməkdir.

Finlandiyanın sabiq prezidenti Tarya Halonen vurğulamışdır ki, ölkələrdə sosial tərəqqiyə nail olmaq iqtisadiyyatın inkişafına da öz təsirini göstərir. Bunun üçün xüsusilə təhsil və səhiyyənin inkişafı diqqət mərkəzində olmalıdır. Qlobal cəmiyyətdə insan kapitalının inkişafı ən aktual məsələlərdəndir. Cəmiyyətlərdə qadınların və gənclərin fəaliyyətinin genişləndirilməsi, onların işlə təmin olunması da çox vacibdir. Bəzi ölkələrdə qadınların bilikli olmasına çox önəm verirlər. Lakin onların gücündən istifadə kifayət qədər deyildir. Yalnız insan kapitalının potensialından istifadə edilməsi gələcək nəsillərin həyatını daha da asanlaşdıra və daha inkişaf etmiş cəmiyyətdə yaşamalarına şərait yarada bilər.

Beynəlxalq Yaşıl Xaç Cəmiyyətinin prezidenti Alexandr Likhotal vurğulamışdır ki, dünyada sağlam cəmiyyətin formalaşdırılması üçün ekoloji amillərə diqqət artırılmalıdır. Təbii resurslardan düzgün istifadə, onların mühafizə edilməsi əsas məqsədlərdən biri olmalıdır. Təmiz texnologiyalar və yaşıl enerjinin vəhdəti daha çox işlə təmin etməyə və beləliklə də, daxili iqtisadi artımı daha da gücləndirməyə xidmət edə bilər.

Botsvananın sabiq Prezidenti Festus Moqae ölkələr arasında ədavətin yaranmasının dünya iqtisadiyyatına vurduğu ziyanı qeyd etmişdir. Bildirilmişdir ki, birgə səylərlə elə bir dünya formalaşdırılmalıdır ki, insanlar sülh şəraitində yaşasınlar, onların rifah halı yüksək olsun. Bütün bunlara nail olmaq üçün siyasətçilər, ziyalılar çox iş görə bilərlər. Məqsəd gələcək nəsillərə daha gözəl bir dünya miras qoymaqdır.

İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bildirmişdir ki, Azərbaycan hazırda sürətlə inkişaf edən ölkələr sırasındadır. Son 10 ildə ölkə çox böyük iqtisadi artıma nail olmuşdur. Yoxsulluğun səviyyəsi xeyli aşağı düşmüş, orta aylıq əməkhaqqı yüksəlmiş, sosial müavinətlərin məbləği artmışdır ki, bu da sosial rifah halının əsas göstəricilərindəndir. Görülən tədbirlər nəticəsində işsizliyin səviyyəsi xeyli aşağı düşmüşdür. Maliyyə böhranının təsirlərindən müdafiə olunmaq məqsədilə həyata keçirilmiş iqtisadi islahatların nəticəsi kimi sosial standart göstəriciləri artmışdır. Nazir müavini qeyd etmişdir ki, respublikada əmək pensiyalarının baza hissəsi pensiyaçılar üçün yaşayış minimumunun məbləğini neçə ildir üstələyir və bu göstəricilər arasında fərq ilbəil artmaqdadır. Artıq Azərbaycan dayanıqlı iqtisadi artıma qədəm qoymuşdur. Ölkəmizin sürətli və ardıcıl inkişafına təkan verən bütün bu tədbirlər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticələridir.

Tədbirdə digər çıxış edənlər sosial tərəqqinin təmin edilməsi sahəsində təmsil etdikləri ölkələrin qazandığı təcrübədən bəhs etmişlər.

Sessiyada ərzaq təhlükəsizliyi, ekoloji problemlərin həlli, insan kapitalının inkişafı, miqrasiya problemləri, əhalinin su təminatı və digər aktual məsələlər müzakirə edilmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

* * *

(davamı 10-cu səhifədə)

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PRAQA SAMMİTİNDƏ ÇIXIŞI ZAMANI ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANA TUTARLI CAVABI

Praqada dövlət və hökumət başçılarının iştirakı il keçirilən "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəni müdafiə edərək həmkarı Sarkisyana qarşı səsləndirdiyi ittihamlar həm ölkə daxilində, həm də beynəlxalq aləmdə çox yüksək dəyərləndirilir

Dövlətimizin başçısı cənab İlham Əliyevin həmişə dünyada ədalətin və haqqın tərəfdarı olduğu, zaman-zaman bu məsələlərlə bağlı istər ölkə daxilində, istərsə də ən nüfuzlu beynəlxalq tribunalarda kəskin və obyektiv çıxışlar etdiyi bəllidir. Xüsusən də Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq, soyqırım, etnik təmizləmə və terrorçuluq siyasətinin ifşası Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindəndir. Bununla belə, dünya ictimaiyyəti Praqada keçirilən Avropa İttifaqının Şərq tərəfdaşlığı Proqramının 5 illiyinə həsr olunmuş sammitdə Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa Ermənistanın dövlət başçısı Serj Sarkisyana ünvanlanan və yerində deyilmiş çox kəskin ittihamlarının şahidi oldular. Buna birbaşa səbəb isə S. Sarkisyanın erməni xislətinə uyğun sammitdə Türkiyə nümayəndəsinin iştirak etməməsindən sui-istifadə edərək qardaş ölkəyə, onun rəhbərlərinə qarşı böhtan dolu çıxışı idi.

Prezident İlham Əliyev sammitdəki tarixi çıxışında hər şeydən öncə nəzərə çatdırdı ki, Ermənistan prezidenti Serj Sarkisyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma erməni soyqırımı ilə bağlı mülahizələrə həsr edib. Türkiyənin Sammitdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan prezidenti bununla da Zirvə görüşünün plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma soyqırımı məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serj Sarkisyan bir tərəfdən Türkiyəni qondarma soyqırımı ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Ermənistan prezidenti çıxışında hər cəhdlə inandırmağa çalışıb ki, Avropa ictimaiyyəti qondarma soyqırımı ilə bağlı daha təsirli mövqe tutmalıdır.

Cənab İlham Əliyev daha sonra birbaşa Ermənistan prezidentini və ermənilərin yürütdüyü sərsəm siyasəti ifşa edərək demişdir: "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm. Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub. Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl - Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan, ümumilikdə, 7 Azərbaycan rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir".

Praqa sammitinin Avropa, eləcə də dünyanın siyasi arenası üçün böyük əhəmiyyətini nəzərə alsaq, Prezident İlham Əliyev bu çıxışında həm də dünya dövlətlərinin başçılarının, politoloqların və ümumiyyətlə dünya ictimaiyyətinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzanmasında məhz kimin günahkar olduğuna, kimin qeyri-konstruktiv mövqe tutduğuna, beynəlxaq hüquq norma və prinsiplərini kobudcasına pozduğuna yönəltdi.

Aqzərbaycanın torpaqları hələ də işğal altındadır. Ermənilərin 200 ildən artıq davam edən soyqırım, etnik təmizləmə, terrorçuluq və işğalçılıq siyasəti bu gün nəinki Cənubi Qafqaz, eləcə də dünya üçün ciddi təhdid yaradır. İşğalçının yerində oturdulması daha böyük faciələrə gətirib çıxara bilər. Dövlətimizin başçısının sammitdə vurğuladığı kimi, bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq, bu günədək davam edir. Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir.

Nüfuzlu politoloqların qənaətinə görə, Praqa sammitinin ən böyük nəticəsi Azərbaycan-Türkiyə dostluğunun, strateji əməkdaşlığının dünya səviyyəsində açıq, səmimi nümayişi idi. Belə ki, münaqişə başlayandan və müstəqil Azərbaycan dövləti zorən müharibəyə cəlb ediləndən, işğala məruz qaldıqdan sonra Türkiyə həmişə ölkəmizin haqq işini müdafiə edib, Ermənistanla sərhədlərin bağlanması da məhz onların işğalçılıq siyasəti və bu bundan əl çəkmək istəmələri ilə bağlıdır. Bunu Türkiyə tərəfi dəfələrlə və açıq şəkildə bəyan edib. Həmin reallığı bütün dünya bilir. Bu dəfə isə dünya ictimaiyyəti Prezident İlham Əliyevin timsalında nəinki Azərbaycanın, eləcə də Türkiyənin haqq işinin əsaslı müdafiəsinin, bu ədalətli məsələdə mahir diplomatik hucumunun şahidi oldu.

Dövlətimizin başçısı sammitdəki çıxışında Türkiyə-Ermənistan əlaqələrinə toxunaraq Baş nazir Ərdoğan hələ bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etdiyini xtırladaraq bildirib ki, bu, tarixçilərin iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirmələri üçün zəruri idi. Həqiqətən də, tarixi hadisələri ilk növbədə məhz tarixçilər araşdırmalıdırlar. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Çünki ermənilərə, Ermənistan rəhbərliyinə tarixi həqiqət yox, uydurma soyqrım, uydurma Ermənistan dövləti, özgə torpaqlar gərəkdir. Ermənilərin bütün siyasəti həqiqət üzərində deyil, yalnız yalan, iftira üzərində köklənib. İndi Türkiyəni qondarma soyqrımı ilə təhdid edən ermənilər unutmasınlar ki, Birinci Dünya Müharibəsi dövründə Çar Rusiyasının Türkiyəyə hücumu və ərazilərinin işğalında ermənilər də böyük rol oynayıb və əslində sığındıqları dövlətə arxadan xəyanətkar zərbə vurub. Bununla yanaşı, ruslar tərəfindən müvəqqəti olaraq ələ keçirilmiş Türkiyənin şəhər və kəndlərində erməni əsgərləri dinc əhaliyə vəhşicəsinə divan tutmuş, onları anbarlara salaraq diri-diri yandırmışlar. Bunu tarix faktlar da, məsələn, həmin illərdə Türkiyədə vuruşmuş Çar Rusiyasının zabitləri öz məqalə və xatirələrində birmənalı olaraq təsdiqləyir. Təbii ki, həmin dövrdə erməni xəyanətkarları öz cəzalarını alıblar, eləcə də müharibədə arxadan zərbə almamaq üçün ermənilər daha arxa ərazilərə köçürülüblər ki, bu da müharibə aparan bir ölkə üçün zəruri tədbirlər idi.

Buna baxmayaraq, Türkiyənin Baş naziri T.Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi. Dövlətimizin başçısı cənab İlham Əliyev bu nüanslara da xüsusi toxunub: "Baxmayaraq mən bilirəm ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyildir. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır".

Prezident İlham Əliyevin bu çıxışı dünya mətbuatının, xüsusən də Türkiyə KİV-lərinin diqqətindədir. Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəni müdafiə edərək həmkarı Sarkisyana qarşı səsləndirdiyi ittihamlar Türkiyə mediasının gündəmindədir. **Türkiyə mediası bunu Əliyevdən Ermənistana sillə kimi cavab adlandırıb və Sarkisyana birbaşa ünvanladığı "Türkiyə burada yoxdur, mən buradayam" ifadələrini manşetə çıxarıb.** Türkiyənin rəsmi informasiya agentliyi olan Anadolu bu xəbəri "Əliyevdən Ərdoğana dəstək" başlığı ilə təqdim edib. Ərdoğana yaxınlığı ilə bilinən "Sabah" və "Yenişafak" qəzetləri xəbəri müvafiq olaraq Əliyevdən Ermənistana sillə kimi cavab və "Əliyevdən Sarkisyana Türkiyə dərsi" başlığı ilə veriblər. "Haber Türk" qəzetində dərc olunmuş məqalədə bildirilir ki, Praqada keçirilən "Şərq tərəfdaşlığı" sammitində Ermənistsan prezidenti Serj Sarkisyanın Türkiyənin ünvanına söylədiyi tənqidi fikirlərə Azərbaycan Prezidenti İlham Əliyev sərt cavab verib. "Ensonhaber" saytı isə xəbəri "Ermənistan prezidentinin gözlərinin içinə baxaraq, "Türkiyə burada deyil, mən varam" kimi təqdim edib. Türkiyənin ən çox oxunan xəbər saytlarından olan "Milliyet" isə Əliyevin çıxışını Türkiyəni ittiham edərkən elə bir tənqid eşitdi ki..."

"Radikal" qəzeti "Sarkisyanın Türkiyəni tənqid etmiş və Əliyevdən sərt təpgi", "Akşam" qəzeti "Türkiyə nümayəndələri burada yoxdursa, mən varam", "Posta" "Əliyevdən Ərdoğana dəstək", "Cümhuriyyət" "Türkiyəni tənqid edən Sarkisyana Əliyevdən sərt cavab", "Hürriyət Daily News" "Sarkisyan Türkiyəni tənqid edərkən Əliyev rəsmi Ankaranın müdafiəsinə qalxdı" kimi fikirləri manşetə çıxarıb.

Türkiyənin "TQRT", "TRT Türk", "TRT Avaz", "TRT Haber" və digər televiziya kanallarında yayımlanmış, eləcə də "Doğan", "İhlas" agentlikləri, "Haberler" və digər xəbər portlarında yerləşdirilmiş şərhlərdə qeyd olunur ki, Praqa sammitində Ermənistan prezidenti rəsmi Ankaranı qondarma "soyqırım" ilə bağlı konstruktiv mövqe tutmamaqda ittiham etmiş, bu ölkənin Avropa İttifaqına üzvülüyünü guya yolverilməz olduğunu demişdir. Əvəzində Azərbaycan Prezidenti İlham Əliyevdən sərt və tutarlı cavab almışdır. Yazılarda deyilir ki, bu sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının daha bir təsdiqidir.

"Əl-Cəzirə" türk televiziyasının saytında yerləşdirilən "Əliyevdən Sarkisyana Türkiyə cavabı" sərlövhəli məqalədə də dövlətimizin başçısı İlham Əliyevin cəsarətli çıxışından bəhs olunur. Məqalədə bildirilir ki, Praqa Sammitində Türkiyəyə qarşı əsassız ittihamlarla hücuma keçən Sarkisyana sərt cavab verən Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".

Yazıda Azərbaycan Prezidentinin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın 1915-ci il hadisələri ilə bağlı başsağlığı verməsinə Ermənistan tərəfindən müvafiq reaksiyanın olmadığını bildirməsi xüsusi vurğulanıb: "Baş nazir Ərdoğan bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etmişdi ki, tarixçilər iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirsinlər. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Dünən isə Baş nazir Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi".

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartların olması, eləcə də işğalçı ölkənin bölgədə sülh istəmədiyi barədə dövlətimizin başçısının sözləri xüsusilə diqqətə çatdırılıb: "Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyildir. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır".

Azərbaycan xalqı bir sual verir: "Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır". Yazıda Azərbaycan Prezidentinin bu mövqeyi Türkiyəyə əsl qardaşlıq dəstəyi kimi dəyərləndirilir.

Xəlil CABBAROV,
"Respublika".

"Bakı-2015" Avropa Oyunları beynəlxalq miqyaslı media konfransına sponsorluq edir

Bakı, 28 aprel (AzərTAc). "Bakı-2015" Avropa Oyunları Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) Bakıda keçirilən 77-ci İllik konqresinə sponsorluq etdiyini qürurla bildirir.

"Synergy Partnership" MMC-dən bildirmişlər ki, 1924-cü ildə əsası qoyulmuş AİPS beynəlxalq media nümayəndələrinin dünya miqyaslı görüş yeridir və bu qurumun 77-ci konqresi aprelin 27-dən mayın 1-dək ilk dəfə olaraq Bakı şəhərində keçirilir.

Ümumilikdə 260-dan çox peşəkar jurnalist və media təmsilçisinin iştirakı ilə beş gün davam edəcək konqresdə qlobal idman hadisələrinin və dünya miqyaslı tədbirlərin işıqlandırılmasında medianın qarşısında duran vəzifələr müzakirə olunur.

Konqresdə "Bakı-2015" Avropa Oyunlarının təşkilatçıları, həmçinin nümayəndələri gələn yay Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıqlar haqqında məlumatlandıracaqlar.

Nümayəndələri salamlayan Azərbaycan Respublikasının gənclər və idman naziri və "Bakı-2015" Avropa Oyunlarının baş icraçısı Azad Rəhimov bildirmişdir: "Bu cür nüfuzlu konfransa ev sahibliyi etmək Bakı üçün böyük fəxrdir və bu tədbirə sponsorluq etdiyimiz üçün son dərəcə qürurluyuq. "Bakı-2015" Avropa Oyunlarının keçirilməsinə bir ildən bir qədər çox bir müddət qaldığı üçün biz səbirsizliklə nümayəndələrə yarışların keçiriləcəyi yerləri və bu günədək gördüyümüz böyük işləri göstərmək istəyirik. Bu konqres, həmçinin qonaqlarımıza Bakımızın müasir və dinamik Avropa şəhəri olduğunu nümayiş etdirmək üçün gözəl bir imkandır və mən həyəcanla qonaqların ölkəmizə gəlişini gözləyirəm".

Builki görüşdə həm də 1924-cü ildə keçirilmiş Paris Olimpiya Oyunlarında təsis edilmiş AİPS-nin 90-cı ildönümü qeyd ediləcəkdir.

AİPS-in sədri Canni Merlo bildirmişdir: "90-cı ildönümümüzü qeyd etdiyimiz üçün builki konqres bütün əlaqədar şəxslər üçün xüsusilə yaddaqalan olacaqdır. Birlikdə Bakıya gəlişimiz bizə bu möhtəşəm hadisəni qeyd etmək, o cümlədən növbəti 12 ay ərzində dünyanın idman həyatının əsas diqqət mərkəzinə çevriləcək yeni bir məkanda gördüyümüz işlərin gələcəyini müzakirə etmək imkanı verəcəkdir. Fürsətdən istifadə edərək, tədbirimizə sponsorluq etdikləri və illik konqresimizin ölkələrində keçirilməsinə imkan yaratdıqları üçün Azərbaycan hökumətinə və "Bakı-2015" Avropa Oyunlarının təşkilatçılarına təşəkkürümü bildirmək istəyirəm".

Oyunların keçirilməsinə nisbətən az müddətin qaldığı bir vaxtda nümayəndələrin, həmçinin inşa edilməkdə və yenilənməkdə olan obyektləri görmə fürsəti olacaqdır.

"Bakı-2015" Avropa Oyunlarının sözçüsü bildirmişdir: "İlk dəfə keçiriləcək Avropa Oyunlarına ev sahibliyi etmək Azərbaycanın dünya idman hadisələri xəritəsinin mərkəzində yer alması üçün həyəcanverici bir imkandır. Oyunlar üçün hazırladığımız məkanlar dünya standartlarına cavab verir və innovativ bir idman mühitində Avropanın qabaqcıl atletlərini qəbul etmək üçün tam hazır olacaqdır. Biz bu fürsətdən istifadə edərək dünyanın idman mediasını şəhərimizlə və gələn il keçiriləcək Avropa Oyunlarına hazırlıq işləri ilə tanış etməkdən məmnunluq duyarıq".

Qeyd edək ki, "Bakı-2015" Avropa Oyunları gələn il iyunun 12-dən 28-dək davam edəcək və qitənin ilk, həyəcanverici və multiidman hadisəsi olaraq tarixə yazılacaqdır.

"Bakı-2015" Avropa Oyunlarında 19 idman növü üzrə yarışlar keçiriləcəkdir. Bunlardan 6-sı Olimpiya, üçün isə qeyri-Olimpiya oyunlarıdır. Ümumilikdə 17 gün davam edəcək yarışlarda 6000-dən çox idmançının öz ölkələrini təmsil edəcəyi gözlənilir.

İdman növlərindən səkkizində 2016-cı ildə Rio de Jeneiro şəhərində keçiriləcək Olimpiya Oyunlarına təsnifat imkanları təqdim olunacaqdır. Bu idman növlərinə yüngül atletika, çimərlik voleybolu, velosiped yarışı, atıcılıq, üzgüçülük, stolüstü tennis, taekvondo və triatlon daxildir.

Oyunların Bakıda keçirilməsinə 2012-ci ilin dekabr ayında Avropa Olimpiya Komitəsi (AOK) tərəfindən qərar verilmişdir. Bakı Avropa Oyunlarının Əməliyyat Komitəsi (BAOƏK) AOK ilə birgə şəkildə Oyunların təşkilatçılığı və həyata keçirilməsi ilə məşğul olur. ■

İkinci Qlobal Açıq Cəmiyyətlər Forumu işini sessiyalarla davam etdirmişdir

(əvvəli 9-cu səhifədə)

II Qlobal Açıq Cəmiyyətlər Forumu çərçivəsində keçirilən üçüncü sessiya "Açıq cəmiyyətlər mürəkkəb vəziyyətlərdə münaqişələrin həlli kimi" mövzusuna həsr olunmuşdur.

Sessiyada qeyd olunmuşdur ki, münaqişələrə yol verməməklə açıq cəmiyyətlər insanların ümumi rifahına xidmət edən əlverişli mühit yarada bilər. Sessiya iştirakçıları hesab edirlər ki, sülh, stabillik, ədalət və tolerantlıq iqtisadi inkişaf və çiçəklənmə üçün ən yaxşı təminatdır. Məruzəçilər sosial inteqrasiya və açıqlığın mövcud problemlərin aradan qaldırılmasında faydalı ola biləcək əsas prinsiplərini qeyd etmişlər.

Türkiyənin keçmiş xarici işlər naziri Hikmət Çətin demişdir ki, təhlükəsizlik və sabitlik olmadan dayanıqlı insani və iqtisadi artıma nail olmaq çox çətindir. Münaqişələrdən danışarkən o bildirmişdir ki, ilk növbədə Dağlıq Qarabağ münaqişəsindən başlamaq lazımdır: H.Çətin demişdir: "Dağlıq Qarabağ münaqişəsi regionda sülhə əsas manə olaraq qalır. Qarabağ münaqişəsi sovet dövrünün mirasıdır. Dünyanın bu hissəsində ən uzun sürən münaqişələrdən biridir".

Hikmət Çətin vurğulamışdır ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Nəinki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, hətta onun ətrafındakı 7 rayon Ermənistan tərəfindən işğal olunmuşdur. Münaqişənin həlli üçün ilk addım olaraq Dağlıq Qarabağ ətrafındakı rayonlardan Ermənistan ordusu çıxarılmalıdır. Bu, sülh və sabitlik üçün müsbət addım olardı. Vəziyyət daim belə davam edə bilməz. Ermənistan düşünsün, onlar indiyədək nəyi itirmişlər və bu münaqişə həll edildikdən sonra nə əldə edə bilərlər. Ermənistan iqtisadi cəhətdən acınacaqlı vəziyyətdədir.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin terrorizm, ksenofobiya, insanların dözümsüzlüyü hallarının

münaqişələrə gətirib çıxardığını demişdir. O, ərəb ölkələrində baş verən çaxnaşmalarda bir sıra qrupların sülhü qoruyub saxlamağa çalışdığını bildirmişdir. Lakin sabitliyi tam bərpa etmək üçün bütün cəmiyyət buna səy göstərməlidir. Sülh üçün milli barış lazımdır.

Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlardan danışmışdır. O qeyd etmişdir ki, bu münaqişə Cənubi Qafqazda ən təhlükəli münaqişələrdən biridir. Regionda sabitlik əldə etmək üçün Dağlıq Qarabağ münaqişəsinin həlli çox vacibdir. Araz Əzimov danışıqlar prosesində ATƏT-in roluna toxunaraq demişdir ki, bu təşkilat münaqişələrin həllində daha mütərəqqi mexanizmlər hazırlamalıdır.

Rumıniyanın sabiq Prezidenti Emil Konstantinesku münaqişələrin həllində etnik və dini icmaların iştirakı məsələsinə toxunmuşdur. O qeyd etmişdir ki, münaqişələr bu icmalar arasında dialoq qurmaqla aradan qaldırıla bilər. Rumıniyanın sabiq Prezidenti vurğulamışdır ki, icmalar arasında dialoq, ümumiyyətlə, münaqişələrin yaranmasının da qarşısını ala bilər. Cəmiyyətin təhlükəsizlik modelinin əsasında qarşılıqlı hörmət, tolerantlıq dayanır.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç qeyd etmişdir ki, hazırda dünyada ərazi bütövlüyü əsasında bir çox münaqişələr mövcuddur. O demişdir ki, belə münaqişələrin səbəbləri siyasi maraqlar və tarixi hadisələrlə bağlı olur. Boris Tadiç Serbiyanın keçdiyi müharibələrdən danışmışdır. O bildirmişdir ki, hər bir münaqişə özlüyündə nadirdir və düşünülmüş yanaşma tələb edir. Siyasi gərginliyə yol verməmək üçün bütün aspektlər nəzərə alınmalıdır.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Madrid Klubunun prezidenti Vayra Vike-Freyberqa bildirmişdir ki, hazırda dünya qarşısında duran əsas məsələ 2015-ci ildən sonra insanlığın daha nə ilə üzləşəcəyini əvvəlcədən proqnozlaşdırmağa çalışmaqdır. İqtisadi yüksəlişin əsasında cəmiyyətdə insanların təhlükəsizliyinin artırılması durur. Yalnız belə olduqda insanlarda yaradıcılığa meyl yüksəlir, biznes üçün əlverişli şərait yaranır.

Sessiya iştirakçıların mövzu ilə bağlı müzakirələri ilə başa çatmışdır. ■

Yaponiyanın xarici işlər nazirinin parlament məsələləri üzrə müavini Bakı Dövlət Universitetində olmuşdur

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Yaponiyanın xarici işlər nazirinin parlament məsələləri üzrə müavini Takao Makino Bakı Dövlət Universitetində (BDU) olmuşdur.

Görüşdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov rəhbərlik etdiyi ali məktəb, onun beynəlxalq əlaqələri, Yaponiya universitetləri ilə əməkdaşlığı barədə məlumat vermişdir. BDU-nun şərqşünaslıq fakültəsinin Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının yaponşünaslıq ixtisası haqqında danışan rektor bu təhsil müəssisəsində Yapon dili və ədəbiyyatı ixtisasının 2000-2001-ci tədris ilində açıldığını qeyd etmişdir.

Sonra qonaqlar universitetin fəaliyyəti ilə tanış olmuş, Yapon dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan tələbələrlə görüşmüşlər.

Görüşdə eyni zamanda Yaponiyanın ölkəmizdəki səfiri Tsuquo Takahaşi, Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə və Yaponiyanın müvafiq qurumlarının rəhbərləri və nümayəndələri iştirak etmişlər. ■

Dövlət İdarəçilik Akademiyasında Latviyanın sabiq prezidenti, Madrid klubunun üzvü və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayre Vike-Freyberqa ilə görüş keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Latviyanın sabiq prezidenti, Madrid klubunun üzvü və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri xanım Vayre Vike-Freyberqa ilə görüş keçirilmişdir.

DİA-dan bildirmişlər ki, görüşdə akademiyanın professor-müəllim heyətinin nümayəndələri, burada bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan tələbələr iştirak etmişlər.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov qonağı salamlamış, dinləyicilərə xanım Vayre Vike-Freyberqanın Latviya Respublikasının 6-cı prezidenti kimi səkkizillik fəaliyyəti ərzində (1999-2007) ölkəsinin yüksəl inkişafa nail olmasından, bu gün də beynəlxalq siyasətdə xüsusi fəallığı ilə seçilən, BMT-nin baş katibinin xüsusi elçisi olduğunu bildirmişdir. O, görüşün əsas məqsədinin "Səmərəli dövlət idarəçiliyi" mövzusuna həsr olunduğunu diqqətə çatdırmışdır.

Rektor U.Ələkbərov Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən son illərdə aparılan səmərəli islahatların və həyata keçirilən tədbirlərin ölkəmizdə səmərəli dövlət idarəçiliyinin inkişaf etdirilməsini, dövlətin idarə edilməsində biliyə əsaslanan cəmiyyətin qurulması istiqamətində həyata keçirilən siyasəti, beynəlxalq təşkilatların qəbul etdiyi statistik faktları əyani vasitələrlə qonağın diqqətinə çatdırmışdır.

Rektor ölkəmizin nail olduğu yüksək inkişaf tempi, beynəlxalq arenada əldə edilən nailiyyətlər, elm və humanitar sahədə qazanılan uğurlar haqqında məlumat vermiş, davamlı inkişaf strategiyasının tələblərinə cavab verən insan potensialının formalaşması, respublikamızın zəngin təbii ehtiyatlarından olan "qara qızıl"ın insan kapitalına çevrilməsi, bu sərvətin formalaşdırılması və idarə edilməsinin əsasında elm və təhsilin dayandığını bildirmişdir. O, ölkəmizdə sağlam və yüksək bilik və bacarığa malik olan yeni nəslin formalaşmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu xatırlatmışdır.

Daha sonra rektor DİA-da belə görüşlərin keçirilməsinin elmi potensialın səviyyəsinin yüksəlməsinə müsbət təsir etdiyini xüsusi vurğulamışdır.

Xanım Vayre Vike-Freyberqa öz növbəsində görüş iştirakçılarını salamlamış və onların qarşısında "Səmərəli idarəçilik" mövzusunda mühazirə ilə çıxış etmişdir. O, dövlət idarəçiliyinin yeni paradiqması kimi səmərəli idarəçiliyin mahiyyətini şərh etmiş, Avropa və dünya miqyasında bu prinsiplərin tətbiqi sahəsində görülən və görülməli olan işlərə dair öz baxışlarını izah etmişdir. Eks-prezident dünyanın bir sıra ölkələrində hələ də dövlət idarəçiliyinin islahatları ilə bağlı ciddi problemlərin olduğunu və bunun beynəlxalq təhlükəsizlik, davamlı inkişaf yolunda ciddi maneə törətdiyini qeyd etmişdir.

Səmərəli idarəçilik prinsiplərinin tətbiqi istiqamətində Azərbaycan Respublikasının əldə etdiyi müsbət nəticələrin beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyini, beynəlxalq arenada ölkəmizin nüfuzunun durmadan artdığını xüsusi qeyd edən xanım Vayre Vike-Freyberqa belə bir fikri xüsusi vurğulamışdır ki, səmərəli idarəçilik üçün iki mühüm şərt vardır: birincisi, güclü siyasi liderin, ikincisi, bu iradənin reallaşmasını təmin edə biləcək səmərəli idarəçilik sisteminin olması. Onun fikrincə, Azərbaycanda bu şərtlərin hər ikisi mövcuddur və bu da ölkənin gələcək uğurlarının təminatçısıdır.

Sonda xanım Vayre Vike-Freyberqa dinləyicilərin çoxsaylı suallarını cavablandırmışdır. ■

Binəqədi rayonunda akademik Zərifə Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilmişdir

Aprel ayının 28-də Binəqədi rayonunda görkəmli oftalmoloq alim, Azərbaycan tibb elminə misilsiz töhfələr bəxş etmiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları Madər Musayev, Rafael Cəbrayılov, Məlahət İbrahim qızı, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Nurlana Əliyeva, rayonun idarə, müəssisə və icra strukturlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları ilk öncə əsl Azərbaycan qadını üçün örnək sayılan Zərifə xanımın adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər çiçəklər düzmüş, görkəmli alimin əziz xatirəsinə dərin ehtiramlarını bildirmişlər.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov çıxışında insanlara nur bəxş etmək missiyası, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanmış Zərifə xanım Əliyevanın mənalı və şərəfli ömür yolundan danışmış, onu istər elmi fəaliyyətində qazandığı uğurlar, istərsə də öz fərdi keyfiyyətləri ilə ailəsinin və vətəninin adını ucaldan şəxsiyyət kimi səciyyələndirmişdir. Natiq XX əsr Azərbaycan elminin böyük simalarından olan Z.Əliyevanın həm də öz vəzifəsini şərəflə yerinə yetirən ana olduğunu bildirərək, ölkəmizə müstəqil Azərbaycanın tərəqqi zirvələrini fəth etməsində qazandığı uğurların təminatçısı olan möhtərəm Prezidentimiz cənab İlham Əliyev kimi lider bəxş etdiyini vurğulamışdır.

Millət vəkili Məlahət İbrahim qızı çıxışında Z.Əliyevanı peşəkar həkim olmaqla yanaşı, həm də fəal ictimai xadim kimi xarakterizə etmişdir. O həkim peşəsini vicdanla yerinə yetirən oftalmoloq alimi insanların sağlamlığının qorunmasında, xəstəliklərin qarşısının alınmasında göstərdiyi səylərə toxunaraq onu öz həmvətənlərinin qayğısına qalan humanist insan olduğunu diqqətə çatdırmışdır. Zərifə xanımın bütün insani keyfiyyətləri ilə əsl Azərbaycan qadınının ideal obrazını yaratdığını qeyd etmişdir.

YAP qadınlar şurasının sədri Nurlana Əliyeva çıxışında Zərifə xanımı ictimai fəallığı ilə həkim peşəkarlığını özündə birləşdirən və bu xüsusiyyətləri ilə xalqına xidmət göstərən ictimai xadim kimi səciyyələndirmişdir.

Daha sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva çıxışında tanınmış həkim, novator alim, eyni zamanda qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanımın əziz xatirəsinin daim qəlblərdə yaşadığını və nəcib keyfiyyətlərinin könüllərdə ona əbədiyaşarlıq qazandırdığını qeyd etmişdir.

Tədbirdə xalq artisti Samir Cəfərovun ifasında səslənən musiqi parçaları mərasimi daha təsirli və yaddaqalan etmişdir.

Sonda qonaqlar Zərifə Əliyeva adına parkda təşkil edilən foto sərgi ilə tanış olmuşlar.

Ramiz YUSİFLİ,
"Respublika".

Dövlət Miqrasiya Xidmətində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Dövlət Miqrasiya Xidmətində (DMX) görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə tədbir keçirilmişdir.

DMX-nın mətbuat xidmətindən bildirmişlər ki, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anmış, məzarı üzərinə tər çiçəklər düzmüşlər.

Sonra mərasim Dövlət Miqrasiya Xidmətində davam etdirilmişdir.

Tədbirdə Xidmət rəisinin müavini Pərviz Musayev çıxış edərək görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın mənalı ömür yolundan danışmışdır. Zərifə xanım Əliyevanın yüksək insani keyfiyyətləri, sadəliyi, səmimiliyi, neçə-neçə insanın gözünə nur bəxş etdiyi, oftalmologiya elminə verdiyi töhfələri xatırlanmışdır. Ümummilli lider Heydər Əliyevin ömürgün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı kimi Azərbaycan cəmiyyətində tutduğu nümunəvi mövqeyi diqqətə çatdırılmışdır.

DMX-nin idarə rəisi Vəfa Əsədovanın görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən bəhs edən məruzəsi böyük maraqla dinlənilmişdir.

Xidmətin tibb müəssisəsinin rəisi Nigar Hüseynova "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir", - deyən Zərifə xanım Əliyevanın xatirəsinin hər bir tibb işçisi tərəfindən əziz tutulduğunu qeyd etmişdir.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı çoxsaylı titullarına baxmayaraq, Zərifə xanım Əliyevanın sadəliyi, səmimiliyi ilə insanların rəğbətini qazandığı və Azərbaycan qadınının örnəyi və parlaq nümayəndəsi olduğunu bildirmişdir. Görkəmli oftalmoloq alimin mükafatlarını xatırladan natiq bu adlar sırasında ən şərəflisinin böyük insan, qayğıkeş ana adı olduğunu vurğulamışdır.

Sonda tədbir iştirakçıları kinorejissor Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə baxmışlar. ■

Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə Bakıda "Oftalmologiyanın problemləri və son nailiyyətləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "Oftalmologiyanın problemləri və son nailiyyətləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.

Görkəmli oftalmoloq alim Zərifə Əliyevanın adını daşıyan Milli Oftalmologiya Mərkəzində keçirilən konfransda Azərbaycanın tibb ictimaiyyətinin tanınmış nümayəndələri, eləcə də Rusiya Federasiyasının tanınmış tibb mütəxəssisləri iştirak etmişlər.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə güllər düzülmüşdür.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə əklil qoymuşlar.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində keçirilən tədbirdə görkəmli alimin mənalı ömür yolundan və elmi fəaliyyətindən danışılmışdır.

Konfransın açılışında çıxış edən mərkəzin direktoru, Səhiyyə Nazirliyinin baş oftalmoloqu Elmar Qasımov bildirmişdir ki, tibb elmində böyük xidmətləri olan görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva Azərbaycanın XX əsrdə ən tanınmış alimlərindən və şəxsiyyətlərindən biridir. Alimin Azərbaycanda oftalmologiya elminin inkişafında və dünyada tanıdılmasında müstəsna xidmətləri vardır. Bu səbəbdən də hər il unudulmaz alimin anadan olmasının ildönümü münasibətilə konfrans və digər tədbirlərin keçirilməsi ənənə halını almışdır. Bu isə xeyirxahlıq mücəsməsi, bütün ömrü boyu insanlara nur və xoşbəxtlik bəxş etmiş Zərifə xanım Əliyevaya xalqımızın dərin hörmətinin ifadəsidir.

Böyük elmi əsərləri ilə Azərbaycan oftalmologiya elmini yüksəklərə qaldıran görkəmli alimin əvəzsiz xidmətlərini xüsusi qeyd edən mərkəzin direktoru demişdir ki, o, ötən əsrin 40-50-ci illərində Azərbaycanın cənub rayonlarında əhali arasında geniş yayılmış traxoma xəstəliyinə qarşı aparılan bütün mübarizə tədbirlərində fəallıq göstərmişdir. Bu böyük praktiki iş Zərifə xanım Əliyevanın bir sıra elmi əsərlərinin əsasını yaratmışdır. Sonralar böyük alim sənaye müəssisələri işçilərində görmə üzvünün peşə zərərləri təsiri nəticəsində zədələnmələrinin öyrənilməsi ilə ciddi məşğul olmuşdur. Bu tədqiqatlar nəticəsində 1976-cı ildə Zərifə xanım Əliyevaya "Azərbaycanda kimya sənayesinin bəzi müəssisələrində işçilərin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Peşə xəstəlikləri ilə bağlı elmi axtarışlarına görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Diqqətə çatdırılmışdır ki, Zərifə xanım Əliyeva peşə patologiyası problemləri ilə yanaşı, oftalmologiyanın digər aktual istiqamətlərində də tədqiqatlar aparmışdır. Görkəmli alimin 200-dək elmi işi, 14 monoqrafiyası, 12 səmərələşdirici təklifi bu gün də aktuallığını qoruyub saxlayır.

E.Qasımov məlumat vermişdir ki, 2013-cü il ərzində Milli Oftalmologiya Mərkəzinə 108 min 25 xəstə daxil olmuş, onlardan 8 min 573 nəfər stasionardan keçmişdir. Mərkəzin Masallı filialında qəbul edilmiş 6 minədək xəstədən 2 minə yaxını əməliyyat olunmuşdur. Mərkəzin Səyyar klinikası isə regionlarda 2 min 500 xəstəyə baxış keçirmiş və onlardan 200 nəfəri əməliyyat edilmişdir. "Son onilliklərdə oftalmologiya dinamik inkişafda olan tibb sahələrindən biridir. Biz həm diaqnostika metodlarının sürətlə təkmilləşməsi, həm də yeni cərrahi və farmakoloji müalicə vasitələrinin oftalmoloji praktikaya tətbiqinin şahidiyik. Bu tərəqqi ilə ayaqlaşmaq üçün oftalmologiya sahəsində nəşr edilən tibbi dərsliklərin, həkimlər üçün vəsaitlərin hər 5-6 ildə yenilənməsinə ehtiyac var", - deyə mərkəzin direktoru bildirmişdir.

Tədbirdə akademik Zərifə Əliyevanın tələbələri görkəmli alimin Azərbaycan oftalmologiya elminin inkişafında gördüyü işlərdən danışmış və müəllimləri ilə bağlı xatirələrini bölüşmüşlər.

Konfransda rusiyalı alim İqor Karnelovskiy və digər qonaqlar çıxış edərək bütün mənalı ömrünü oftalmologiya elminin inkişafına həsr etmiş Zərifə xanım Əliyevanın zəngin elmi irsindən və yüksək insani keyfiyyətlərindən danışmışlar.

Çıxışlarda belə bir fikir vurğulanmışdır ki, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyeva ulu öndər Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı olmuşdur. Onun xidmətlərindən biri də budur ki, Azərbaycana Prezident İlham Əliyev kimi lider bəxş etmişdir.

Akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Göz xəstəlikləri" kitabı tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Konfransın elmi hissəsi mövzuya dair məruzələrlə davam etdirilmişdir. ■

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümünəhəsr olunmuş konfrans

Aprel ayının 28-də Sumqayıt Dövlət Universitetində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirildi.

Konfransı giriş sözü ilə açaraq universitetin rektoru Elxan Hüseynov görkəmli alimin mənalı ömür yolu və oftalmologiya sahəsindəki əvəzsiz xidmətlərini xarakterizə etdi.

O bildirdi ki, bütün zamanlarda milli dövlətçilik tariximizə adı qızıl hərflərlə yazılan bir dahi şəxsiyyət də var ki, onun ocağında dünyaya gələn övladların hər biri milli-mənəvi dəyərlərimizə xidmətdə bulunur. Bu, Azərbaycanın görkəmli həkim-alimlərindən, dövlət xadimlərindən biri professor Əziz Əliyevdir.

Naxçıvan Muxtar Respublikasının Şərur mahalının Şahtaxtı kəndində, bu qüdrətli şəxsiyyətin ocağında 1923-cü il aprelin 28-də dünyaya gələn Zərifə Əliyeva zamanının qüdrətli xatunlarından, ictimai xadimlərindən birinə çevrildi.

Zərifə Əliyeva 1942-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil oldu. Oranı bitirdikdən sonra Moskvada oftalmologiya üzrə Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun ixtisaslaşma kursunu keçdi.

1949-cu ildən başlayaraq 18 il Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda həkim-ordinatordan böyük elmi işçi vəzifəsinədək yol gəldi. 1950-1953-cü illərdə aspiranturada təhsil alan Zərifə xanım, 1960-cı ildə "Traxoma xəstəliyinin sintomisin və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etdi.

1976-cı ildə Q.Helmhols adına Moskva Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru dərəcəsinə layiq görülmüşdür. Zərifə xanım Əliyeva 1977-ci ildə müsabiqə yolu ilə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru seçilmiş, 5 il sonra isə kafedranın müdiri kimi fəaliyyətini davam etdirmişdir. O SSRİ sülhü müdafiə komitəsinin üzvü, Azərbaycan sülhü müdafiə komitəsinin sədrinin müavini, "Bilik" cəmiyyəti idarə heyətinin üzvü idi.

Zərifə xanım Əliyeva dünya miqyaslı, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin ömür-gün yoldaşı, ən yaxın dostu, mənəvi dayağı olmuşdur. Zərifə xanım Əliyeva bütün varlığı ilə ailəsini, övladlarını sevən həyat yoldaşı və ana idi.

Xeyirxah əməlləri ilə yaddaşlarda yaşayan Zərifə xanımın məmləkətimizin hər guşəsində heykəlləri ucalır. Ən böyük heykəli, ən müqəddəs abidəni isə o, özü yapmışdı. Onun adı İnsan sevgisi, Xalq məhəbbətidir.

Təəssüf ki, Zərifə xanımın ömrü qısa oldu. O,1985-ci ildə ömrünün 62-ci baharında Moskvada dünyasını dəyişdi.

Çıxış üçün söz alan tarix fakültəsinin dekanı, professor Adil Baxşəliyev Zərifə xanım Əliyevanın həyat yolundan və zəngin peşə fəaliyyətindən bəhs edərək alimin bütün ömrünü, elmi və pedaqoji fəaliyyətini, oftalmologiyanın çoxşaxəli problemlərinə həsr edərək gənc həkimlərin, oftalmoloq alimlərin yetişməsində də xüsusi xidmətləri olduğunu bildirdi. Adı ilə bağlı Məktəb yaradan Zərifə xanım Əliyeva 1983-cü ildə SSRİ Elmlər Akademiyasının həqiqi üzvü seçildi. "Əmək veteranı" medalına, "Qırmızı Əmək Bayrağı" ordeninə və Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görüldü.

Tibbi hazırlıq və mülki müdafiə kafedrasının baş müəllimi İlhamə Şammədova Zərifə xanım Əliyevanın peşə fəaliyyəti haqqında söhbət açaraq vurğuladı ki, Zərifə xanımın təklifi ilə 1979-cu ildə AMEA-nın A.Qarayev adına Fiziologiya İnstitutunda görmə üzvünün patologiyası və fiziologiyası laboratoriyası yaradılır. "Şin istehsalatında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası" kimi kitab və monoqrafiyaları Azərbaycandan kənarda da yüksək qiymətləndirilir. Bu səbəbdən də 1981-ci ildə Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafata layiq görülür. Oftalmologiya tarixində ilk qadın alim kimi bu mükafata layiq görülən Zərifə xanım sonrakı fəaliyyətini yaşlı adamlarda görmə qabiliyyətinin zəifləməsinə səbəb olan katarakta xəstəliyinin cərrahi üsulla müalicəsinin təkmilləşməsinə həsr edir. Görkəmli alimləri, cavan oftalmoloqları işə cəlb etməklə, öz elmi məktəbini formalaşdırır. Bakı Məişət Kondisionerləri zavodunda gözün peşə patologiyasının unikal laboratoriyasının təməlini qoyan Zərifə xanım burada klinik, funksional-diaqnostika şöbələrlə yanaşı, dünyada yeganə olan istehsalatda cərrahiyyə şöbəsini yaradır.

Tədbirdə görkəmli oftalmoloq alim, Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini özündə əks etdirən sənədli film nümayiş etdirildi.

SDU-nun Mətbuat xidməti.

Etibarlı yol bələdçisi

Caspian NavTel şirkəti nəqliyyatın hərəkətinin tənzimlənməsində öz fəaliyyətini genişləndirir

Hara aparır bizi bu yollar?! Uzandıqca uzanan, sonu bəlli olmayan uzun, dolanbac, enişli-yoxuşlu yollar. Bəzən insan zamanı qabaqlayıb arzularına, mənzil başına tez çatmağa tələsir, bu uzun ömür, tale yolunda bələdçi axtarır özünə. Doğrudanmı ömrünün çox hissəsini yolda keçirir insan? Və hər zaman ona yol göstərən, bələdçilik edən birinə ehtiyac duyur?!

Bəs gündəlik həyatımızda necə? Hər gün hər bizimizi işə, dərsə, evə...aparan yollarda bələdçiyə ehtiyacımız varmı? Sözsüz ki, var...

2007-ci ildə Zaqafqaziya və Azərbaycanda ilk dəfə olaraq Bakıda yaranan Caspian NavTel-igid bələdçi şirkəti də ölkə daxilində bütün yollarda – əsas, magistral və məhəllə içi yollarda hər bir insana sözün əsl mənasında yol yoldaşı olur, ona bələdçilik edir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin lisenziyası əsasında fəaliyyət göstərən şirkət öz işini əsasən avtomobillərin və personalların distansion nəzarəti, naviqasiya sistemi və naviqatorların satışı, rəqəmsal xəritələrin yaradılması və inkişafı istiqamətində qurub. Bu günlərdə şirkətin rəhbəri Ceyhun Abdullayevlə görüşüb şirkət haqqında məlumat verməsini xahiş etdik.

Qısaca tanışlıq üçün deyək ki, Ceyhun Abdullayev ixtisasca iqtisadçıdır. Uzun illər dövlət strukturlarında müxtəlif vəzifələrdə çalışıb. Həmçinin nəqliyyat nazirliyində təhlükəsizlik şöbəsinin rəisi, sonralar Bakı şəhər nəqliyyat idarəsinin rəisi vəzifələrində işləyib. 2007-ci ildən isə Caspian NavTel-igid bələdçi şirkətinə rəhbərlik edir.

Bizimlə söhbət zamanı şirkət haqqında ətraflı danışaraq o dedi: "Biz Caspian NavTel-igid bələdçi şirkəti olaraq artıq 7 ilə yaxındır ki, fəaliyyət göstəririk. Şirkətin işini günün tələbinə əsasən qurmuşuq. Hamıya bəllidir ki, sürətli və dinamik inkişaf yolunda olan Azərbaycan hazırda regionun qüdrətli dövlətlərindən birinə çevrilib. Bu gün hər bir sahədə olduğu kimi, yol infrastrukturunda da köklü dəyişikliklər, islahatlar aparılır. Ölkəmizdə bütün sahələrdə əldə edilən uğurların təməlində ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan xarici və daxili siyasət dayanır. Onun hakimiyyətə təkrar qayıdışı digər sahələrdə olduğu kimi, nəqliyyat-yol sektorunda da tənəzzülə son qoydu. Şəhərimiz gündən-günə böyüyür, gözəlləşir, yollarda təmir işləri aparılır, küçələrin adları dəyişdirilir, körpülər salınır, istiqamətlər yenilənir. Digər bir tərəfdən isə artıq Azərbaycana maraq bütün dünyada artıb. Ölkəmizə iş adamları, xarici investorlarla yanaşı, həm də şəhərimizi gəzməyə, görməyə gələn insanların sayı da günü-gündən artır. Bu insanlara böyüyən, dəyişən şəhərimizdə istədikləri ünvana çatmaqda yardımçı olmaq, onlara şəhəri tanıtmaq vacib məsələlərdən biridir. Onu da deyim ki, elə şəhər əhalisinin əksəriyyəti də bu sahədə çətin-

liklərlə rastlaşır. Şirkətimiz məhz bu məqamda insanların ən yaxın köməkçisinə çevrilir. Belə ki, fəaliyyətimizə ilk olaraq Azərbaycanın xəritəsini işləməklə başladıq. Hazırda tərtib etdiyimiz xəritədə 80-100 minə yaxın nöqtə (poy) qeydə alınıb ki, bu da şəhər və regionlarımızın, demək olar ki, bütün ərazilərini əhatə edir. Rəqəmsal xəritə proqramlaşdırılaraq xarici ölkələrdən gətirdiyimiz naviqatorlara yerləşdirilir. Nəzərə alsaq ki, hər gün şəhərin yollarında 500-700 minə yaxın avtomobil hərəkət edir və bu avtomobillərin heç olmasa yarısında bu cihazlardan quraşdırılıb, onda yaratdığımız sistemin nə qədər vacib və zəruri olduğunu deməyə ehtiyac qalmır. Sevindirici haldır ki, artıq 189 taksi və "Baku taxi" (London taksiləri) xəttləri tamamilə bizim şirkətlə əlaqəli işləyir. Belə ki, bu xəttin avtomobillərinin hər birində CNT-naviqatorlar birləşdirilib. İstifadəçilərimizə isə partnyorumuz City Guide şirkəti tərəfindən proqram təminatı verilir və naviqatorlardan istifadə qaydaları öyrədilir. Bunun üçün şirkətimizdə pulsuz kurslar təşkil olunub. Mütəxəssislərimiz isə mütəmadi olaraq xarici ölkələrdə keçirilən texnologiya sərgilərində iştirak edir, seminarlar keçirlər. Onu da qeyd edim ki, naviqasiya sistemimizi təkcə avtomobillərdə deyil, eyni zamanda Android, IOS, Windows Mobile, Symbian S60 ed.3 və Symbian S60 ed.5 əməliyyat sistemli mobil telefonlara da daxil etmək mümkündür. Demək olar ki, hər kəs bizim naviqasiya sistemimizdən istifadə edərək rahatlığını təmin edə bilər. Bu sistemin ictimai nəqliyyatda da istifadə olunması üçün dəfələrlə Nəqliyyat Nazirliyinə müraciət etmişik. Hələ ki, müsbət cavab ala bilməmi-

şik. Əgər yerli şirkət olaraq biz mövcud problemin həllində öz təklifimizi veririksə, məncə xarici şirkətlərə daha ehtiyac qalmır. Çünki biz öz problemlərimizi və onun həlli yollarını hər hansı bir xarici vətəndaş və ya şirkətdən daha yaxşı bilirik. Ən əsası isə bu, dövlətə daha ucuz qiymətə başa gələr.

Şirkətin hərtərəfli fəaliyyətindən bəhs edən Ceyhun Abdullayev nəqliyyat sahəsindəki digər bir problemdən – insanları daha çox narahat edən tıxaclarla bağlı şirkətdə görülən işlərdən də danışdı: "Tıxaclar bu gün çox aktual mövzulardan biridir. Bu gün az bir insan tapılar ki, işdən evə, evdən işə tələsəndə tıxac problemi ilə üzləşməsin. Sözsüz ki, mən sürücülərdən danışıram. Tıxaclar üzündən insanlar çox dəyərli olan vaxtını və ya sağlamlığını itirir. Məsuliyyətlə deyə bilərəm ki, bu gün baş verən yol hadisələrinin, qəzaların çoxu da elə bu tıxaclardan qaynaqlanır. Şirkətimiz bu problemin həllində də köməyini və xidmətini göstərir. Belə ki, artıq 2013-cü ildən etibarən Caspian NavTel-igid bələdçi şirkəti "Tıxac.az" saytını sakinlərin istifadəsinə verib. Sayt vasitəsilə əhali tıxaclar və yollardakı ümumi vəziyyət barədə online şəkildə pulsuz olaraq məlumat əldə edə bilirlər.

Caspian NavTel-igid bələdçi şirkəti eyni zamanda şəhərimizdə fəaliyyət göstərən şirkət və müəssisələrə müqavilə əsasında onların istifadəsində olan nəqliyyat vasitələrinin – yük maşınlarının, avtomobillərin, gəmilərin və s. tez və asanlıqla izlənməsi üçün naviqasiya sistemi də quraşdırır. Qeyd edək ki, CNT-nin idarəetmə sistemi beynəlxalq keyfiyyət İSO 9001:2008 standartına uyğun fəaliyyət göstərir və 2009-cu ildə Uğur Milli Mükafatına layiq görülüb.

Hər bir insan yaşından, vəzifəsindən asılı olmayaraq nəqliyyatın hər hansı bir növündən mütləq istifadə edir. Bu, reallıqdır. Deməli, bu problem hər birimizin həm də şəxsi problemidir. Gəlin, hər birimizin, eləcə də, hamımızın ümumi problemi olan bu problemin həllinə öz köməyimizi göstərək: maariflənək, müasir texnologiyalardan istifadə etməyi bacaraq. Bunu bizdən yaşadığımız dövr, zaman tələb edir.

Hər kəsin fərdi bələdçisi olan şirkət artıq 7 ilə yaxındır ki, vaxta qənaət, rahatlığa zəmanət devizi ilə yola çıxıb: uzun, dolanbac, enişli-yoxuşlu bir yola. Yollar yormasın sizi!

Mehparə ƏLİYEVA,
"Respublika".

"Azərpoçt" MMC-də tədbir

Bu günlərdə "Azərpoçt" MMC-də Ümümdünya Poçt İttifaqının xətti, Rabitə və Yüksək Texnologiyalar və Təhsil Nazirliyinin təşkilatçılığı ilə növbəti inşa müsabiqəsi keçirilmişdir. Müsabiqənin qaliblərinin mükafatlandırılmasına həsr olunmuş tədbiri giriş sözü ilə "Azərpoçt" MMC-nin baş direktorunun müvafini Sübhan Kazımov açdı.

O, çıxışında qeyd etdi ki, bu müsabiqə ÜPİ tərəfindən 43-cü dəfədir ki keçirilir.

Azərbaycan Poçt Müdiriyyəti isə bu müsabiqədə 2001-ci ildən iştirak edir. Azərbaycan poçtu bu gün öz inkişafına görə öncül yerdədir və dünyanın bir çox inkişaf etmiş poçt dövlətlərilə ikitərəfli qaydada sıx əməkdaşlıq edir.

Müsabiqənin hər il ümummilli liderimiz Heydər Əliyevin doğum günü ərəfəsində keçirilməsi təsadüfi deyil. Çünki rabitə sektorunda əldə olunan bütün uğurlar böyük öndərimizin adı, fəaliyyəti ilə sıx bağlıdır və Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkə rabitəsinin inkişafını prioritet elan edərək bu kursu uğurla davam etdirir. Son illər rabitə və yüksək texnologiyalar naziri, akademik Əli Abbasovun rəhbərliyi ilə ölkə rabitə sistemində böyük uğurlara imza atılır, genişmiqyaslı islahatlar aparılır.

Natiq çıxışında vurğuladı ki, Azərbaycan poçtutunun beynəlxalq aləmdə nüfuzu ildən-ilə yüksəlir. Təsadüfi deyil ki, Azərbaycan poçtu son illər ÜPİ-nin A səviyyəli sertifikatına layiq görülür. Ölkə poçtunda zamanın tələbindən irəli gələn yeni xidmətlər elektron imza, elektron bank və s. xidmətlər göstərilir. Poçtumuz "Vestern Union", "Zolotoya Korona" sisteminə qoşulub, 2005-ci ildən bank müəssisəsi kimi fəaliyyət göstərir.

Sübhan Kazımov qeyd etdi ki, "Azərpoçt" MMC və Təhsil Nazirliyi ÜPİ-nin xətti ilə 2013-2014-cü illər üzrə ölkəmizin məktəbliləri arasında inşa müsabiqəsi təşkil etmişdir və biz bu gün qaliblərin mükafatlandırılması mərasiminə toplaşmışıq. Bununla əlaqədar 3 (üç) mövzu ilə inşa müsabiqəsinə start verilmiş və müsabiqə uğurla başa çatmışdır. Builki müsabiqəyə əvvəlki illərdəkindən xeyli çox, 45660 inşa yazısı daxil olmuşdur. Həmin inşa yazıları Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən yoxlanaraq 30 nəfər qalib "yaxşıların yaxşısı" seçilmişdir.

Sonra çıxış edən "Azərpoçt" MMC-nin poçt əməliyyatları şöbəsinin əməkdaşı İlhamə Kərimova da qaliblərə ürəkdən təbrik etdi, əvvəlcə I yerin qaliblərinin mükafatlandırılmasına başlanıldı. Onlardan İsayeva Səbinə Bakı şəhəri, 193 saylı məktəbin VII sinif şagirdi (Mövzu üzrə inşası ÜPİ-yə göndərilmiş şagird I yer)—Dünyamalıyeva Aynur—Sabunçu rayonu, 215 saylı məktəbin XI sinif şagirdi, Hüseynli Fatimə—Ağstafa rayonu, 2 saylı orta məktəbin VIIIb sinif şagirdi.

II yerin qalibləri: Ağarzayeva Sona—Şabran rayonu, 1 saylı məktəbin V sinif şagirdi. Cümşüdlü Sevinc—Qaratel Həsənova—Sumqayıt şəhəri, Zümrüd Salahova—Qusar rayonu və digərləri.

III yer — Aslanova Bəyim—Bakı şəhəri, Həmidə Həmidova —Astara rayonu, Gülnar Yoldaşova—Zaqatala rayonu və s.

IV yer—Osmanlı İkram — Beyləqan şəhəri, Nürbəyim Ağayeva—Şirvan şəhəri, Nurlan Şahverdiyev —Masallı rayonu, Vahabzadə Aytac—Ağdaş şəhəri və s.

Tədbirin sonunda qalib şagirdlərin müəllimləri, valideynlər uşaqlara yaradılan bu şəraitə və gözəl tədbirə görə əməyi keçən hər bir kəsə dərin minnətdarlıq etdilər. Çıxışçılardan Şabran rayonundan 2-ci (ikinci) yerin qalibi Sona Ağarzayevanın valideyni, Şabran şəhər 3 saylı məktəbin direktoru Fidan Fərzəliyeva da yüksək səviyyədə təşkil olunmuş bu müsabiqəyə görə "Azərpoçt" MMC-nin rəhbərliyinə, baş direktor Qəmbər Bəybalayevə valideynlər adından öz minnətdarlığını bildirdi.

Əli SADIQOV,
"Respublika".

Sənaye və Ticarət Palatasında biznes-təqdimat keçirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının təşkilatçılığı və Rusiyanın iri müəssisələrindən olan "Kranovıye Texnoloqii" şirkətlər qrupunun nümayəndə heyətinin iştirakı ilə biznes-təqdimat keçirilmişdir.

Sənaye və Ticarət Palatasının mətbuat xidmətindən bildirmişlər ki, tədbirdə Azərbaycandakı yerli dövlət və özəl qurumlarla qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Təqdimatda Azərbaycanın 20-dən artıq dövlət və özəl qurumların nümayəndələri iştirak etmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın əhəmiyyətini vurğulamışlar.

Qeyd edilmişdir ki, son illərdə Azərbaycanda müşahidə olunan dinamik inkişaf, ölkəmizin hər sahədə uğur və nailiyyətləri, əlverişli biznes mühiti dünyanın bir çox ölkələrindən sahibkarları Azərbaycana cəlb edir.

Tədbirdə Rusiya şirkətinin nümayəndələri öz layihələrinin təqdimatını keçirmişlər.

Sonda tərəflər arasında müzakirələr aparılmış, təkliflər səsləndirilmişdir. ■

Ulu öndər Heydər Əliyevin irsi öyrənilir

Goranboy rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən məşğələlərdə rayon məktəblərinin XI sinif şagirdləri iştirak edirlər. Məşğələlərdə müstəqil Azərbaycan Respublikasının tarixi, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycanda bazar iqtisadiyyatına keçid, milli neft strategiyası, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsində Heydər Əliyevin rolu, dövlət quruculuğu sahəsində ulu öndərin genişmiqyaslı gərgin fəaliyyəti, ölkədə siyasi sabitliyin və iqtisadi dirçəlişin yaranması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə artması, həyata keçirilən sosial-iqtisadi

layihələr barədə mövzular tədris olunur.

Məşğələlər müəyyənləşmiş müddət ərzində müvafiq qrafik üzrə iki dəfə keçirilir və hər məşğələyə iki akademik saat ayrılır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31 yanvar 2014-cü il tarixli məktubuna əsasən tərtib edilmiş mövzuların şagirdlərə sistemli çatdırılması ilə bağlı müəllimlərə köməklik məqsədilə hər mövzu üzrə tezislər və bütövlükdə bu prosesin səmərəli tənzimlənməsinə dair tövsiyələr verilmişdir. Dərsləri yüksək səviyyədə tədris etmək üçün peşəkarlığı, elmi-nəzəri, metodiki hazırlığı ilə fərqlənən nüfuzlu, qabaqcıl 12 nəfər tarix müəllimi seçilmiş və bu dərslərin təşkilinin məqsəd və mahiyyəti onlara ətraflı izah olunmuşdur. Məşğələlərdə hər dəfə 50 nəfər şagird iştirak edir. Kənd məktəblərindən şagirdlərin gətirilib aparılması məktəb direktorlarına həvalə edilib. Rayon təhsil şöbəsinin və məktəblərin nümayəndələri məşğələ müddətində şagirdlərin davamiyyətinə ciddi nəzarət edir, məsul işçilərdən ibarət növbətçilik təşkil olunub.

Heydər Əliyev Mərkəzində fevral ayı ərzində rayonun 34 ümumtəhsil məktəbindən 750 nəfər, mart ayı ərzində 27 ümumtəhsil məktəbindən 436 nəfər, aprel ayının keçən müddətində isə 12 ümumtəhsil məktəbindən 259 nəfər şagird məşğələlərdə iştirak etmişdir.

Əminə RƏHİMOVA,
"Respublika".

Nəsimi rayonunda Çernobıl qəzası ilə bağlı tədbir keçirildi

Bu günlərdə Bakının Nəsimi Rayon İcra Hakimiyyətində Çernobıl qəzasının 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Yığıncaqda rayon icra hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva çıxış edərək vurğulamışdır ki, 1986-cı ilin aprel ayında Ukraynada XX əsrin ən böyük nüvə fəlakəti – Çernobıl qəzası baş vermişdir.

Çernobıl qəzasında Azərbaycandan 7 min nəfərdən çox vətəndaş fəlakət zonasına göndərilmişdi. Radiasiya həmyerlilərimizdən yan keçmədi, onlar qəzanın fəsadlarının aradan qaldırılmasında bacarıq və səy-

lərini əsirgəmədilər.

Çernobıl qəzasının aradan qaldırılması işinə rəhbərlik etmiş, ağır günlərdə dəfələrlə qəza zonasında olmuş və hər şeyi bilavasitə öz gözləri ilə görmüş ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin qayğı və təşəbbüsü sayəsində 1993-cü ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" qərar qəbul edilmişdir.

Vurğulamaq lazımdır ki, Nəsimi Rayon İcra Hakimiyyətində Çernobıl əlillərinə mütəmadi olaraq qayğı və diqqət göstərilir. Onların üzləşdikləri problemlər vaxtında həll olunur. Toplantıda Çernobıl Əlilləri İttifaqı Birliyinin Nəsimi rayon filialının sədri Xələf Həsrətov çıxış edərək vurğulamışdır ki, Ukraynanın ağır günlərdə Azərbaycan vətəndaşları hadisə yerinə gedərək, fəlakətlə üzləşmiş insanlara dayaq olmuşlar. Bu xeyirxahlığı ukraynalılar unutmurlar.

Prezident İlham Əliyev ölkəmizdəki Çernobıl əlillərinə həmişə qayğı göstərir.

Yığıncaqda Çernobıl əlillərinə maddi yardım göstərildi.

Qədir ASLAN,
"Respublika".
Foto EMİNİNDİR.

İlyas Əfəndiyevin yubileyi qeyd olundu

Bakının Səbail rayonundakı Osman Mirzəyev adına 190 nömrəli tam orta məktəbdə Azərbaycanın xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibətilə yaradıcılıq gecəsi keçirilmişdir.

Tədbiri məktəbin direktoru, respublikanın əməkdar müəllimi Afət Bakıxanova açaraq ədəbiyyatımızı, dramaturgiyamızı dəyərli əsərləri ilə daha da zənginləşdirən İ.Əfəndiyevin ədəbi irsinin xüsusiyyətlərindən, onun qələmə aldığı tarixi əsərlərin əhəmiyyətindən danışmışdır. O qeyd etmişdir ki, əbədiyaşar dramaturqun yeni istedadlı aktyor nəslinin formalaşmasında əməyi böyükdür.

İ.Əfəndiyevin "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Xurşudbanu Natəvan", "Hökmdar və qızı", "Qəribə oğlan" və digər əsərləri bu gün də maraqla oxunur.

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, respublikanın əməkdar müəllimi Qənirə Əmircanova İlyas Əfəndiyevin həyat və yaradıcılığından bəhs edərək bildirdi ki, XX əsr Azərbaycan ədəbiyyatı tarixində İ.Əfəndiyev qüdrətli nasir-dramaturq kimi tanınır. İctimai müşahidə və mühakimə qabiliyyəti güclü olan istedadlı yazıçı, həm də ictimai xadim idi. Əsl vətənpərvər azərbaycanlı olan İlyas Əfyəndiyevin keçən əsrin lirik-psixoloji üslubda yazıb-yaradan ən qüdrətli sənətkar adlandırılması heç də təsadüfi deyildir.

Tədbirdə akademik Ziyad Səmədzadə, professor Əjdər Ağayev, respublikanın xalq artisti Nurəddin Mehdixanlı, rejissor Mərahim Fərzəliyev və başqaları çıxış edərək İ.Əfəndiyevlə bağlı xatirələrini söylədilər, heç vaxt əhəmiyyətini, dəyərini itirməyəcək əsərlərindən söz açdılar.

Məktəblilər ədibin əsərlərindən səhnəciklər göstərdilər, haqqında yazılmış şeirlərdən parçalar söylədilər. Gecədə İ.Əfəndiyevin həyat və yaradıcılığından bəhs edən sənədli film nümayiş etdirildi.

Yaradıcılıq gecəsində millət vəkilləri, tanınmış aktyorlar, ali və orta ixtisas müəssisələrinin nümayəndələri, təhsil, elm, mədəniyyət xadimləri də iştirak edirdilər.

Ramiz KƏRİMOV.

Cari ilin birinci rübünün yekunları

BİLƏSUVAR: İLLƏRİN UĞURLU ESTAFETİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında ölkənin yüksək templərlə inkişafı bir daha real və aydın faktlarla göstərilmiş, iqtisadi və sosial həyatda nadir göstəricilərin olduğu qeyd edilmişdir. Ölkə başçısı iclasdakı nitqlərində bu istiqamətdə atılmış addımları yüksək qiymətləndirmiş, möhtəşəm layihələrin əzmlə gerçəkləşdirildiyini, infrastruktur quruculuğunun geniş vüsət aldığını, əhalinin ehtiyaclarının getdikcə daha dolğun ödənildiyini qeyd etmişdir.

Biləsuvar rayonunun sakinləri də ölkədə baş verən müsbət dəyişikliklərə müntəzəm olaraq öz töhfələrini verir, ümumi inkişafdan geri qalmırlar.

Biləsuvar davamlı sosial-iqtisadi inkişaf, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması cəhətdən Aran bölgəsinin inkişaf etmiş rayonlarındandır. Müstəqil respublikamızın sosial-iqtisadi tərəqqi sahəsində əldə etdiyi nailiyyətlərdə bu rayonun insanlarının da öz payı vardır. Rayon icra hakimiyyətinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş yığıncağında bu barədə geniş fikir mübadiləsi aparıldı, görülmüş işlərə qiymət verildi, qarşıda duran vəzifələr müəyyənləşdirildi. Rayonun idarə və müəssisələrinin, yerli icra nümayəndəliklərinin, bələdiyyələrin, hüquqmühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə sərbəst fikir, demokratiya və yüksək fəallıq şəraitində keçirilən tədbirdə **rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev** məruzə ilə çıxış etdi. Məruzə ətrafında ətraflı müzakirə oldu.

İcra hakimiyyətinin başçısı demişdir ki, ardıcıl olaraq göstərilən dövlət qayğısı aqrar sahənin inkişafına təkan vermiş, bu sahədə çalışanlara əlverişli mühit yaratmışdır. Taxılçılıq, pambıqçılıq və heyvandarlıq aparıcı sahələr hesab edilir. Son vaxtlar fermer təsərrüfatlarına ayrılan maliyyə yardımları ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. İlin birinci rübü ərzində kənd təsərrüfatı üzrə ümumdaxili məhsulun həcmi xeyli artmışdır. 2013-cü ildə 25431 hektarda payızlıq taxıl əkilmişdir ki, bunun da 11115 hektarı buğda, 14316 hektarı arpa sahələridir. Yazlıq əkinlər üçün isə 1490 hektarda əkin aparılmışdır. Hazırda həmin sahələrə yüksək aqrotexniki qulluq göstərilir.

Respublika Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamına əsasən əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və mühərrik yağlarını əldə etməkdən ötrü mülkiyyətçilərə kifayət qədər yardım verilmişdir. Taxılçılıq təsərrüfatlarına güzəştli şərtlərlə yüksək reproduksiyalı toxum satılmışdır. Xırmandalı kəndində istixananın, Bəydili kəndində soyuducu anbarların tikilib istifadəyə verilməsi kənd fermerlərinin işlərini xeyli asanlaşdırmışdır.

Təsərrüfatlarda bəslənilən iri və xırdabuynuzlu heyvanların sayı artmış, maldarlıq məhsulları istehsalının həcmi çoxalmışdır. İribuynuzlu mal-qaranın sayı 40100 başa, xırdabuynuzlu heyvanların sayı 337098 başa çatmışdır. Ət istehsalı 2010 ton, süd istehsalı 6807 ton, yumurta istehsalı 3 milyon 100 min ədəd olmuşdur. Bu göstəricilər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli yüksəkdir. Bazarlara çıxarılan kənd təsərrüfatı məhsullarının miqdarı çoxalmış, nəticədə fermerlərin və fiziki şəxslərin gəlirləri artmışdır.

Regionların sosial-iqtisadi inkişafı tədbirləri ilə bağlı son illərdə rayonda "Aqrolizinq" ASC-nin aqroservis xidməti normal fəaliyyət göstərir, burada yeni texniki baza yaradılmışdır, fermerlər və fiziki şəxslər bu xidmətdən yetərincə istifadə edə bilirlər. İlin birinci rübündə torpaq mülkiyyətçilərinə xeyli mineral gübrə verilmiş, müəssisənin bilavasitə köməyi ilə minlərlə hektar sahədə alaq otlarına qarşı mübarizə işi təşkil edilmişdir.

Rayonda tikinti-abadlıq işləri genişlənməkdədir. Birinci rübdə tikinti təşkilatlarının yerinə yetirdikləri podrat işlərinin həcmi əvvəlki illərdəkindən daha artıq olmuşdur.

Heydər Əliyev parkında yenidənqurma işləri görülmüş, şəhərdə Heydər Əliyev Mərkəzi, Heydər Əliyevin abidə kompleksi, rayon icra hakimiyyətinin yeni binası, YAP rayon şöbəsinin binası, fəvvarələr meydanı istifadəyə verilmişdir. Şəhərin Mübariz İbrahimov, Nizami və başqa küçələrində abadlıq işləri həyata keçirilmişdir. Şəhərdəki kommunal evlərin su təchizatına xüsusi diqqət yetirilmiş, su anbarları və kanalizasiya xətləri təmizlənmiş, nasosxanaların fasiləsiz işi nizama salınmış, elektrik mühərrikləri təmir edilmişdir.

Rayonda yol tikintisinə də xüsusi önəm verilmişdir. Bəhramtəpə-Biləsuvar magistral avtomobil yolunun xeyli hissəsinə asfalt döşənmiş, Ələt-Astara magistralının rayon ərazisindən keçən hissəsində təmir işləri aparılmışdır. Hazırda Günəşli-Ağayri-İsmətli-Aranlı-Çinarlı-Əliabad, Əsgərabad-Muğan kənd avtomobil yollarının inşası gedir. Şəhərdə yaşıllıq zolaqlarının salınması, 400 metr məsafədə avtomobil yolunun genişləndirilməsi, yol kənarlarında səkilərin inşa edilməsi, müasir işıqlandırma sisteminin quraşdırılması sakinlərin ürəyindən olmuşdur.

Əhaliyə mərkəzi xəstəxana, uşaq xəstəxanası, kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri yüksək səhiyyə xidməti göstərir. Rayon mərkəzi xəstəxanasının yenidən qurulması işi sürətlə aparılır. 6 kənddə yeni səhiyyə xidməti binaları tikilib istifadəyə verilmişdir. Son vaxtlar xüsusilə ailə planlaşdırılmasına, ana və uşaqların mühafizəsinə diqqət artırılmış, yoluxucu xəstəliklərə qarşı intensiv profilaktika tədbirləri həyata keçirilmiş, sanitar-gigiyenik durumun sabit saxlanılması sahəsində zəruri tədbirlər görülmüşdür.

Yığıncaq iştirakçıları yekdilliklə vurğuladılar ki, ölkədə ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş strateji kursun uğurla həyata keçirilməsini təmin etmək, əhalinin güzəranını yaxşılaşdırmaq üçün rayon sakinlərini daha şərəfli işlər gözləyir. Onlar bundan sonra böyük əzmkarlıq nümunəsi göstərəcək, doğma Vətənimizi sosial-iqtisadi quruculuqda böyük nailiyyətlərlə sevindirəcəklər.

Sabir MUSTAFAYEV,
"Respublika".

ÇERNOBIL ƏLİLLƏRİLƏ GÖRÜŞ

Lerik

Lerik Rayon İcra Hakimiyyətində Çernobıl əlillərilə görüş keçirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov tədbir iştirakçıları qarşısında çıxış etmiş, əlillərə, o cümlədən Çernobıl əlillərinə göstərilən dövlət qayğısından danışmışdır.

İcra başçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin 17 mart 2014-cü il tarixli fərmanı ilə Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması zamanı əmək qabiliyyətini itirmiş I qrup əlillər üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsini dövlət qayğısının parlaq təzahürü kimi dəyərləndirmiş, rayonda əlillərin sosial problemlərinin ardıcıl şəkildə həll olunduğunu bildirmişdir.

Tədbirdə Çernobıl əlili Bəxtiyar Şiriyev göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını ifadə etmişdir.

Sonra Çernobıl əlillərinə maddi yardımlar verilmişdir.

Masallı

Masallı şəhərinin "Olimp" ailəvi istirahət mərkəzində Çernobıl qəzasının 28-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəl ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstələri düzmüşlər.

Mərasimi giriş sözü ilə Çernobıl Əlilləri İttifaqı İctimai Birliyinin Masallı rayon şöbəsinin sədri Nazim Rzayev açmış, Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda, Qarabağ döyüşlərində və Çernobıl qəzasında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Rayon icra hakimiyyəti başçısı aparatının sektor müdiri Seyfəddin Əliyev mərasimdə çıxış edərək 1986-cı il aprel ayının 26-da Çernobılda baş vermiş qəzanın ağır faciəyə çevrildiyini, qəzanın nəticələrinin aradan qaldırılmasında 7 min nəfərdən çox azərbaycanlının iştirak etdiyini diqqətə çatdırmışdır.

S.Əliyev qeyd etmişdir ki, Çernobıl əlillərinə ilk qayğı ulu öndər Heydər Əliyev tərəfindən göstərilmiş, onlara əlillik statusu verilmişdir. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev Çernobıl əlillərinin qayğı və problemlərinin həllinə xüsusi diqqət göstərir. Ölkəmizdə bu qəbildən olan insanlara təqaüd, mənzil və maşın verilir, sosial problemləri həll olunur. Masallı rayonunda da 7 nəfər Çernobıl əlilinə mənzil, bir əlilə isə avtomobil verilmişdir.

Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak etmiş Salam Qasımov, İslam Cəfərov, Fəzail Məmmədov və başqaları çıxış edərək həmin ağrılı günləri xatırlamış, onlara göstərilən qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Tədbirdə Çernobıl əlilləri üçün süfrə açılmış və onlara maddi yardım verilmişdir.

Əlisəfa HƏSƏNOV,
"Respublika".

Şəkidə tibbi müayinələr uğurla yekunlaşır

Azərbaycanın ardıcıl islahatlara və sistemli proqramlara əsaslanan dinamik sosial-iqtisadi inkişafı uğurla davam etdirilməkdədir. Son 10 ildə həyata keçirilən modernləşmə proqramı və düşünülmüş sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə yüksək iqtisadi artım dinamikası formalaşmış, dayanıqlı makroiqtisadi sabitlik şəraitində və iqtisadi artımın sosial rifaha və yüksək həyat standartlarına sürətli transformasiyası baş vermişdir. Həmişə olduğu kimi cari ildə də əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri və sosial məsələlərin həlli dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Nazirlər Kabinetinin 2014-cü ilin I rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxış edən cənab Prezidentimiz demişdir: **"Biz bu ilin birinci rübünün cəmi iki ayı ərzində Azərbaycanda böyük bir sosial təşəbbüsün icrasını müşahidə edirik. Əhalinin dispanserizasiya proqramı icra edilir. Bu, sırf sosial məna daşıyan bir layihədir. Bu layihənin icra edilməsi üçün əlbəttə ki, ilkin şərtlər olmalı idi. O da ondan ibarətdir ki, müasir avadanlıq, müasir tibb mərkəzləri olmalıdır ki, bunları da biz son illər ərzində bütün ölkə üzrə yaratmışıq. Qısa müddət ərzində—cəmi iki ayda dörd milyon insan bu müayinədən keçib. Hesab edirəm ki, bu təşəbbüs hər il göstərilməlidir və bu, daimi proses olmalıdır.**

Şadam ki, artıq vətəndaşlar da buna müsbət reaksiya verirlər. Çünki bu, ilk növbədə onlar üçün lazımdır, hər bir insan üçün lazımdır. Yəni hesab edirəm ki, bu, sosial siyasətimizin tərkib hissəsi olan çox önəmli bir təşəbbüsdür. Şadam ki, bunu biz icra edə bilirik".

Ölkə başçısının tapşırıq və tövsiyəsinə uyğun olaraq fevralın 17-dən başlayan bu aksiya respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi Şəkidə də uğurla aparılır. **Şəki Şəhər Mərkəzi Xəstəxanasının baş həkimi Məcid Əliyev** rayonda aparılan tibbi müayinələrin yüksək fəallıq şəraitində keçdiyini və bu işin uğurla nəticələnəcəyini əminliklə bildirdi. Həmsöhbətimiz qeyd etdi ki, Şəki Mərkəzi Rayon Xəstəxanasının konsultativ poliklinika şöbəsində əhalinin kütləvi dispanserizasiyasına ciddi hazırlıq işləri görülmüşdür. Müayinələrin yüksək səviyyədə keçirilməsini təmin etmək üçün xüsusi tədbirlər planı hazırlanmış, qrafik müəyyənləşdirilmişdir. Əhalinin müayinə olunması üçün poliklinika şöbəsində bütün lazımi şərait yaradılmışdır.

Dispanserizasiya xəstəliklərin erkən aşkar edilməsində və insanların fiziki sağlamlığının qorunmasında mühüm rol oynayır. Aksiyanın mütəşəkkil keçirilməsini təmin etmək üçün şəhər icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə xüsusi qərargah yaradılmış, cədvəl tərtib edilmişdir. Əhali arasında tibbi müayinənin məqsədi və əhəmiyyəti barədə müntəzəm olaraq maarifləndirmə, izahat işləri aparılmışdır. Bunun nəticəsidir ki, rayon əhalisi insanların sağlamlığının qorunmasına yönələn bu aksiyada olduqca fəal iştirak edir. Aksiya artıq öz müsbət nəticələrini verməkdədir və rayon əhalisi dövlətimizin başçısının bu xeyirxah təşəbbüsünü ürəkdən alqışlayır. Fevralın 17-dən başlanan aksiya çərçivəsində indiyədək 67538 nəfərə yaxın sakin tibbi müayinədən keçmişdir. Aksiya başlandığı gündən indiyədək müayinədən keçən 67538 nəfər sakinin 6307 nəfəri ambulator, 102 nəfəri stasionar müalicəyə cəlb edilmiş, 42 nəfər Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Məlumdur ki, ölkə əhalisi üçün olduqca böyük əhəmiyyət daşıyan, insanların sağlamlığına xidmət edən bu sosial aksiyanın başa çatmasına saylı günlər qalmaqdadır. Kollektivimizin hər bir üzvü bu sosial layihəni uğurla yekunlaşdırmaq üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəkdir.

İlham PƏNAHOV,
"Respublika".

Abadlaşan, gözəlləşən müasir Xaçmaz

Bütün sahələrdə dinamik inkişaf edən Xaçmaz 2014-cü ilin birinci rübünü də müsbət göstəricilərlə yola saldı. Ötən 3 ayda şəhərdə tikinti-quruculuq, abadlıq işləri daha da sürətləndi. Yeni-yeni obyektlərin tikintisinə start verildi. Ümumiyyətlə, ötən 3 ayda sosial-iqtisadi inkişaf sahəsində bütün işlər uğurlu olmuşdur. Bu günlərdə ictimaiyyət nümayəndələrinin də iştirak etdiyi rayon icra hakimiyyətinin yığıncağında başçının birinci müavini **Yetkin Mehmanovun** birinci rübün yekunlarına dair məruzəsi dinlənilmiş, sonra isə qarşıdakı dövr üçün yeni vəzifələr müəyyənləşdirilmişdir. Hesabat məruzəsində qeyd olundu ki, 2014-cü ilin birinci rübündə rayon üzrə ümumi məhsul buraxılışı 47,3 milyon manat, sənaye məhsulu 6555,7 min manat, kənd təsərrüfatının ümumi həcmi 10,7 milyon manat, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 11,6 milyon manat, pərakəndə əmtəə dövriyyəsi 60238,4 min manat, adambaşına düşən pul gəlirləri 252,5 manat təşkil etmişdir.

Rüb ərzində ümumi sahəsi 2959 kvadratmetr olan mənzil tikilib istifadəyə verilmişdir. Orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrünə nisbətən 20,3 faiz artaraq 301.5 manat təşkil etmişdir. Rüb ərzində rayonumuzda əsas kapitala qoyulan investisiyaların həcmi 8,8 milyon manat olmuşdur ki, bunun da 94 faizi tikinti quraşdırma işləridir.

Heydər Əliyev adına Mədəniyyət Mərkəzi də hesabat dövründə əsaslı təmir olunmuş, müasir qaydada yenidən qurulmuşdur. H.Z.Tağıyev küçəsindən Mədəniyyət Mərkəzinədək geniş səki tikilmiş, həm mərkəz, həm də ətraf ərazi işıqlandırılmışdır. Mədəniyyət Mərkəzinin qarşısındakı xiyabanda yaxın günlərdə Azərbaycanın 12 nəfər məşhur teatr və kino aktyorunun, bəstəkar və müğənnisinin büstləri qoyulacaqdır.

Xudat şəhərində də bir sıra tikinti-quruculuq və abadlıq işləri həyata keçirilmiş, çoxmənzilli binaların dam örtükləri dəyişdirilmiş, tədris müəssisələrində təmir işləri aparılmış, küçələrə asfalt vurulması üçün hazırlıq işləri aparılmışdır. Xaçmaz şəhərinin şimal istiqamətdən giriş qapısının tikintisinə başlanmışdır. Bu əzəmətli tikili Qudyalçay çayinin yaxınlığında inşa edilir və qapının ətraf ərazilərində də eyni zamanda genişmiqyaslı abadlıq işləri aparılacaqdır.

Hazırda şəhərin N.Nərimanov küçəsində rayon mədəniyyət və turizm şöbəsi üçün yeni ikimərtəbəli inzibati binanın tikintisinə başlanılmışdır.

Əhalinin təbii qazla təchizatı sahəsində görülmüş işlər nəticəsində 616 abonentə yeni qaz xətti çəkilmiş, rayon üzrə abonentlərin sayı 28075 nəfərə çatmışdır. Bu gün rayonun 151 yaşayış məntəqəsindən 61-i təbii qazla təmin olunur. Görülən işlərin davamı olaraq 2014-cü il ərzində də rayonun digər yaşayış məntəqələrinin də sürətlə qazlaşdırılması işinin davam etdirilməsi nəzərdə tutulur. Rüb ərzində istehlak olunmuş təbii qazın dəyəri 81,4 faiz ödənilmişdir.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Aqrar sahədə də müvafiq işlər həyata keçirilməsi təmin olunmuşdur. Rayonda mövcud 34634 hektar taxıl, o cümlədən 24620 hektar buğda və 9969 hektar arpa, həmçinin 45 hektar yaşıl yem üçün nəzərdə tutulmuş taxıl sahələrinə aqrotexniki qulluq göstərilmişdir. Rüb ərzində "Aqrolizinq" ASC-nin Xaçmaz filialı tərəfindən rayona 147 ton yeni azot gübrəsi gətirilmişdir. Hesabat dövründə rayonda 22 hektar yeni meyvə bağı salınmış və meyvə bağlarının ümumi sahəsi 13358 hektara çatmışdır. Ötən təsərrüfat ilində rayonun kənd təsərrüfatı məhsulu istehsalçıları tərəfindən hər biri 100 min tondan artıq taxıl, tərəvəz və meyvə məhsulu istehsal edilmişdir.

Məlum olduğu kimi, cari il fevral ayının 17-dən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin göstərişinə əsasən böyük bir sosial layihəyə start verilmişdir. Əhalinin dispanserizasiyası rayonumuzda da uğurla və mütəşəkkil qaydada həyata keçirilir. Hal-hazıradək 169227 nəfər rayon əhalisinin 81936 nəfəri tibbi müayinədən keçmişdir. Bunlardan 6874 nəfəri ambulator müalicəyə, 193 nəfəri isə stasionar müalicəyə cəlb olunmuşdur.

Ziyafəddin BAYRAMOV,
"Respublika".

Neft sənayesi

Layihə çərçivəsində maraqlı tərəflərin cəlb olunması prosesi üzrə işlər davam etdirilir

Məlum olduğu kimi, ARDNŞ-in Neft-Qaz Emalı və Neft-Kimya Kompleksi (NQNK) layihəsinin reallaşdırılması üzrə ekoloji məsləhət xidmətlərinin göstərilməsi üçün tender əsasında cəlb olunmuş "AECOM" şirkəti tərəfindən Ətraf mühitə və sosial sahəyə təsirin qiymətləndirilməsi (ƏMSSTQ) hesabatlarının hazırlanması istiqamətində mərhələli şəkildə tədqiqat işləri aparılır.

Hazırda ARDNŞ tərəfindən NQNK layihəsinin icrası ilə əlaqədar maraqlı tərəflərin cəlb olunması prosesinə başlanılmışdır. Məqsəd bütün maraqlı tərəflərə layihə və hazırda həyata keçirilən ƏMSSTQ işləri barədə məlumatları vaxtında çatdırmaqdan, layihə ilə əlaqədar rəy və təkliflərin toplanılmasından ibarətdir. Bu proses maraqlı tərəflərlə sıx əlaqələrin qurulmasına və NQNK layihəsinin uğurla həyata keçirilməsinə kömək edəcəkdir.

Maraqlı tərəflərin cəlb olunması prosesi beynəlxalq standartların və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilir. Proses əsasən, NQNK-nın Ətraf mühitə və sosial sahəyə təsirin qiymətləndirilməsi mərhələsinə təsadüf edəcək. Bu mərhələdə maraqlı tərəflərlə mütəmadi olaraq görüşlər keçiriləcək, layihə ilə əlaqədar yerli icmaların təklif və rəyləri öyrəniləcək, həmin rəy və təkliflər yekun ƏMSSTQ sənədində nəzərə alınacaqdır. Artıq bu məqsədlə ARDNŞ-in rəsmi internet səhifəsində şikayətlərin, o cümlədən rəy və təkliflərin verilməsi və baxılması üzrə mexanizm işlənilmişdir ki, həmin mexanizm də layihənin təsirinə məruz qalan tərəflər üçün narahatlıq doğuran məqamların, rəy və təkliflərin araşdırılmasına, hesabatda nəzərə alınmasına imkan yaradacaqdır.

Aparıcı neft şirkətlərinin nümayəndələri Ekologiya İdarəsində olmuşlar

Rusiyanın Neftqaz Biznes İnstitutu, eləcə də qabaqcıl neft şirkətləri - "Lukoyl", "Tatneft", "İrkutsk Neft Şirkəti", "TMS Qrup", "Almeteneft", "Bavlneft"in əməkdaşlarından ibarət nümayəndə heyəti ARDNŞ-in Ekologiya İdarəsində olmuşdur.

ARDNŞ-in ekoloji siyasəti və Ekologiya İdarəsinin fəaliyyəti ilə tanışlıq məqsədi daşıyan görüşdə qonaqlara Ekoloji Monitorinq Departamentinin fəaliyyəti barədə geniş məlumat verilmiş, müvafiq prezentasiya təqdim olunmuşdur. Sonra qonaqlar Kompleks Tədqiqatlar Laboratoriyasında və Ekoloji Mərkəzdə istifadə edilən avadanlıqlar və onların iş prosesi ilə tanış olmuşlar. Eko-parka səfər etmiş nümayəndə heyəti burada parkın yaranma tarixi, Yaşıllaşdırma Departamentinin fəaliyyəti, habelə parkın şitilxanasında Abşeron yarımadasına adaptasiya olunmuş və adları "Qırmızı kitab"a salınmış nadir bitkilərin yetişdirilməsi metodikası barədə məlumatlandırılmışlar. Görüşlərdə tərəflərin gələcək elmi əməkdaşlıq imkanları müzakirə olunmuşdur. Nümayəndə heyəti üzvləri "Qonaq kitabçası"nda təəssürat və arzularını yazmış, xatirə şəkilləri çəkdirmişlər.

"Respublika".

Pambıqçılıq kənd təsərrüfatının aparıcı sahələrindəndir

Azərbaycan dünyanın qabaqcıl pambıqçılıq ölkələrindən biri kimi tarixə düşmüşdür. Zəngin tarixi salnamələr fəth edərək uzun illər bu bitkinin becərilməsində böyük təcrübələr toplanmış və nəticədə gözəl ənənələr yaranmışdır. XX əsrin II yarısında ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə pambıqçılıq strateji əhəmiyyətli sahə kimi çox sürətlə inkişaf etmiş, sovet dövründə illik pambıq istehsalı bir milyon tona çatdırılaraq dəfələrlə sovetlər dövrünün ən ali mükafatına — "Keçici Qırmızı Bayrağa" layiq görülmüşdür. Eyni zamanda pambıqçılıq əhalinin əsas gəlir mənbəyinə çevrilmiş, maddi rifah halının yüksəlməsini təmin etmişdir.

Hazırda Azərbaycan Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun mütəxəssisləri pambıqçılığı inkişaf etdirməyin həll yollarını axtarırlar. Uzun müddət bu sahədə çalışmış **aqrar elmlər doktoru, Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun direktoru Həsənəli Aslanovdan** bu son dərəcə ciddi və vacib məsələ haqqında məlumat verməyini xahiş etdik. Onu demək yerinə düşərdi ki, müsahibimizin bu yaxınlarda pambıqçılıq mütəxəssisləri, fermerləri, müəllim və tələbələr üçün gərəkli olan, zəngin təcrübələrə istinad olunan ikinci kitabı çapdan çıxmışdır.

Müsahibimiz qeyd etdi ki, Samux rayonu ərazisində yerləşən Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu fəaliyyəti dövründə böyük elmi təcrübə yolu keçmişdir.

Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu Respublika Xalq Komissarları Sovetinin qərarı ilə 1925-ci ildə, Gəncə seleksiya stansiyasının bazasında yaradılmışdır. 1932-ci ildən həmin stansiya Zaqafqaziya ETPİ-yə çevrilmiş, sonra (1935-ci ildə) AzETPİ adlandırılmışdır.

İnstitutun ilk fəaliyyəti dövründə (1925-1932) alimlik dərəcəsi olan elmi işçilər çatışmırdı. Həmin illərdə Zaqafqaziya ETPİ-yə Muğan, Şirvan, Ağstafa təcrübə-meliorasiya stansiyaları, Qarayazı və Naxçıvan təcrübə tarlaları, Noraşen, Puşkin, Bərdə, Uluxanlı və Borçalı dayaq məntəqələri daxil idi.

Daha sonralar AzETPİ-yə AzETPİ-nin Mərkəzi təcrübə bazası (Gəncə şəhəri), Şirvan təcrübə stansiyası (Ucar rayonu), Mil təcrübə stansiyası (Beyləqan rayonu), institutun Muğan seleksiya və aqrotexnika şöbəsi və Salyan rayonunda 2 N-li sovxozda təcrübə-istehsalat stansiyası daxil idi. Hazırda institutun Ucar və Beyləqan rayonlarında fəaliyyət göstərən təcrübə stansiyaları vardır. İnstitutda 8 şöbə və laboratoriya fəaliyyət göstərir.

AzETPİ-nin fəaliyyətinin əsas prioritet istiqaməti sort-toxum-aqrotexnologiya olmaqla qarşısında duran əsas məqsəd, pambıqçılığın dinamik inkişafına təminat verən əhatəli və kompleks proqramın işlənib həyata keçirilməsindən, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalata tətbiqi və geniş yayılması sahəsində kənd təsərrüfatı müəssisələrinə və fermerlərə lazımi elmi-metodiki köməklik göstərməkdən ibarətdir.

Pambıqçılığın inkişafının etibarlı təminatı üçün AzETPİ-nin elmi fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

—yüksək məhsuldar və texnoloji keyfiyyətlərə malik, xəstəliklərə, zərərvericilərə, quraqlığa, duza davamlı, yarpaqlarını təbii olaraq tökən, yüksək yağ çıxımına malik, tezyetişən pambıq sortlarının yaradılması;

—yüksək və stabil pambıq məhsulu becərilməsinə zəmin yaradan kompleks aqrotexnologiyaların işlənib hazırlanması;

—pambıqçılıq bölgələrində torpaqların münbitliyini sabit saxlamaq və yüksəltmək, pambıq bitkisi üçün əlverişli sələf bitkiləri seçməklə növbəli əkin sistemlərinin işlənib hazırlanması və səmərəli gübrə normalarının müəyyən edilməsi;

—pambıq toxumçuluğu işinin elmi əsaslarla qurulması, elit toxumu istehsalına elmi-metodiki köməyin, rəhbərliyin həyata keçirilməsi;

—elmin nailiyyətlərinin və qabaqcıl təcrübənin ümumiləşdirilməsi və istehsalata tətbiqinə və geniş yayılmasına metodik rəhbərlik və köməklik edilməsi.

Çoxsahəli xalq təsərrüfatı əhəmiyyəti olan pambıqçılığın respublikamızda inkişaf etdirilməsində AzETPİ-nin səmərəli xidmətləri olmuşdur. AzETPİ-nin yetişdirdiyi pambıq sortlarının istehsalata tətbiqi və mexanikləşdirilmiş kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanda pambığın məhsuldarlığının getdikcə artırılmasını və ümumi məhsul istehsalının yüksəldilməsini təmin etmişdir. Belə ki, 1925-1926-cı illərdə hər hektardan məhsuldarlıq 6-7 sentner, cəmi məhsul isə 58-60 min ton idisə, ulu öndərimizin hakimiyyəti dövründə, 1974-1975-ci illərdə hər hektarın məhsuldarlığı 21,3-25,3 sentnerə, ümumi məhsul istehsalı isə 450-531 min tona çatdırılmışdır.

Böyük Vətən müharibəsindən sonra, xüsusilə də 50-60-cı illərdə respublikamızda pambıqçılığa diqqət olduqca zəifləmişdir. Pambıq istehsalı ildən-ilə azalmağa başlamışdır. Pambığı perspektivsiz bir bitki hesab edirdilər. Hətta Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun bağlanmaq təhlükəsi var idi.

1969-cu ildə ümummilli lideri-

miz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 1969-cu ilin avqustunda və 1970-ci ilin avqustunda Azərbaycan KP MK-nın plenumlarında əkinçiliyi və heyvandarlığı, birinci növbədə pambıqçılığı inkişaf etdirmək üçün konkret tədbirlər planı işlənib hazırlandı. 1970-ci ildən başlayaraq pambıq istehsalı və dövlətə satış planları artıqlaması ilə yerinə yetirilirdi. 1969-cu ildə 162 min ton pambıq təhvil verildiyi halda, 1976-cı ildə 412 min ton pambıq təhvil verilmişdir.

Ulu öndərimiz tərəfindən pambıqçılığın inkişaf etdirilməsi kolxoz və sovxozların iqtisadiyyatının möhkəmlənməsinə, kənd zəhmətkeşlərinin maddi rifah halının yaxşılaşdırılmasına böyük təsir göstərdi. 1969-cu ildə pambıqçılıqdan 150 milyon manat götürüldüyü halda, 1976-cı ildə bu rəqəm 350 milyon manat olmuşdur. 1970-1976-cı illərdə kolxoz və sovxozlar pambıqdan 2 milyard manat əldə etmişlər. Elmi fəaliyyəti ərzində institutda yüzlərlə yeni aborigen pambıq sortları yaradılmış, bundan 39 sort respublikamızda rayonlaşdırılmışdır. Rayonlaşan hər bir yeni sort əvvəlki sortlardan, sələflərindən təsərrüfat qiymətli göstəricilərinə görə daha yüksək potensiallı olmaqla məhsuldarlığın və ümumi istehsalın stabil artmasına zəmin yaratmışdır. Alimlərimizin gərgin əməyi nəticəsində yaradılmış, məhsuldarlığın və məhsulun keyfiyyətinin yüksəlməsində rayonlaşmış və istehsalatda daha çox qalan və əkilən 114, 246, 915, 1298, 2421, 2833, 3038, AzNİXİ-33, Muğan-395 sortlarının geniş tətbiqi və intensiv yayılmasının çox əhəmiyyəti olmuşdur. İlk aborigen sort kimi 246 sortu 735 min hektarda, 114 sortu 546 min, 1298 sortu 2200 min, 2833 sortu 502 min, 3038 sortu 2300 min, AzNİXİ-33 sortu 1300 min, Muğan-395 sortu 456 min hektarda əkilmişdir. Ümumiyyətlə, institutun yaratdığı sortlar respublikada 10,5 milyon hektardan çox sahədə əkilmiş, həmin rayonlaşan 39 sortla indiyə kimi 8 dəfə sort dəyişmə həyata keçirilmişdir. Bu müddət ərzində ilk vaxtlarda rayonlaşan sortların məhsuldarlıq potensialı hektardan 25-30 sentnerdən hazırda istehsalatda əkilən sortlarda 50-55 sentnerə, lif çıxımı 32-34 faizdən 38-40 faizə, lifin uzunluğu 29-31 mm-dən 35-37 mm-ə, bir qozada xam pambığın kütləsi 4,5-5,0 qr-dan 6,5-7,0 qr-a çatdırılmışdır. Vegetasiya müddətlərinə görə isə əksinə, bu göstərici az məhsuldarlıq potensiallı və xırda qozalı ilk yaradılan sortlarda 140-160 gündən, yüksək potensiallı və iri qozalı hazırkı sortlarda 120-130 günə endirilmişdir.

Pambıqçılıqda seleksiyaçıların nailiyyətlərindən biri də zərif lifli pambıq sortlarının yaradılmasına aid tədqiqatların uğurlu nəticəsidir. Belə ki, vegetasiya müddətinin uzunluğuna görə bizim iqlim şəraiti üçün əlverişsiz olan pambığın gecyetişən Gos.barbadense L. növü üzrə son 20 ildə apa-



rılan yaradıcı seleksiya tədqiqatları nəticəsində vegetasiya müddətinə görə tezyetişən orta lifli (Gos. hirsutum L.) pambıq sortları ilə eyni yetişkənliyə malik zərif lifli pambıq sortları yaradılmışdır. Hazırda zərif lifli sortlardan Gəncə-46, Gəncə-120, orta lifli sortlardan isə Gəncə-114, Gəncə-132, Gəncə-160, Gəncə-164, Gəncə-170, Gəncə-181 və Gəncə-182 sortları SNS-də və Dövlət Komissiyasında sınaqdan keçirilir. Son illərdə institutda yaradılmış AzNİXİ-195, Gəncə-2, Gəncə-8, Gəncə-78, Gəncə-80, Gəncə-103, Gəncə-110 sortlarının ilkin toxumçuluq işi qurulmuş və hazırda istehsalatda əkilib-becərilir. İnstitutun təcrübə sahələrində dünya kolleksiyasından 840-a qədər sort və sort nümunələri üzərində elmi yaradıcılıq işləri aparılır və yaradıcı seleksiya işində istifadə olunur.

Azərbaycan Yer kürəsinin pambıqçılıq ölkələrindən biri kimi tarixə düşübdür. Respublikanın pambıqçılıq bölgələrində bu bitkinin becərilməsinə aid yüz illərlə böyük təcrübə toplanmış, yaxşı ənənə yaranmışdır. Belə ki, 1913-cü ildə Azərbaycanda 100 min ha-dan çox sahədə pambıq əkilmiş və 65 min ton pambıq məhsulu istehsal edilmişdir. Ölkə büdcəsinin 22-25 faizini pambıqçılıq təmin edirdi. Ümummilli liderimiz pambıqçılığa böyük üstünlük verirdi. O deyirdi: "Pambıqçılıq çox faydalı sahədir, bu sahə yaşamalı və inkişaf etdirilməlidir". Pambıq aran rayonlarında əhalinin əsas gəlir mənbəyi idi. İnstitutun elmi nailiyyətləri, yaratdığı yeni sortların, yüksək məhsul yetişdirməyə aid mütərəqqi becərmə texnologiyalarının istehsalata geniş tətbiq olunması dövlət səviyyəsində davamlı dəstəkləndi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda pambıqçılıq sürətlə inkişaf etdirildi, ilk dəfə olaraq ən yüksək məhsuldarlıq və illik ümumi istehsal bu illərdə tarixə düşdü. Həmin illərdə ulu öndər tez-tez pambıq tarlalarında, kənd zəhmətkeşləri arasında olar və onlara öz tövsiyəsini verər və qabaqcıl pambıqçıların, sürücü-mexaniklərin və digər əməkçilərin əməyini həmişə yüksək qiymətləndirər və onlara ölkənin ali mükafatlarını təqdim edərdi. Pambıqçılığın dinamik inkişafının elmi əsaslarla nizamlanmasını daim diqqətdə saxlayan ulu öndər bu sahənin inkişafına hər cür qayğı göstərir, pambıçılıq bölgələrinin hamısında nəticəli fəaliyyət üçün əlverişli mühit yaradırdı. O, alimlərin yaradıcı əməyini də çox yüksək qiymətləndirər, bütün elmi-tədqiqat institutlarının, xüsusilə Pambıqçılıq İnstitutunun məhsuldar elmi fəaliyyəti üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını daim nəzarətdə saxlayırdı. Həmin illərdə digər elmi-tədqiqat institutları ilə müqayisədə ulu öndər Heydər Əliyev tərəfindən Pambıqçılıq İnstitutunun elmi fəaliyyəti daha yüksək qiymətləndirilmiş, yaranmasının və elmi fəaliyyətinin 50 illik nəticələrinə, pambığın seleksiyası, toxumçuluğu və səmərəli becərmə texnologiyalarının işlənib hazırlanmasındakı xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı ordeni", institutun aparıcı alimlərinin bir qrupu isə fəxri dövlət mükafatları, orden və medallarla təltif olunmuşlar.

Respublikamızda pambıqçılığın inkişafına qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev 25 noyabr 1977-ci ildə bu qocaman, müqəddəs elm ocağında olmuş, "Qırmızı Əmək Bayrağı Ordeni"ni, alimlərə layiq görülən fəxri adları, orden və medalları şəxsən özü təqdim etmişdir. Ulu öndərimiz Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun 50 illik yubileyində demişdir: "Pambıqçılıq sahəsində aparılan tədqiqatlar məhsulun azı 80-90 faizini sentyabr ayında verən yüksək məhsuldar və tezyetişən sortlar yaradılmasına yönəldilməlidir. Respublikanın pambıq tarlaları seleksiya və aqrotexnika, aqrokimya və fitopotologiya, iqtisad və mexanikləşdirmə, irriqasiya və meşə meliorasiyası alimlərindən səmərəli tədqiqatlar gözləyir. Torpağın münbitliyini yüksəltməkdə birinci söz onlarındır, münbitliyin açarı elmin əlindədir. Elmi surətdə əsaslandırılmış növbəli pambıq-yonca əkininin işlənib hazırlanmasını və tətbiq olunmasını təmin etmək lazımdır. Bu, Azərbaycan şəraitində pambığın məhsuldarlığını 30-40 faiz yüksəltməyə imkan verər".

Bu sözləri ümummilli liderimiz sanki bu gün üçün demişdir, bu isə dahi şəxsiyyətin uzaqgörənliyi idi. Ümummilli lidermiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş elmi əlaqələrimiz bu gün də bir sıra xarici ölkələrin aparıcı elmi-tədqiqat müəssisələri ilə, o cümlədən Türkiyənin, Özbəkistanın, Türkmənistanın, Tacikistanın Pambıqçılıq, Kənd Təsərrüfatı Nazirliyinin və AMEA-nın müvafiq institutları ilə əməkdaşlıq səviyyəsində davam etdirilir.

Respublikamızda kənd təsərrüfatının bir sahəsi kimi və əsası ulu öndər tərəfindən qoyulmuş pambıqçılığın inkişafına dövlət səviyyəsində göstərilən diqqət və qayğı bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, ulu öndərimiz Heydər Əliyevin pambıqçılığa o dövrdə yetirdiyi diqqət, qayğı və verdiyi tövsiyələr, ölkə Prezidenti cənab İlham Əliyevin "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi (14 iyul 2010) və "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı (3 mart 2011) əlavə tədbirlər barədə verdiyi fərmanlar, institutun əməkdaşlarında bu sahənin davamlı inkişafında daha fəal iştirak etmək üçün, institutun alim və mütəxəssislərindən nəticəli tədqiqatlar aparılmasını birmənalı tələb edir.

Onu xüsusilə qeyd etmək lazımdır ki, ölkə Prezidentin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə kompleks tədbirlər planının müvafiq bəndləri tədqiqatlarımızın əsas prioritet istiqamətlərini təşkil edir.

Bu gün institutumuzun alimləri yüksək potensiallı, plastik xüsusiyyətli aborigen sortlar yaratmaq, toxumçuluq işini elmi əsaslarla qurmaq, yüksək və keyfiyyətli məhsul yetişdirilməsinə zəmin yaradan kompleks aqrotexnologiyalar hazırlamaq və istehsalata geniş tətbiq etmək istiqamətində ümidverici axtarışlar aparırlar. Elmi nailiyyətlərin, mütərəqqi texnologiyaların istehsalatda geniş yayılması və yenilikləri kəndli-fermerlərin yaxşı mənimsəmələri üçün pambıqçılıq bölgələrində hər il yeni sortların, səmərəli becərmə texnologiyalarının, suya qənaətedici suvarma texnikasının, kiçik pay torpaqlarında münbitliyin yaxşılaşdırılmasına zəmin yaradan qısa rotasiyalı növbəli əkinlərə aid nümayiş əkinləri aparılır, tarla günləri keçirilir, seminarlar təşkil edilir, istehsalat şəraitində toxumçuluq işinin düzgün nizamlanmasına mütəmadi olaraq əməli metodiki köməklik göstərilir.

Respublikamızda pambıq istehsalının stabilləşməsi və gələcək inkişafı istiqamətində qocaman elm ocağı olan Pambıqçılıq İnstitutu daha məsuliyyətli və məhsuldar elmi fəaliyyətini davam etdirmək əzmindədir. Ümumiyyətlə, pambıqçılıqda yaranan hər hansı bir uyğunsuzluqların, problemin elmi əsaslarla həlli, bir sahə institutu kimi bizim elmi fəaliyyətimizin əsas prioritet istiqamətlərindən biridir.

Zabit XƏLİLOV,
"Respublika".

Reportaj

Onlar Vətənimizin ərazi bütövlüyünu qoruyacaqlar

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri Xəzər rayon idarəsinə doğru axışan insanların ardıarası kəsilmirdi. Əmək və müharibə veteranları, ziyalılar həmişəki kimi gənclərin əsgəri xidmətə yola salınma mərasimində iştirak edir, milli musiqimiz dalğa-dalğa ətrafa yayılır, bir sözlə, bu yerlərdə coşqunluq, bayram təntənəsi duyulurdu.

Tər gül-çiçək dəstələri hərbi xidmətə yollanan oğullara paylanır, yaşıllıqlar qoynunda xatirə şəkilləri çəkdirilir, əsgəri xidmətə yola düşən gənclər doğmalarını əmin edirdilər ki, onlar Vətənimizin ərazi bütövlüyünü şərəflə qoruyacaq, qəlbləri həmişə yurd eşqi ilə döyünəcəkdir.

İdarənin həyətində və eləcə

də foyedə Azərbaycanın hərbi potensilanın güclənməsi ilə bağlı müxtəlif yazı, diaqram və fotomontajlar diqqəti cəlb edir. Şübhəsiz ki, bunlar gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində böyük rol oynayır.

Budur, ortalığa ani bir sükut çökür. Hamının diqqəti idarənin rəisi, polkovnik Eldəniz Əliyevə dikilir. O, öncə mərasimə qatılan insanları salamlayır, daha sonra sevincini onlarla yarı bölür:

—Sabahın əsgərlərinə, qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünən gənclərimizə sevgimi, məhəbbətimi bildirirəm. Siz ordu sıralarına yollanırsınız, orduda xidmət etməkdən qürur duyursunuz. Ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşər: **"Azərbaycanın hər bir vətəndaşı bilməlidir ki, orduda xidmət hər kəsin müqəddəs, şərəfli borcudur".** Siz yaxşı bilməlisiniz ki, bu gün Vətənə daha cəsarətli, daha mətin, daha mübariz oğullar gərəkdir. Elə oğullar ki, onlar Vətənimizin ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini qoruya bilsin, Bayrağına, Himninə, Gerbinə, Andına sədaqətli olsun, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirsin. Bu gün sizi yüksək əhval-ruhiyyə ilə ordu sıralarına yola salırıq. Xidmət dövründə həmişə ayıq-sayıq olmalı, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnməlisiniz. Torpaqlarımızın 20 faizi düşmən tapdağı altındadır, bir milyondan çox qaçqın və məcburi köçkünümüz var. Gün gələcək ki, qüdrətli Azərbaycan ordusu işğal altında olan ərazilərimizi geri qaytaracaq, Qələbə bayramımız Şuşada, Laçında, Kəlbəcərdə, Zəngəzurda və düşmən tapdağında olan digər bölgələrimizdə dalğalanacaqdır.

Hərbi xidmətə yola salınma mərasimində valideynlər adından ilk söz Şahbaz Cəfərova verilir. O, ürək sözlərini belə ifadə edir:

—Nə vaxta qədər ermənilər qədim oğuz ellərində gəzib-dolaşacaqlar? Vətən, yurd bizi intiqama çağırır. Siz əsgəri xidmətə yola düşürsünüz. Ayıq-sayıq olun, oba-oymaqlar yaman qəribsəyib. Yeri gələndə Xətai babanızın qılıncını erməni daşnaklarının başına endirin, gücünüzü, qüdrətinizi düşmənə göstərin, ata-babalarınızın ayaq izləri qalmış yerləri geri qaytarın!

Biz halal yemişik duzu, çörəyi,
Tanrı yerdə qoymaz haqqı, əməyi,
Bayrağa döndərib qanlı köynəyi
Şuşa qalasına taxmaq vaxtıdır!

Hərbi xidmətə yola düşən gənclərdən İsmayıl Teymurovun çıxışı diqqəti cəlb edir. O, üzünü mərasim iştirakçılarına tutaraq deyir:

—İftixar hissiylə qeyd etməliyəm ki, ölkəmizin və xalqımızın gələcəyi olan gənc nəslin təlim-tərbiyəsi, hərbi vətənpərvərlik ruhunda formalaşması Xəzər rayonunda uğurla həyata keçirilir və bu estafet etibarlı əllərdədir. Elə buna görə də biz bu gün yüksək əhval-ruhiyyə ilə ordu sıralarına yollanırıq. Vurğulamaq lazımdır ki, Vətən borcunu qeyrətlə yerinə yetirərək, müəllimlərimizin, valideynlərimizin etimadını ləyaqətlə doğruldacağıq.

Budur, meydan yenidən musiqiyə verilir. Gənclərdən Şahin Cəfərov, Andrey Uşakov, Şahin Rəhimov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə əsgəri xidmətə yollanırlar...

Qədir ASLAN,
"Respublika".

Müasir təlim texnologiyaları

Bu günlərdə Beynəlxalq Mətbuat Mərkəzində "Zəka və Ülviyyət" jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru **Fərqanə Əliyevanın** və pedaqogika üzrə fəlsəfə doktoru Ümhani Məmmədovanın birgə hazırladıqları "Müasir təlim texnologiyaları" adlı dərs vəsaitinin təqdimat mərasimi olmuşdur.

Tədbiri Slavyan Universitetinin müəllimi, yazıçı Nazim Tapdıqoğlu açmış və təqdim olunan dərsliyin əhəmiyyətindən danışmışdır.

"Müasir təlim texnologiyaları" kitabının həmmüəllifi, Azərbaycan Dövlət Pedaqoji Kollecin tədris-metodika kabinetinin müdiri Fərqanə Əliyeva kitab haqqında ətraflı məlumat vermişdir. Müəllif vurğulamışdır ki, dərslikdə XXI əsrin əsas tendensiyası olan müasir təlim texnologiyalarının, innovasiyaların, interaktiv təlimin, kurikulum sənədindən istifadənin yolları, dərsdə İKT-dən istifadə qiymətləndirmə məsələlərinə aydınlıq gətirilmişdir.

Dərsliyin həmmüəllifi ADPK-nin müəllimi Ümhani Məmmədova tələbə və müəllimlərin, tədqiqatçıların faydalana biləcəyi və təhsilimizin inkişafında müasir təlim texnologiyalarından danışmışdır. Kitab gənc müəllimlərin öyrənə biləcəyi vəsaitdir.

ADPU-nun professoru, tanınmış şair Zahid Xəlil bir vaxt dərs dediyi, indi isə təqdimatına yığışdığımız tələbələrindən qürur hissi keçirdiyini bildirmiş və onlara yeni-yeni uğurlar arzulamışdır.

Tədbirdə ADPK-nin tədris hissə müdiri Gültəkin Əliyeva, Xocavənd rayon Ağsaqqallar Şurasının sədri Novruz Quliyev, jurnalist Elmira Nüsrətqızı, Qlobal dünya və müasir Azərbaycan ictimai birliyinin təsisçisi, hüquqşünas Camal Quliyev, Ağa Musa Nağıyev adına Milli Dəyərlərin qorunması ictimai birliyinin sədri Dilarə Nağıyeva, müəllimə Səbinə Babayeva və başqaları çıxış etmişlər.

Qeyd edilmişdir ki, Azərbaycanda təhsil islahatı uğurla həyata keçirilir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması cəmiyyətin mədəni inkişafının hərtərəfli şəxsiyyətin formalaşdırılmasının əsasını təşkil edir.

Bu şəxsiyyəti yetişdirmək üçün ailə ilə yanaşı, müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Pedaqoji təmayüllü müəssisələrdə isə bu xüsusilə diqqət mərkəzində olmalıdır.

Sonda tədbir iştirakçılarına yeni dərslik kitabı hədiyyə edilmişdir.

Rauf İLYASOĞLU,
"Respublika".

● Faktlar və rəqəmlər

Müşfiq MİRZƏ,
"Respublika".

Xarici mənbələrdən əsas kapitala 1016,2 milyon manat vəsait

2014-cü ilin yanvar-mart aylarında xarici mənbələrdən əsas kapitala 1016,2 milyon manat vəsait yönəldilmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin 819,6 milyon manatı Böyük Britaniya, ABŞ, Norveç, Türkiyə, Çexiya və Fransa sərmayədarlarına məxsusdur. Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin həcmi 1603,5 milyon manat təşkil etmiş, ondan 65,2 faizi yeni tikinti, yenidənqurma və genişləndirmə, 18,6 faizi əsaslı təmir, 2,4 faizi cari təmir, 13,8 faizi isə sair tikinti işlərinə sərf edilmişdir.

İaşə dövriyyəsinin həcmi 16,5 faiz artıb

Dövlət Statistika Komitəsinin son məlumatına görə, cari ilin yanvar-mart aylarında iaşə dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 16,5 faiz artaraq 187,6 milyon manat olmuşdur. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 47 faizi hüquqi şəxs statuslu müəssisələrin, 53 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyənin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,2 faiz artaraq 86,3 milyon manat təşkil etmişdir.

532,4 milyon manat həcmində məhsul istehsalı

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən üç ay ərzində 532,4 milyon manat həcmində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Ötən ilin yanvar-mart ayları ilə müqayisədə sahədə 1,6 faizlik artım əldə olunmuşdur. Su təchizatı tullantılarının təmizlənməsi və emalı bölməsində məhsul və xidmətlərin istehsalı 17 faiz artırmışdır.

Heydər Əliyev Mərkəzinin binası üzərində videoinstallyasiya nümayiş etdirilmişdir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 27-də Heydər Əliyev Mərkəzinin binası üzərində videomappinq-installyasiya nümayiş etdirilmişdir.

İnstallyasiyanın süjeti Azərbaycan incəsənətini əhatə etmişdir.

Paytaxt sakinləri 15 dəqiqəlik şou ərzində Qobustan qayaüstü rəsmlərinin yarandığı dövrdən bu günədək Azərbaycan incəsənətinin müxtəlif dövrlərinə səyahət etmiş, ən mühüm hadisələri, ən maraqlı və dəyərli sənət nümunələrini bu müasir audio-vizual formatda izləmişlər.

Müasir audio-vizual formatda təqdim olunan görüntülər, o cümlədən Azərbaycan xalçaları, Dədə Qorqud, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Mirzə Fətəli Axundzadə, Xurşidbanu Natəvan, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Bülbül, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tahir Salahov, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin görüntüləri böyük maraqla izlənilmişdir.



İnstallyasiya tanınmış pianoçu və bəstəkar, Əməkdar Artist İsfar Sarabskinin musiqisi ilə müşayiət olunmuşdur.

Videoinstallyasiya "Hypnotica Visual Performance" komandası tərəfindən təqdim edilmişdir. ■

Heydər Əliyev Mərkəzində dünya şöhrətli skripkaçı İtzhak Perlmanın görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr edilmiş konserti olmuşdur

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Heydər Əliyev Mərkəzində dünya şöhrətli skripkaçı, 15 "Qremmi" və 4 "Emmi" mükafatı laureatı İtzhak Perlmanın konserti olmuşdur.

Klassik musiqi gecəsi görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr edilmişdir.

İtzhak Perlman Bakı tamaşaçıları qarşısında məşhur pianoçu Rohan de Silvanın müşayiəti ilə çıxış etmişdir.

Klassik musiqi gecəsində dahi bəstəkarlar Lüdviq van Bethovenin, RixardŞtrausun və Klod Debüssinin ölməz əsərləri təqdim olunmuşdur.

İtzhak Perlman 1945-ci ildə İsraildə doğulmuş, ABŞ-ın incəsənət sahəsində ən böyük tədris müəssisələrindən olan Culyard Məktəbində təhsil almışdır. 1964-cü ildə Amerikada akademik musiqi ifaçıları arasında keçirilən nüfuzlu Leventrit Müsabiqəsinin qalibi olmuş və bu, onun gələcək karyerasına əhəmiyyətli təsir göstərmişdir. Virtuoz skripkaçı həmin vaxtdan məşhur orkestrlərlə və solo konsertlərlə dünyanı dolaşır. İtzhak Perlman indiyədək müxtəlif ölkələrin mötəbər salonlarında, o cümlədən ABŞ-ın Kennedi Mərkəzində, bir neçə dəfə Ağ Evdə çıxış etmişdir.

Dünya şöhrətli musiqiçi həm də dirijorluğu ilə tamaşaçıları heyran etmişdir. Nyu-York Filarmoniyası, Filadelfiya orkestrləri, Los Anceles Filarmoniyası, Çikaqo, Boston, San-Fransisko, Sent-Luis, Dallas, Hyuston, Pitsburq, Sietl, Monreal və Toronto simfonik orkestrləri ilə konsertlər vermiş, habelə Ravinia və Tanqlvud festivallarında çıxış etmişdir.

Məşhur pianoçu Rohan de Silva Londonda Kral Musiqi Akademiyasında, ABŞ-da Culyard Məktəbində təhsil almışdır. O, 1990-cı ildə Moskvada keçirilən IX Beynəlxalq Çaykovski Müsabiqəsində ən yaxşı müşayiətçi qismində xüsusi mükafatla təltif olunmuşdur.

Rohan de Silva 1992-ci ildə Kral Musiqi Akademiyasının fəxri müxbir üzvü adına layiq görülmüşdür. Pianoçu Yaponiyanın İşikava Musiqi Akademiyasında ümumi fortepiano üzrə ustad dərsləri keçmiş, 2000-2007-ci illərdə Perlman Musiqi Proqramında iştirak etmişdir.

Rohan de Silva İtzhak Perlman, Pinkas Zukerman, Ço-Lianq Lin, Midori, Coşua Bel, Benni Kim, Kyoko Takezava, Vadim Pepin, Gil Şaham, Nadya Salerno-Sonnenberq və Yulian Raxlin kimi virtuoz skripka ifaçıları ilə birlikdə dünyanın çox ölkələrində çıxış edərək tamaşaçı rəğbəti qazanmışdır.

Heydər Əliyev Mərkəzində dünya şöhrətli skripkaçı İtzhak Perlmanın konserti alqışlarla qarşılanmışdır. ■

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2014-cü ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

CƏDVƏLİ

Mərkəzi İH orqanı	Qəbul günü	Qəbulun keçirildiyi şəhər	Əhatə olunan şəhər və rayonlar
Qərib Məmmədov Dövlət torpaq və xəritəçəkmə komitəsinin sədri	01	Şirvan	Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad
Mikayıl Cabbarov Təhsil naziri	05	Salyan	Salyan, Neftçala, Hacıqabul, Kürdəmir, Biləsuvar
Zakir Qaralov Baş prokuror	16	Cəlilabad	Cəlilabad, Biləsuvar, Cəbrayıl, İmişli, Neftçala
Ziya Məmmədov Nəqliyyat naziri	16	Qax	Qax, Zaqatala, Balakən
Oqtay Şirəliyev Səhiyyə naziri	16	Quba	Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Sumqayıt, Qubadlı
Məleykə Abbaszadə Tələbə qəbulu üzrə dövlət komissiyasının sədri	16	İsmayıllı	İsmayıllı, Qəbələ, Şamaxı, Qobustan
Elşad İskəndərov Dini qurumlarla iş üzrə dövlət komitəsinin sədri	17	Qazax	Qazax, Gəncə, Şəmkir, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan
Elman Mehdiyev Dövlət sosial müdafiə fondunun sədri	21	Zərdab	Zərdab, Ağcabədi, Bərdə, Tərtər, Ağdam, Beyləqan, Xocavənd, Xocalı, Laçın, İmişli, Füzuli
Fazil Məmmədov Vergilər naziri	22	Göyçay	Göyçay, Ağdaş, Ucar, Kürdəmir
Elçin Quliyev Dövlət sərhəd xidmətinin rəisi	22	Lənkəran	Lənkəran, Astara, Lerik, Yardımlı
Arzu Rəhimov Səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinin rəisi	22	İmişli	İmişli, Beyləqan, Füzuli, Ağcabədi, Ağdam
Fikrət Məmmədov Ədliyyə naziri	23	Bərdə	Bərdə, Ağcabədi, Xankəndi, Ağdam, Laçın
Azad Rəhimov Gənclər və idman naziri	23	Şəmkir	Şəmkir, Gəncə, Naftalan, Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Daşkəsən, Göygöl, Samux, Goranboy
Şahin Mustafayev İqtisadiyyat və sənaye naziri	23	Ağdam	Ağdam, Ağcabədi, Xocavənd
Heydər Əsədov Kənd təsərrüfatı naziri	23	Şamaxı	Şamaxı, İsmayıllı, Qəbələ, Ağsu, Qobustan, Abşeron
Kərəm Həsənov Əmlak məsələləri dövlət komitəsinin sədri	23	Quba	Quba, Qusar, Xaçmaz, Şabran
Əli Abbasov Rabitə və yüksək texnologiyalar naziri	24	Siyəzən	Siyəzən, Şabran, Xızı
Hüseynqulu Bağırov Ekologiya və təbii sərvətlər naziri	30	İsmayıllı	İsmayıllı, Şamaxı, Ağsu, Qobustan
Səlim Müslümov Əmək və əhalinin sosial müdafiəsi naziri	30	Salyan	Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl
Kəmaləddin Heydərov Fövqəladə hallar naziri	30	Lerik	Lerik, Lənkəran, Astara, Masallı, Yardımlı, Cəlilabad
Əbülfəs Qarayev Mədəniyyət və turizm naziri	30	Şəmkir	Şəmkir, Gəncə, Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Kəlbəcər
Hicran Hüseynova Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin sədri	30	Şəki	Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən
Aydın Əliyev Dövlət gömrük komitəsinin sədri	30	Xaçmaz	Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən
Ramil Usubov Daxili işlər naziri	31	Bərdə	Bərdə, Ağcabədi, Laçın, Tərtər, Ağdam, Şuşa, Beyləqan, Xocavənd, Füzuli, Goranboy, Xocalı, Naftalan

Suraxanı rayonunun Bülbülə qəsəbəsində ölümlə nəticələnən yanğın hadisəsi ilə bağlı istintaq davam etdirilir

Bakı, 28 aprel (AzərTAc). Aprelin 26-da saat 08:00 radələrində Suraxanı rayonunun Bülbülə qəsəbəsində Mehdiyev Natiq Qeyis oğluna məxsus evdə baş vermiş yanğın nəticəsində 1989-cu il təvəllüdlü Soltanov Sadiq Arazxan oğlunun ölməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunun əməkdaşları tərəfindən məhkəmə-texniki təhlükəsizlik, məhkəmə-tibbi ekspertlərinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının iştirakı ilə hadisə yeri müayinə olunmuş, zəruri materiallar götürülmüş və mərhumun meyiti Səhiyyə Nazirliyinin "MTE və PA" Birliyinin Suraxanı rayon şöbəsinə göndərilmişdir.

Bakı Şəhər Baş Polis İdarəsi və Şəhər Prokurorluğunun daxil olmuş birgə məlumatında bildirilir ki, S.Soltanovun qəsdən öldürülməsində şübhələr üçün əsaslar olduğundan həmin faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, iş üzrə müvafiq ekspertizalar təyin edilmişdir.

İstintaqın tam, hərtərəfli və obyektiv araşdırılması məqsədilə Alyarova Gülnarə Allahyar qızının S.Soltanov tərəfindən 2014-cü il 10 aprel tarixdə zorlanması barədə ərizəsi əsasında Binəqədi Rayon Prokurorluğunda, eləcə də S.Soltanovun dələduzluq yolu ilə özgə əmlakını ələ keçirməsi barədə vətəndaşların müraciətləri əsasında Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsində toplanmış materiallar həmin cinayət işinə əlavə edilmişdir.

Hazırda iş üzrə Bakı Şəhər Prokurorluğunda istintaq davam etdirilir. ■

Şəmkirdə Azərbaycan qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr olunmuş turnirin səkkizinci turunun partiyaları oynanılır

Şəmkir, 28 aprel (AzərTAc). Aprelin 28-də Şəmkirdə Vüqar Həşimov xatirə turnirinin səkkizinci turunun partiyaları oynanılır.

"A" turnirində Şəhriyar Məmmədyarov (Azərbaycan) - Hikaru Nakamura (ABŞ), Fabiano Karuana (İtaliya) - Teymur Rəcəbov (Azərbaycan), Maqnus Karlsen (Norveç) - Sergey Karyakin (Rusiya) partiyaları oynanılır.

Yeddi turdan sonra turnir cədvəlində vəziyyət belədir: M.Karlsen - 4,5 xal, T.Rəcəbov - 4 xal, S.Karyakin , F.Karuana - hərəyə 3,5 xal, H.Nakamura - 3 xal, Ş.Məmmədyarov - 2,5 xal.

"B" turnirində aşağıdakı şahmatçılar qarşılaşırlar: Pavel Elyanov (Ukrayna) - Qədir Hüseynov (Azərbaycan), Eltac Səfərli (Azərbaycan) - Van Xao (Çin), Aleksandr Motılyov (Rusiya) - Etyen Bakro (Fransa), Radoslav Voytaşek (Polşa) - Nicat Abbasov (Azərbaycan), Vasif Durarbəyli - Rauf Məmmədov (hər ikisi Azərbaycan).

"B" qrupunda vəziyyət belədir: E.Bakro, P.Elyanov - hərəyə 4,5 xal, Van Xao, R.Voytaşek, Q.Hüseynov - hərəyə 4 xal, A.Motılyov - 3,5 xal, N.Abbasov, R.Məmmədov - hərəyə 3 xal, V.Durarbəyli - 2,5 xal, E.Səfərli - 2 xal.

Turnir aprelin 30-dək davam edəcəkdir. ■

❑ PUTİN: ƏLAQƏLƏRİN KƏSİLMƏSİNDƏN KİYEV ZƏRƏR ÇƏKƏCƏK

Rusiya sahibkarları ilə əlaqələrin kəsilməsi, yəqin ki, Ukrayna müdafiə-sənaye kompleksi (MSK) üçün fəlakətli olacaq. "BBC" agentliyinin məlumatına görə, bu barədə Rusiya prezidenti Vladimir Putin aprelin 28-də bəyan edib.

Bazar ertəsi federal və regional parlamentlərin rəhbərləri ilə görüşdə Rusiya prezidenti deyib: "Ukrayna MSK-nın rusiyalı tərəfdaşları ilə əlaqələrinin kəsilməsi, çox ehtimal, faciə ilə nəticələnəcək. Buna səbəb onların başqa satış bazarlarının olmamasıdır. Yeganə istehlakçı yalnız Rusiya silahlı qüvvələridir".

Vladimir Putin həmçinin bəyan edib ki, Rusiya hazırda Ukraynadan tədarük edilən hərbi məhsulların istehsalını bir neçə il ərzində özündə təşkil etməyə qadirdir.

Prezident eyni zamanda məsələnin Ukrayna ilə MSK sahəsində kooperasiya əlaqələrinin pozulması həddinə çatmayacağına ümid etdiyini vurğulayıb.

"Ümid edirik ki, iş bu kooperasiya əlaqələrinin qırılmasına çatmaz, hərçənd bu gün tam həcmdə tədarük edilmir. Biz müvafiq hökumət qurumlarının bu tədarüklərin dayandırılmasının şahidi oluruq", - deyə Rusiya prezidenti bəyan edib.

Qeyd edək ki, daha əvvəl Ukrayna hakimiyyət nümayəndələri Rusiya ilə hərbi əməkdaşlığın dayandırılmasını planlaşdırdıqlarını bildiriblər.

Bununla yanaşı, bazar ertəsi ABŞ Rusiya Federasiyasının yeddi yüksək vəzifəli vətəndaşı və 17 şirkətinə qarşı sanksiyalar tətbiq etdiyini açıqlayıb. Ağ Evin mətbuat katibi Cey Karni sanksiyaların Krımın Rusiya tərəfindən ilhaqı və Moskvanın Ukrayna ilə bağlı mövqeyi ilə əlaqədar tətbiq olunduğunu açıqlayıb.

❑ MƏHƏMMƏD MURSİNİN DAHA 683 TƏRƏFDARINA ÖLÜM CƏZASI KƏSİLİB

Misirdə "Müsəlman qardaşları" hərəkatı tərəfdarlarının məhkəmə prosesi başa çatıb. 683 adam, o cümlədən hərəkatın lideri Məhəmməd Badi aprelin 28-də ölüm cəzasına məhkum edilib. Hakimiyyətdən gizlənən M.Badiyə ölüm cəzası qiyabi olaraq kəsilib. Bu barədə "BBC" agentliyi xəbər verib.

Ölüm cəzasına məhkum edilənlər polis məntəqələrinə hücumlar və polis əməkdaşlarının qətlə yetirilməsi ilə bağlı ittiham edilirlər.

"Human Rights Watch"dan olan hüquq müdafiəçilərinin məlumatına görə, ittiham olunanların vəkillərinə dinləmələr gedişində çıxış etməyə imkan verilməyib.

Məhkəmə həmçinin martın 24-də çıxarılmış hökmü də nəzərdən keçirib və müvafiq olaraq devrilmiş prezident Məhəmməd Mursinin 529 tərəfdarına da ölüm cəzası kəsilib. Yeni qətnaməyə əsasən ittiham olunanların əksəriyyətinin ölüm hökmü ömürlük həbslə əvəz edilib.

Beynəlxalq siyasi-dini assosiasiya olan "Müsəlman qardaşları" hərəkatının məqsədi cəmiyyətin islamlaşdırılması və islam dövlətinin yaradılmasıdır. Məhəmməd Mursi tərəfdarlarının kütləvi iğtişaşları və polis məntəqələrinə hücumları 2013-cü il avqustun 13-də Misir hakimiyyətinin Mursiyə dəstək aksiyalarında iştirak edən "Müsəlman qardaşları"nın bir neçə düşərgəsi dağıdılan zaman baş verib.

Məhəmməd Mursi tərəfdarları hərbçilərin iyulun 3-də hakimiyyətdən uzaqlaşdırılaraq həbs edilən keçmiş prezidentinin səlahiyyətlərinin bərpasını tələb edirdilər. Məhəmməd Mursi casusluqda və sui-qəsddə ittiham edilirdi. Onunla birlikdə "Müsəlman qardaşları"nın liderləri də həsb edilmişdi.

❑ İTMİŞ TƏYYARƏNİN AXTARIŞLARI SƏKKİZ AYA QƏDƏR UZADILACAQ

Avstraliyanın baş naziri Toni Ebbot bildirib ki, Malayziya Hava Yolları şirkətinə məxsus itmiş "Boinq-777" təyyarəsinin axtarışları yeni fazaya daxil olur.

Baş nazirin aprelin 28-də mətbuat konfransında xəbər verdiyi kimi, mütəxəssislər itmiş laynerin axtarışlarını Hind okeanının nəzərdən kənarda qalan hissələrində aparacaqlar. Bu barədə "Röyters" agentliyi xəbər verib.

Toni Ebbot deyib: "Hazırda axtarış aparıldığı sektorda təyyarənin hissələrinin tapılması inandırıcı görünmür. Axtarışların yeni fazası zamanı okeanın daha böyük sektoru əhatə ediləcək".

Baş nazirin sözlərinə görə, təxminən 56 min kvadratmetr sahənin yoxlanılması lazım gələcək. Əməliyyat altı aydan səkkiz aya qədər davam edəcək.

Bundan başqa, Ebbot qeyd edib, indi axtarış əməliyyatlarında daha təkmilləşdirilmiş, güclü və effektli hidrolokatorlardan istifadə ediləcək.

Mütəxəssislər daha öncə "Bluefin-21" sualtı robot tətbiq ediblər. Bu robot təxminən 15 dəfə su altına ensə də, itmiş avialaynerə aid heç bir iz tapa bilməyib.

Xatırladaq ki, Kuala-Lumpurdan Pekinə uçan "Malaysia Airlines" aviaşirkətinə məxsus "Boinq-777" təyyarəsi martın 8-nə keçən gecə radarların ekranlarından itib.

Təyyarənin göyərtəsində 227 sərnişin və 12 ekipaj üzvü olub. Malayziya hakimiyyəti bəyan edib ki, ehtimala görə hava gəmisi Hind okeanının cənub hissəsinə düşüb. Buna sübut peyk məlumatlarının analizidir.

❑ SURİYADA HƏLƏ DƏ 8 FAİZ KİMYƏVİ SİLAH QALMAQDADIR

Bəşər Əsəd rejiminin əlindəki kimyəvi silahların ölkə xaricinə aparılması üçün təyin olunan vaxtın sona çatmasına baxmayaraq, silahların 8 faizinin hələ də Suriyada olduğu bildirilib. Bu barə "TRT" xəbər yayıb.

BMT və Kimyəvi Silahların Qadağan Edilməsi Təşkilatının koordinatoru Siqrid Kaaq Bəşər Əsəd rejiminin əlindəki kimyəvi silahların 92 faizinin ölkə xaricinə nəql edildiyini, qalan 8 faizinin isə ölkə daxilində olduğunu vurğulayıb.

Suriyanın rəsmi xəbər agentliyi "Sana"nın məlumatına görə, Siqrid Kaaq Dəməşqdə təşkil etdiyi mətbuat konfransında bildirib ki, Suriyadakı kimyəvi silahların 92 faizi uğurla ölkədən çıxarılıb. Bunların məhv edilmsinə dair proses daha əvvəl müəyynləşdirildiyi kimi, 30 iyuna qədər tamamlanmalıdır.

Siqrid Kaaq qeyd edib ki, bu mərhələdə ən əhəmiyyətli vəzifə silahların qalan 8 faizinin də Suriyadan daşınmasıdır. Onun sözlərinə görə, silahların təhlükəli qrupların əlinə keçmə riski, ancaq hamısı ölkədən çıxarıldıqdan sonra aradan qaldırıla bilər.

❑ RUSİYA ÖZ İNTERNET ŞƏBƏKƏSİNİ YARATMAQ İSTƏYİR

Rusiyada interneti əvəzləyəcək ölkədaxili kommunikasiya şəbəkəsinin yaradılması təklif olunub. "APA"nın verdiyi məlumata görə, bu təkliflə Rusiya Federasiya Şurasının üzvü Maksim Kavcaradze çıxış edib.

Senator yeni yaradılacaq şəbəkənin ABŞ və Avropa Birliyinin üzünə qapalı olmasının vacibliyini vurğulayıb.

Maksim Kavcaradze deyib: "Yeni kommunikasiya sistemini "Çeburaşka" adlandırmaq olar. Sistemin maliyyələşdirilməsi isə regionların hesabına mümkündür. Biz ABŞ-ın qanadları altından çıxmaq üçün Rusiyadaxili informasiya sisteminin yaradılması barədə fikirləşməliyik. Əks təqdirdə, məlumat sızması davam edəcək".

M.Kavcaradzenin fikrincə, Rusiya bu sistemi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (Belarus, Ermənistan, Qazaxıstan, Tacikistan, Qırğızıstan) üzv ölkələri və ya Asiya-Sakit okean regionu ölkələri ilə yarada bilər: "Bizim nazirlər "Facebook"da, "Twitter"də hara getdiklərini, harada olduqlarını yazırlar. Kimsə də serverdə həmin informasiyaları yığır. Yeni kommunikasiya sisteminin yaradılması informasiya təhlükəsizliyi məsələsidir".

❑ MERS VİRUSU TƏHLÜKƏSİ ARTMAQDA DAVAM EDİR

MERS virusu Yaxın Şərq ölkələrini təsiri altına almaqda davam edir. Virus indi də Misirdə təhlükə yaratmağa başlayıb. Bu barədə "TRT" xəbər verib.

Misirin Səhiyyə Nazirliyi Səudiyyə Ərəbistanıda fəhlə işləyən 27 yaşlı birinin, Misirə qayıtdıqdan sonra xəstələndiyini və aparılan tədqiqatlar nəticəsində gəncdə MERS virusunun aşkarlandığını bildirib.

Səudiyyə Ərəbistanıda daha 8 nəfərin həyatını itirməsindən sonra bu xəstlikdən ölənlərin sayı artıq 102 nəfərə çatıb. Xəstəxanalarda müalicə qəbul edənlərin sayı isə 329-a çatıb.

Xəstəlik aprel ayında 70 faiz artdığı üçün Səudiyyə Ərəbistanı kralı Abdullah tənqidlərinə məruz qalan səhiyyə nazirini vəzifəsindən kənarlaşdırıb. ■

Nümunəvi incəsənət məktəbi

Sumqayıt Şəhər Mədəniyyət və Turzim İdarəsinin tabeliyində olan Əhməd Bakıxanov adına Uşaq İncəsənət Məktəbi təkcə Hacı Zeynalabdin Tağıyev qəsəbəsində deyil, eyni zamanda respublikamızın qabaqcıl və nümunəvi incəsənət məktəblərindən biridir. Sumqayıt Mədəniyyət və Turizm İdarəsinin rəisi Namiq Qafarovla söhbət edərkən o, bildirdi ki, bu məktəbin fəaliyyəti bir çox incəsənət məktəbləri üçün nümunə ola bilər.

3 mərtəbəli, 28 sinif, 5 inzibati otaqdan ibarət olan bu məktəb indi Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yaşayan uşaqların ən sevimli məkanlarından biridir. Bu məktəb onların hərtərəfli etik və estetik zövqlərinin formalaşmasında da böyük rol oynayır. Məktəbin çoxsaylı pedaqoji kollektivi uşaqların mənəvi inkişafı üçün əlindən gələni edir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, indi bu məktəbdə 360 şagirdə 94 nəfər müəllim dərs deyir. Məktəbdə 10 ixtisas üzrə dərs tədris olunur. Uşaqlar burada fortepiano, skripka, tar, kamança, qarmon, klarnet, nağara, xanəndəlik, rəsm və xoreoqrafiya sənətinin sirlərinə yiyələnirlər. Onu da qeyd etmək lazımdır ki, burada respublikamızın tanınmış sənətkarları dərs deyirlər. Elə bu nailiyyətlərin nəticəsidir ki, məktəbi bitirən məzunların əksəriyyəti musiqi və incəsənət təmayüllü ali və orta ixtisas yönümlü məktəblərə qəbul olurlar. Bu gün məktəbdə dərs deyən müəllimlər kontingenti bunu bir daha sübut edir.

Məktəb qəsəbənin, həm də Sumqayıt şəhərinin bütün kütləvi tədbirlərində yaxından iştirak edir. Misal üçün, məktəb Sumqayıt şəhəri və H.Z.Tağıyev qəsəbəsində keçirilən "Musiqi günü" adlı tədbirdə böyük konsert proqramı ilə çıxış etmişdir. Konsertdə məktəbin xalq çalğı alətləri orkestri Ü.Hacıbəyovun, S.Ələsgərovun, S.Rüstəmovun, F.Əmirovun, T.Quliyevin və digər bəstəkarların əsərlərini ustalıqla səsləndirmişlər. Bundan başqa Qurban bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il bayramı, Novruz günü münasibətilə keçirilən tədbirlərdə məktəbin rəqs ansamblının, xalq çalğı alətləri ansamblının çıxışları ilə yanaşı, məktəblilərin rəsm əsərləri də nümayiş etdirilmişdir.

Müəllim Günü, Milli Dirçəliş Günü, Gənclər Günü, bəstəkarlar Süleyman Ələsgərov və Şəfiqə Axundovanın 90 illiyi, məşhur rus bəstəkarı Mixail İvanoviç Qlinkanın 210 illiyi münasibətilə keçirilən tədbirlər də çox uğurlu keçmişdir.

Məktəbin rəssamlıq şöbəsi də bir çox nailiyyətlərə imza atmışdır. Kiçik rəssamların əl işləri Yaponiya, Özbəkistan, İspaniya, Çex Respublikası və Polşada keçirilən müsabiqə və sərgilərdə müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Rəssamlıq şöbəsində təhsil alan uşaqların əl işləri qəsəbədəki ümumtəhsil məktəblərində də daim müvəffəqiyyətlə nümayiş etdirilir.

Uşaqların əl işlərindən ibarət əsərləri "Qızıl payız", "20 Yanvar", "Xocalı —qan yaddaşımız" və "Gözəl bahar" mövzusunda təşkil olunmuş tədbirdə böyük uğurlar qazanmışdır.

Daha böyük uğurlar qazanmaq üçün məktəbdə təhsil yaradıcılıq işi davam etdirilir.

Zabit CAVADOV,
"Respublika".

Yeni layihə: "Uğurlu rəqəm" lotereyası Alın və həmin anda uduş sevinci yaşayın!

"Avto Sürpriz 2014" lotereya həvəskarlarının ixtiyarına verilən yeganə ani lotereya deyil. "Azərlotereya"nın daha bir layihəsi olan "Uğurlu rəqəm" lotereyası ilk gündən istehlakçıların xüsusi marağına səbəb olub. Məsələ burasındadır ki, indiyədək, Azərbaycan lotereya bazarında bütün ani lotereyalar "bir bilet - bir uduş" formatında idi.

"Uğurlu rəqəm" lotereyasında isə bir lotereya bileti ilə bir an içərisində bir neçə uduşa sahib olmaq olar. Bu lotereyada biletlərin üzərində "uğurlu rəqəm" və "oyun xətləri" zonaları "Avto Sürpriz 2014" lotereya bileti üzərində olan iki zonadan mahiyyətcə fərqlidirlər. "Oyun xətləri" zonası iki - sol və sağ sütundan ibarətdir. Lotereya biletlərinin üzərində yerləşən üstüörtülü "uğurlu rəqəm" və "oyun xətləri"nin qoruyucu səthini pozmaq lazımdır. "Uğurlu rəqəm" zonasında yazılan rəqəm "oyun xətləri"nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği və ya mükafatı udmuş olur. "Uğurlu rəqəm" lotereyasının unikallığı ondadır ki, bilet bir neçə xətt üzrə uduşlu olsa, uduşlar cəmlənir.

Konkret olaraq uduşlara gəldikdə isə "Uğurlu rəqəm" lotereyası 1 manat, 2 manat, 5 manat, 10 manat, 20 manat, 50 manat, 100 manat, 200 manat, 1000 manat olmaqla 117 min 685 pul uduşundan savayı, iki iştirakçını Chevrolet "Aveo" və bir iştirakçını isə Subaru "Forester" avtomobilinə sahib edəcək. "Uğurlu rəqəm" lotereyasının istehlakçılarına biletlərin üz tərəfində xüsusi lövhədə əks olunan "Pozmaq olmaz" qadağasına ciddi yanaşmağı tövsiyə edirik.

Çoxsaylı pul uduşları populyarlığı artıran amillərdən biridir. İştirakçıların avtomobillərə sahib olması hər gün, hər an gözlənilir. Hazırda lotereya bazarında təkcə ani lotereyalar deyil, bütün lotereyalar sanki uduş yarışına giriblər. "Binqo"da bəxtini sınayan Kürdəmir sakini Sabir İsmayılov Chevrolet "Aveo" avtomobilinə sahib oldu. "Klassik Loto"dan Nissan "Sunny" avtomobili Quba sakini Araz Əspəndiyevin, "Super Loto"dan isə Kia "Rio" avtomobili Naxçıvandan Xəyal Hüseynovun qismətinə düşdü.

İntellektualların sevimli lotereyaları "5/36" və "6/40" lotereyaları aprel ayında da çoxsaylı pərəstişkarlarını həyəcan içərisində saxlayıblar. **Aprelin 11-də "5/36" lotereyasının 37 min 925 manata yüksəlmiş "Cek Pot"u yenidən uduldu.** Ayın ilk yarısında 7 iştirakçı 5 rəqəm kombinasiyasını düzgün müəyyənləşdirmiş və "Cek Pot"un bir addımlığında dayansalar da, sanballı pul uduşlarına sahib olublar. 4375 manat udan Polad Novruzov, 4900 manat udan Əmrah Mehdiyev, 5250 manat və 5950 manata sahib olan Rüstəm İlyasov və Toğrul Məmmədhəsənov inanırlar ki, nə vaxtsa "Cek Pot"a sahib olacaqlar.

"6/40" lotereyasının "Cek Pot"u isə artıq 240 min manatlıq həddi keçib. Bu böyük uduş öz sahibini gözləyir. Kimin qismətidir bu uduşlar? Bəlkə də sənin?!...

BİLDİRİŞ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Böyük İpək Yolu və Azərbaycan", "Qarabağ", "Azərbaycan xalçaları" kitabçalarının, turist marşrutları üzrə kitabçanın, turistlər üçün məlumat kitabçasının, Bakı şəhəri piyada marşrutları sxeminin, Azərbaycan turist marşrutları sxeminin, "Almanlar Azərbaycanda" kitabçasının və kağız torbaların alınması ilə bağlı təkliflər sorğusu elan edir.

Təkliflər 02 may 2014-cü il saat 11:00-dək qəbul edilir.

Tel.: 492 87 13

Tender Komissiyası.

Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində

Azərbaycan İpoteka Fondu elan edir ki, Azərbaycan İpoteka Fondunun bir sıra informasiya sistemlərinə, server və şəbəkə avadanlıqlarına 2014-cü ildə dəstək xidmətinin göstərilməsi üzrə xidmətlərin alınması ilə bağlı Açıq tender başa çatmış və açıq tenderin 1-ci, 3-cü, 4-cü və 6-cı lotları üzrə satınalma qanunvericiliyə əsasən baş tutmamış elan edilir.

Məsələ ilə bağlı əlavə məlumat almaq üçün 441-24-23 nömrəli telefona zəng etməklə əlaqələndirici şəxs M.Hacıyevə (daxili nömrə 133) müraciət etmək olar.

Tender Komissiyası.

Azərbaycan Milli Elmlər Akademiyası akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu aşağıdakı vəzifələri tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

"Səthi aktiv reagentlər və preparatlar" laboratoriyası üzrə

Baş elmi işçi 1ştat vahidi

"Heterogen kataliz" loboratoriyası üzrə

Baş elmi işçi 1ştat vahidi

"Korroziya inhibitorları və konservasiya materialları" laboratoriyası üzrə

Aparıcı elmi işçi 1ştat vahidi

"Neft-qaz çıxarma və emalı sənayeləri üçün kimyəvi reagentlərin texnologiyası" laboratoriyası üzrə

Böyük elmi işçi 1ştat vahidi

"Polimerləşmə katalizi" laboratoriyası üzrə

Böyük elmi işçi 1ştat vahidi

Müsabiqədə fəlsəfə və elmlər doktorluğu elmi dərəcəsi və yuxarıda göstərilən elm sahələrində böyük təcrübəsi olan elmi işçilər iştirak edə bilər.

Sənədlər müsabiqənin müvafiq tələblərinə uyğun olaraq bu ünvana göndərilməlidir.

Az1025, Xocalı prospekti, 30

Tel: 490-24-76, əlavə 117

Müsabiqənin müddəti - elanın çap olunduğu gündən etibarən 1 aydır.

MÜDRİYYƏT.

Mingəçevir Şəhər İcra Hakimiyyəti 2014-cü ildə Mingəçevir şəhərində məktəblərin əsaslı təmiri işlərinin yerinə yetirilməsi məqsədilə

TƏKRAR

AÇIQ TENDER ELAN EDİR

Lot-1. Mingəçevir şəhərində 2014-cü ildə 1 N-li tam orta məktəbin əsaslı təmiri

Lot-2. Mingəçevir şəhərində 2014-cü ildə 7 N-li tam orta məktəbin əsaslı təmiri

Lot-3. Mingəçevir şəhərində 2014-cü ildə 9 N-li tam orta məktəbin əsaslı təmiri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun tolaraq, yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, analoji işlərdə təcrübəsi, istehsal texniki imkanları, maliyyə vəziyyəti, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxslə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Mustafayev Səfər Mustafa oğlu, telefon: (0147) 5-41-95) ala bilərlər.

Lot-1 — 185 manat
Lot-2 — 185 manat
Lot-3 — 185 manat
Təşkilat: Mingəçevir Şəhər İcra Hakimiyyətinin Əsaslı Tikinti, Təmir və Abadlaşdırma Şöbəsi
Hesab: AZ-21 AIIB 33010019442900225129
VÖEN: 2700120241
Bank: Kapital Bankın Mingəçevir filialı
Kodu: 200297
VÖEN: 9900003611
Müxbir hesabı: AZ37 NABZ 01350100000000001944
S.W.I.F.T. AIIBAZ 2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün yazılı müraciət;

—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);

—tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);

—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışlar tender komissiyasının adına olmalıdır);

—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma-1, forma-2);

—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

—iddiaçının gördüyü analoji işlər haqqında məlumat;

—iddiaçılar iş qrafikini təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti, iş qrafikləri istisna olmaqla) 21 may 2014-cü il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 04.06.2014-cü il saat 18.00-a qədər, Mingəçevir Şəhər İcra Hakimiyyətinə (ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi 146, otaq 8) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 iyun 2014-cü il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

BİLDİRİŞ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycan Turizm İnstitutu", "Lahıc", "Qırmızı Qəsəbə", "Nic", "İvanovka", "Xınalıq", "Qusar" və "Masallı" kitabçalarının alınması ilə bağlı təkliflər sorğusu elan edir.

Təkliflər 02 may 2014-cü il saat 11:00-dək qəbul edilir.

Tel.: 492 87 13

Tender Komissiyası.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Silahlı Qüvvələrin baş Klinik Qospitalı dərman preparatlarının və sarğı materiallarının satınalınmasını kotirovka sorğusu üsulu ilə həyata keçirir. Təkliflər 5 may 2014-cü il saat 11:00-a kimi qəbul olunur.

Ünvan: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi-3

Tender Komissiyası.

Qusar Rayon Mədəniyyət və Turizm Şöbəsi 2014-cü il üçün cari təmir işlərinin aparılması məqsədilə

TƏKRAR

AÇIQ TENDER ELAN EDİR

Tender 1 lot üzrə keçirilir
221320—Cari təmir

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən işlər üzrə öz yazılı tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlanmış zərfdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət və müqavilənin vaxtında yerinə yetirilməsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Şeydayeva Reyhan. Tel.: 385-24-36. Qusar şəhəri, M.Əbilov meydanı, 1. Qusar Rayon Mədəniyyət və Turizm Şöbəsi.

Tenderdə iştirak etmək istəyənlər lot üçün əsas şərtlər toplusunu aşağıdakı məbləği köçürdükdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı — 100 manat
Təşkilat: Qusar Rayon Mədəniyyət və Turizm Şöbəsi
Adı: "Kapital Bank" Qusar filialı
Kodu: 200480
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
S.W.I.F.T. BIK: AIIBAZ 2X
Qusar Yerli Xəzinədarlıq Orqanı
Hesablaşma hesabı:
AZ17AIIB32051019444800201148
VÖEN: 4700077491

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Şərtlər toplusu Azərbaycan dilində hazırlanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün yazılı müraciət;

—iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

—iddiaçının nizamnaməsi (surəti), fəaliyyət növü haqqında məlumat, hüquqi statusu və rekvizitləri;

—təklif olunan işlərin yerinə yetirilməsi üçün texniki və maliyyə imkanlarının mövcudluğu barədə məlumat;

—ehtimal olunan tender qiymətinin iki faizi həcmində bank zəmanəti;

—vergi orqanlarına və Sosial Müdafiə fonduna borcların olmaması barədə müvafiq arayış;

—tender təklifi (tender zərfləri açıldıqdan sonra 30 bank güünü qüvvədə olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar yuxarıda göstərilən sənədləri (tender təklif və bank təminatı istisna olmaqla) 23 may 2014-cü il saat 17:00-dək, tender təkliflərini və bank təminatını isə 05 iyun 2014-cü il saat 17:00-dək təqdim edə bilərlər.

Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06 iyun 2014-cü il saat 11:00-da Qusar rayon M.Əbilov meydanı 1 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

İsmayıllı Rayon Təhsil Şöbəsi 2014-cü ildə inventarın satınalanması ilə əlaqədar

TƏKRAR

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.
Lot-1. İnventarın alanması

Tenderdə iştirak etmək üçün iddiaçılar 80 (səksən) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender Komissiyasından ala bilərlər.

Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/H: AZ 41 NABZ 01360100000000003944
S.W.I.F.T. STRERAZ22
Alan Təşkilat: İsmayıllı Rayon Təhsil Şöbəsi
Hesab: AZ56 CTRE00000000000000216163
VÖEN: 5400050601
Büdcə təsnifatının kodu: 142340
Büdcə səviyyəsinin kodu - 7y

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli təklifinə, yüksək keyfiyyətə, analoji işlər üzrə təcrübəsinə, kadr potensilına, maliyyə və texniki imkanlarına.

Tenderdə iştirak etmək istəyənlər 23 may 2014-cü il tarixdə saat 18:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər (tender təklifi və bank təminatı istisna olmaqla).

Əlavə məlumat üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Mübariz Həsənov.

Telefon: 5-43-19
Ünvan: İsmayıllı şəhəri, N.Nərimanov küçəsi 36.

—tender prosedurunda iştirak üçün yazılı müraciət;

—iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər; rekvizitləri, qeydiyyat şəhadətnaməsinin, nizamnaməsinin surətləri;

—vergi qeydiyyatı barədə şəhadətnamə və bildirişin surəti;

—iddiaçının potensial imkanlarının olması barədə texniki məlumat;

—təklifin təminatı— təklifin qiymətinin 2 (iki) faizi məbləğində (təklif zərfləri açıldığı gündən sonrakı 60 bank günü ərzində qüvvədə olmalıdır);

—Azərbaycan Respublikasında vergilərə, Sosial Müdafiə Fonduna və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olub-olmaması haqqında arayış.

Tender təklifi 2 nüsxədə (əsli və surəti) bağlı zərfdə 02 iyun 2014-cü il saat 18:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə İsmayıllı rayon Təhsil Şöbəsinin Tender Komissiyasına təqdim edilməlidir.

İddiaçıların təklif zərfləri İsmayıllı Rayon Təhsil Şöbəsində 03 iyun 2014-cü il tarixdə saat 12:00-da açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

"AZMAN" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 1300120271) təşkilatı hüquqi forması dəyişərək "AZMAN" Mənzil Tikinti Kooperativinə çevrildiyini elan edir.

Əliyev Teymur İdris oğlunun adına Bakı şəhəri, Xətai rayonu, Məzahir Rüstəmov küçəsi ev N-4/6, mənzil N-511 ünvanın H.D.Q.H.D.Ə.D.R. çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

DT XK Bakı şəhər şöbəsi tərəfindən Əliyev Eldar Fikrət oğlunun adına verilmiş JN-937 H saylı (kod: 00500046) torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Mərhum Cəfərova Suriyə Mir Zeynal Abdul qızının adına Yasamal rayonu, 5-ci Yasamal küçəsi, ev N-79 (indiki ünvan Yasamal rayonu X.Q.Mustafayev ev 79) verilmiş (kupçi) evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Külüng İstehsal-Tikinti koperativi (VÖEN: 3100137331) öz fəaliyyətin dayandırır və bağlandığını elan edir. Sualı və etirazı olanlar Abşeron rayonu, Xırdalan ŞTQ-25-ci məhəllə ev N-30, mənzil N-34 ünvanına 30.05.2014-cü il tarixinə qədər müraciət edə bilərlər. Tel: 055 488-09-60

24 mart 1979-cu il Gəncə Tibb məktəbini (əvvəlki adı N.K.Krupskaya adına Kirovabad Baza Tibb məktəbi olub) bitirmiş Muradova Almaz Mahmud qızının adına verilmiş BT N-595724 saylı diplom itdiyi üçün etibarsız sayılır.

"Alatava-Avtonəqliyyat" ASC-nin adının və təşkilati-hüquqi formasını dəyişərək "Alatava-Avtonəqliyyat" QSC-yə çevrilməsini elan edir.

Lənkəran şəhəri, akademik Zərifə Əliyeva küçəsi, 123 ünvanında Rəcəbov Oktay Oruc oğluna məxsus ticarət obyektinə verilmiş reyestrdən çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Kərimov Adıgözəl Fərəc oğlunun adına məxsus Abşeron rayonu, Novxanı kəndi 12 sot torpaq sahəsinin RX N-0305399 çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 539-26-18;
Reklam və elan xidməti: 441-20-23.

● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az

"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 6206
Sifariş 707
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
İlham PƏNAHOV

● Çapa imzalanmışdır
28.04.2014